

YUNİS HÜSEYNOV

# QARABAĞ - ŞUŞA



QARABAĞ - ŞUŞA
YUNİS HÜSEYNOV

**YUNİS HÜSEYNOV**

# QARABAĞ – ŞUŞA

**ƏSƏR 2022-ci il AZƏRBAYCAN RESPUBLİKASINDA "ŞUŞA İLİ"NƏ HƏSR OLUNUR**

**Bakı - 2022**

**V035(2022)**

**REDAKTOR VƏ**
**RƏYÇI: ZABİL BAYRAMLI,**
**tarix üzrə elmlər doktoru,**
**professor**

**RƏYÇILƏR: X.S. QASIMOV,**
**tarix üzrə elmlər doktoru**
**B.O. ƏZİZ,**
**tarix üzrə fəlsəfə doktoru**

**YUNİS HÜSEYNOV, TARİX ÜZRƏ FƏLSƏFƏ DOKTORU «QARABAĞ – ŞUŞA».**
**Bakı, Füyuzat, 2022, 168 səh.**

Əsərdə Şuşa şəhərinin təbii-coğrafi mövqeyi, fauna və florası, kənd təsərrüfatı, kustar sənayesi, ticarət əlaqələri, Qarabağ xanlığı dövründə qadın və kişilərin geyim formaları, məişətləri, elmin, ədəbiyyatın, incəsənətin inkişafı hərtərəfli araşdırılır.

Şuşanın yetirdiyi tarixi şəxsiyyətlər haqqında, faşist hayların şəhərdə və o cümlədən də Qarabağda törətdikləri qanlı cinayətləri, 44 günlük zəfər müharibəsi və onun nəticələri, Şuşa şəhərinin Azərbaycanın Mədəniyyət Mərkəzi elan olunması, Şuşanın daxilində və ətrafında mövcud olan yer adları və başqa tarixi hadisələr əsərdə şərh olunur.

**Kitab müəllif tərəfindən oxuculara hədiyyədir.**

$V\frac{051-(L-41)}{051-035(0168)-2022}$

**© YUNİS HÜSEYNOV,**
**“ŞUŞA” nəşriyyatı, BAKI, 2022**





## AZƏRBAYCAN RESPUBLİKASININ
## DÖVLƏT HİMNİ

*MUSİQİSİ* ***ÜZEYİR HACIBƏYLİNİN,***
*SÖZLƏRİ* ***ƏHMƏD CAVADINDIR***

**Azərbaycan! Azərbaycan!**
**Ey qəhrəman övladın şanlı Vətəni!**
**Səndən ötrü can verməyə cümlə hazırız!**
**Səndən ötrü qan tökməyə cümlə qadiriz!**
**Üçrəngli bayrağınla məsud yaşa!**

**Minlərlə can qurban oldu!**
**Sinən hərbə meydan oldu!**
**Hüququndan keçən əsgər,**
**Hərə bir qəhrəman oldu!**

**Sən olasan gülüstan,**
**Sənə hər an can qurban!**
**Sənə min bir məhəbbət**
**Sinəmdə tutmuş məkan!**

**Namusunu hifz etməyə,**
**Bayrağını yüksəltməyə**
**Cümlə gənclər müştaqdır!**
**Şanlı Vətən! Şanlı Vətən!**
**Azərbaycan! Azərbaycan!**

# AZƏRBAYCAN RESPUBLİKASINDA 2022-Cİ İLİN "ŞUŞA İLİ" ELAN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

**05 yanvar 2022, 12:00**

Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır.

Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunacaq Şuşa şəhəri zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamışdır.

Bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır.

Şuşa şəhərinin ötən əsrin 70-ci illərində sürətli inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə sıx bağlıdır. Şəhərin inkişafına dair xüsusi qərarlar məhz Ulu Öndərin təşəbbüsü ilə qəbul edilmişdir. Həmin vaxtdan Şuşada quruculuq işləri geniş vüsət almış, mədəniyyət xadimlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Strateji mövqeyi ilə seçilən Şuşa Azərbaycana qarşı hərbi təcavüzə başlamış Ermənistanın silahlı qüvvələri tərəfindən 1992-ci il mayın 8-də işğala məruz qalmışdır. İşğal

dövründə şəhərdəki yüzlərlə tarix və mədəniyyət yadigarı vandalizm aktları nəticəsində dağıdılmışdır.

Haqq işi naminə apardığımız 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək, tariximizə Zəfər Günü kimi həkk olundu.

Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılmış, quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliliyin təmin olunması üçün burada dövlət idarəetməsinə böyük diqqət yetirilmiş, **Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi** yaradılmışdır.

Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir.

Cıdır düzündə "Xarıbülbül" musiqi festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili ənənəsinin bərpası da göstərir ki, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni-mənəvi dəyərini nəzərə alaraq qərara alıram:

1. 2022-ci il Azərbaycan Respublikasında "Şuşa İli" elan edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Şuşa İli" ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

**İLHAM ƏLİYEV,**
**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ**

**Bakı şəhəri, 5 yanvar 2022-ci il**

**ŞUŞA TƏKCƏ ŞUŞALILAR ÜÇÜN YOX, BÜTÜN AZƏRBAYCANLILAR ÜÇÜN, VƏTƏNİNİ, MİLLƏTİNİ SEVƏN HƏR BİR VƏTƏNDAŞIMIZ ÜÇÜN ƏZİZ BİR ŞƏHƏRDİR, ƏZİZ BİR TORPAQDIR, AZAD BİR QALADIR**

***ULU ÖNDƏR***
***HEYDƏR ƏLİYEV***

**İYİRMİ SƏKKİZ İL YARIM İŞĞAL ALTINDA OLAN ŞUŞA AZAD EDİLDİ. ŞUŞA İNDİ AZADDIR. BİZ ŞUŞAYA QAYITMIŞIQ. BİZ BU TARİXİ QƏLƏBƏNİ DÖYÜŞ MEYDANINDA QAZANDIQ. 2020-ci İL NOYABR AYININ 8-i AZƏRBAYCAN TARİXİNDƏ ƏBƏDİ QALACAQDIR. BU BİZİM ŞANLI QƏLƏBƏMİZİN, ZƏFƏRİMİZİN GÜNÜDÜR.**

***İLHAM ƏLİYEV,***
***AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ,***
***SİLAHLI QÜVVƏLƏRİMİZİN ALİ BAŞ KOMANDANI***

# ÖN SÖZ

Qarabağ! Bəşəriyyətə Qarabağ mədəniyyəti adı ilə əvəzolunmaz maddi və mənəvi mədəniyyət bəxş etmiş, Azərbaycanın tükənməz sərvətə, mülayim iqlimə, zəngin flora və faunaya malik tarixi etnoqrafik əyalətidir. Qarabağ Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir.

Biz Azərbaycan deyəndə Qarabağ, Qarabağ deyəndə Azərbaycanı nəzərdə tuturuq. Qarabağda etnik, mədəni-ideoloji xüsusiyyətlər kəsb edən adət və ənənələr, özünəməxsus ədəbi məktəb və folkloru təşəkkül tapmışdır. Bu tarixən belə olmuşdur.

Təbiət Qarabağımıza bol sərvət, onun sakinlərinə məğrurluq, qəlbigenişlik, dərin səmimilik, sədaqət bəxş etməyi unutmadığı kimi, ona qonşu xəyanətini də unutmamışdır. Bu xəyanətkar qonşu dedikdə biz hayları nəzərdə tuturuq. Torpaqlarımızda, o cümlədən də Qarabağımıza gətrilib yerləşdirilən haylar dəfələrlə xalqımıza qarşı xəyanətlər və soyqırımı törətmişlər.

Bütün bu deyilənlər, tarix üzrə fəlsəfə doktoru **Yunis Hüseynovun «QARABAĞ – ŞUŞA» əsərində bir daha özünün əksini tapır.**

Qarabağ tarixi üzrə mütəxəssis olan Yunis müəllimin sayca **doqquzuncu** əsəri olan **«QARABAĞ – ŞUŞA»** əsəri **Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandan Cənab İlham Əliyevin 2022-ci il yanvar ayının 5-də verdiyi sərəncamla, 2022-ci ilin ŞUŞA İLİ elan olunmasına həsr edilmiş ən qiy-**

**mətli əsər kimi yaddaşlarda qalacaqdır. Əsər XXX fəsildən və 168 səhifədən ibarətdir.**

Müəllif əsərində Qarabağın təbii-coğrafi mövqeyindən başlayaraq, dövrümüzə qədər əyalətin tarixini araşdırmış, adət və ənənələrini, inkişaf mərhələlərini, müstəqil Qarabağ xanlığının yaranmasını, onun siyasi iqtisadi, mədəni və sosial məsələləri bir daha diqqətə çatdırır.

Şuşa qalasının inşa olunması tarixinə aid öz mövqeyini bir daha bildirir.

Şuşa şəhərinin **1843-cü ildə qəbul edilmiş gerbi də ətraflı şərh olunur.** Kitabda Şuşa şəhərinin meydanları, karvansarayları, küçələri, bulaqları, hamamları, məscid və pirəlri haqqında maraqlı fikirlər irəli sürülür və onlara aydınlıq gətirilir.

Yunis müəllim Şuşa qalasında təşkil olunan mərasimlər və onların mahiyyətləri haqqında milli ənənələri göstərir və onların yaranma tarixini qeyd edir. Əsərdə maraq doğuranlardan biri də Xanlıq dövründə Şuşa şəhərində **Zorxananın təşkilidir.** Zorxanaların məqsəd və vəzifələri, Şüşalı pəhləvanlarının xidmətləri nəzərə çatdırılır.

Yunis müəllim Şuşa sakinlərinin geyimlərinə, qiymətli əşyalarına, qida məhsullarına da öz münasibətini bildirir.

Alim əsərində **44 günlük zəfər müharibəsində parlaq qələbəmizin mənbələrini**, faşist haylarının çürüklüyünü və bu ünsürün hərbi qüvvələrinin məhv edildiyini tutarlı dəlillərlə sübuta yetirir.

**Şuşanın** hay quldur ünsürlərindən azad edilməsində ordumuzun məğrurluğunu böyük həvəslə, vətənpərvərlik his-

si ilə təsvir edir. Şuşada aparılan yenidənqurma işlərinin sürətlə davam etdirilməsi qeyd olunur. Yunis müəllimin kitabda ən uğurlu fəaliyyəti **Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı Cənab İlham Əliyevin və ailə üzvlərinin 2021-ci il mart ayının 21-də Şuşa şəhərinə səfəri materialını əsərində verməsidir.**

Bu əsərin ideya-siyasi dəyərini daha da artırır.

Şuşa şəhərinin beynəlxalq aləmdə tutduğu mövqe, xarici ölkə vətəndaşlarının Şuşaya gəlmələri dediklərimizi sübut edir. Bütün bunlar Yunis müəllimin yeni kitabında öz əksini tapmışdır.

Yunis müəllim «Qarabağ – Şuşa» əsərində şəhərin daxilində və onun ətrafında mövcud olan yer adlarına da aydınlıq gətirir.

Sonda deməliyəm ki, tarix üzrə fəlsəfə doktoru Yunis müəllimin əsəri vaxtında işıq üzü görən elmi əsərdir.

**Z.H.BAYRAMLI,**
***Tarix üzrə elmlər doktoru, professor***

# I FƏSİL
# DAĞLAR MƏSKƏNİ ŞUŞA

**ŞUŞA QALASI** böyük daş qaya üzərində inşa olunmuşdur. Kənardan baxanda adama elə gəlir ki, şəhər səmadan asılıdır.

**KİRS DAĞI.** Onun ən yüksək zirvəsi **2725 metrdir.** Kirs sözünün mənası – **uca, böyük və sıldırım deməkdir.** Dağ **iki zirvəlidir.** İlin **6-7 ayı** zirvələr qarla örtülü olur.

Qarabağımızın şöhrəti sayılan, təbiətin möcüzəsi olan Kirs dağından bir az aralıda **Kiçik (Bala Kirs) Kirs dağı** yerləşir. Onun hündürlüyü **1346 metrə bərabərdir.**

Böyük Kirs dağından **1379 metr kiçik olduğuna görə ona Kiçcik Kirs dağı deyilir.**

Mənim yaxşı yadımdadır, **1941-1945-ci illər Böyük Vətən müharibəsi illərində Şuşanın ÇAXMAQ dağının daş qırıntılarından məişətdə kibrit əvəzinə geniş istifadə olunurdu.**

**ÇAXMAQ DAĞI** zəngin flora və faunaya malik olan dağdır. Onun meşə örtüyü olduqca zəngindir.

**SARIBABA DAĞI.** Dağın hündürlüyü **2295 metrdir.** Şuşa və Laçın rayonları arasında, Qarabağ dağ silsiləsində, Qarqar çayının sol sahilində, Vəzirgansu çayının hövzəsində yerləşir. Dağ zirvəsində yerləşən **Sarıbaba Pirinin** adı ilə adlandırılır.

**SAĞSAĞAN DAĞI.** Qarabağ dağ silsiləsinin şimal-şərq ərazisində yerləşir. **Qarqar və Xaçın** çaylarının suayrıcında yerləşir. Ən yüksək zirvəsinin hündürlüyü **200 metrdir.** Dağda Sağsağan quşları yuva saldıqlarına görə,

həmin quşun adını daşıyır.

**KEÇƏLDAĞ**. Dağ Şuşa rayonunun ərazisində yerləşir. Dağ Şuşa rayonunun Lısaqor aşırımı ərazisindədir.

Dağın hündürlüyü **1800 metrə qədərdir.** Yevlax-Laçın avtomobil yolu Keçəldağ ərazisindən keçir.

Qarabağ ərazisində daha bir neçə Keçəldağ var.

Dağa ona görə Keçəldağ deyilir ki, onun zirvəsində yaşıllıq yoxdur.

**QIZIL QAYA.** Şuşa şəhərinin cənub-qərb ərazisində yerləşir. Muxtar kəndlə Topxana arasında, aşağı DAŞALTI kəndinin qarşısındakı ərazidədir. Qotur bulaq qayanın aşağısından axır.

Günəş üfüqdən çıxarkən qayanın üzərindəki qırmızı mərmər daşın üzərində qızılı rəng əmələ gəlir. Ona görə **QIZIL QAYA** adlanır. **400-450 metr hündürlüyü var.**

**BAĞRIQAN DAĞI.** Şuşa şəhərinin cənub-şərqində yerləşir. Diqqətlə baxdıqda dağın sinəsində at fiquru aydın görünür.

Bağrıqan dağı haqqında əfsanələr el arasında dolaşır. Bunlardan əlavə dağ hay cinayətləri ilə də yaddaşlara həkk olunmuşdur...

Bitki örtüyü bir-birindən fərqlənən və torpaq sahələri, əsas etibarilə qəhvəyi dağ-meşə, qonur dağ-meşə, çimli dağ-çəmən olan çətir-çətir Şuşa meşələrində təbii şəraitdə bitən söyüd, qaraağac, gərməşov, dəmirağacı, gilas, qarellə, zərinc, zoğal, itburnu, əzgil təşkil etsə də ərazilərdə tut, qoz, fındıq ağaclarına, nar, qarağat, moruq, böyürtkən, armud, alma və başqa ağaclar da var. Şuşa meşələrində palıd ağacları da çoxdur.

# II FƏSİL
# ŞUŞANIN FLORASI VƏ FAUNASI

Meşə qaynar həyat məkanı, təbiətin yaşıl **ciyəridir,** heyvanların isti sığınacağı, doğma evləri, insanların əvəzolunmaz istirahət guşəsi, eyni zamanda da qələm və fırça ustalarının ilham mənbəyidir.

Səma şəhəri olan **Şuşanın 20 faizə qədəri meşə sahələri təşkil edir. ŞUŞA şəhərinin florası və faunası olduqca zəngindir.** Təbiətin bütün incəlikləri onların gözəlliklərinə yaşıl işıq saçır.

İlin bütün **4 fəslində yaşıl donunu** dəyişməyən **ŞUŞA MEŞƏLƏRİ** bir kəmər kimi **QALANIN** ətrafına dolanıb gözəlliyini daha da artırır. **Kirs, Şırlan, Armudlu, Əylis, Çınqıllı, Quşçular, Malıbəyli** meşələri, **Zarıslı kəndinin ərazisindən axan Daşaltı və Xəlifəli kəndi ərazisindən axan eyni adlı çayların** sahilləri boyu uzanan meşələr, **Topxana və Çaxmar meşələri** Şuşanın yaşıl örpəyi, əvəzolunmaz bəzəyidir.

**Şuşanın şimal-şərq ərazisində Qarabağ dağ silsiləsinin** yamacında yerləşən dünya gözəli, qıvrım saçlı **Çaxmaq meşəsi**[1] Şuşa şəhərinin nadir təbii sərvətidir. İnsanlar çaxmaq daşından od əldə etmək üçün istifadə edirdilər.

**XARIBÜLBÜL ƏFSANƏSİ**. Günəşli Azərbaycanın **MƏDƏNİYYƏT MƏRKƏZİ OLAN ŞUŞA şəhərinin daxilində və ətraf ərazilərində** tayı-bərabəri olmayan bir

---

**[1] Meşənin adı çaxmaq daşı ilə bağlıdır. Həmin dağın daşlarını bir-birinə sürtməklə, yaxud dəmir və polad alətlə daşa vurub ondan qığılcım almaq olur.**

gül var: – **ADI XARIBÜLBÜLDÜR.** Xalq rəvayətinə görə bu gül gözəlliyi ilə təbiətə əvəzolunmaz gözəllik verir. Bir gün **BÜLBÜL** öz sevdiyi gülün görüşünə gedərkən güclü **külək** əsir. Küləyin məqsədi **gülü bülbülün** yanında xar etmək idi. Külək öz gücünə və təsir dairəsinə həddindən çox inanırdı. Külək əsəndə ətrafı toz bürüyər və bütün gül və kiçiklər ona baş əyərdilər. Bülbül güllə görüşə gedərkən külək var gücü ilə əsməyə başlayır. Güllər çiçəklər və hətta iri gövdəli ağaclar da küləyin qarşısında baş əyirdilər.

Yalnız zərif, xoş iyli gül küləyin qarşısında məğrur dayanaraq ona baş əymirdi. Bunu hiss edən külək heyrətə gəlir və deyir:

**Ay zərif gül, sən hansı cəsarətlə mənə baş əymirsən? Sən bu gücü hardan alırsan?**

**Gül cavab verir:**

**– Mən bu gücü bulbülə olan məhəbbətimdən alıram.** Ona görə ki, məhəbbətin gücü yenilməz olur. Mən bülbülü sevirəm. Onun saf məhəbbəti məni baş əyməyə qoymaz.

Bunu eşidən külək qəzəblənir:

– Baxarıq! Sən məhəbbətini sına, mən də gücümü.

Külək bu sözləri deyib kükrədi. Elə bu vaxt bülbül sevgilisi gülün görüşünə gedirdi. Küləyin qəzəbi yerə-göyə sığmırdı. Bütün otlar, gül-çiçək və ağaclar küləyə baş əyirdilər, yalnız bülbülün sevdiyi gül küləyə tabe olmurdu. Bununla bərabər onun da küləyin qarşısında müqaviməti getdikcə tükənirdi. Çünki o tək qalmışdı.

**Gül bir yarpaq əyildi.** Bunu hiss edən külək sevindi və daha şiddətlə əsməyə başladı. Elə bu çətin anda **Bülbül özünü Gülün köməyinə çatdırır.** Bülbül sinəsini yavaş-

yavaş əyilən gülün köksünə söykəyir. Bülbül gülün azacıq əyilən qamətini düzəldir. Lakin gülün **Xarı-tikanı** onun sinəsinə sancılır. Beləliklə də Bülbül məhv olur, Gülü əyilməyə imkan vermir. Bülbül canını məhəbbəti uğrunda qurban verir. Bülbülün canı Gülün ləçəyinə hopur.

Beləliklə də Gülün adı **XARI-BÜLBÜL** qalır.

**Xarıbülbül gülü Şuşa** florasının və şəhərin **rəmzidir.** Bu gün Şuşa şəhərinin **ÜÇ MIX** dağınında və **ÇANAQQALA** ərazisində daha çox bitirdi...

Şuşanın **faunası da florası kimi olduqca zəngindir.** Meşələrin və dağların çoxluğu və eyni zamanda da əlverişli olması quş və heyvanların yaşamalarına hərtərəfli imkan verir. Meşə və dağlarda **ayı, canavar, tülkü, çaqqal, dovşan, oxlu kirpi, adi kirpi, çöl pişiyi, porsuq, bəbir, maral, sığın, cüyür, dağ keçisi, qartal, tərlan, ağbaş çərkəz, şanapipik, qara və ala qarğa, saxsağan, bülbül, ispan sərçəsi, çalağan, kəklik, göyərçin, qaratoyuq və başqa heyvan və quş növləri geniş yayılmışdır.**



*YUXARI CÜMƏ MƏSCIDI*



*AŞAĞI CÜMƏ MƏSCIDI*



*XURŞUDBANU NATƏVANIN EVI*



*XAN QIZI BULAĞI*



***CIDIR DÜZÜ***





*HACIQULUNUN MÜLKÜ*



*KÖHNƏ ŞUŞA*



***ŞUŞANIN DAĞLARI***






***YENI ŞUŞA***



***ŞIRIN SU HAMAMI***



*ŞUŞA MƏNZƏRƏSI*



*QALA DIVARI*



***ŞOR BULAQ***



***ŞUŞANIN MEYDAN BULAĞI***

*Eşitdiyimə görə hay ünsürləri bulağın daşın*
*Azərbaycan şəhəri olan İRƏVANA aparıbıar*

# III FƏSİL
# ŞUŞA ŞƏHƏRİNİN COĞRAFİ MÖVQEYİ.
# İLK İNSAN MƏSKƏNİ

**Dəniz səviyyəsindən 1500-1800 metr** yüksəklikdə yerləşən Şuşa şəhəri **üç tərəfdən** sıldırım qayalarla əhatə olunmuşdur. Şəhər şimalda **Xankəndi şəhəri,** şərqdə **Xocavənd**, qərbdə **Laçın rayonları ilə həmsərhəddir.** Cənub tərəfdən **Kirs dağından** Şuşaya nəzər saldıqda cənub-şərq tərəfdən şəhəri Sıldırım qayalı dərə əhatə etdiyini aydın görə bilərik.

Bu mənzərə Şuşanın tarixən hərbi əhəmiyyətli qala olduğunu sübut edir.

Şuşa şəhəri **350-400 metr** hündürlüyü olan daş qaya üzərində yerləşir. Dağların aşağı hissələrində dar cığırlar, yamaclar, daş kahalar var.

**ŞUŞA MAĞARA DÜŞƏRGƏSİ.** Mağarada arxeoloji qazıntılar zamanı tapılan maddi-mədəniyyət qalıqları sübut edir ki, mağarada **200-250 min il bundan əvvəl ibtidai insan yaşamışlar.** Əldə edilən əşyalar **PALEOLİT (Qədim daş dövrü mərhələsi)** dövrünə aiddir. Tapılan əşyaların **4 ədədi kobud çapma aləti, 5 ədədi qaşov tipli alət, 2 ədəd MUSTYE (Paleolit dövrü mədəniyyət) və LEVALUA (Levallua arxeologiyada Poleolit dövrü üçün daş alətlər hazırlamaq texnologiyası mənasını verir) iti uclu alət 6 ədəd qəlpə və digər alətlər tapılmışdır.**

Düşərgə Şuşa şəhəri ərazisində yerləşdiyinə görə ona **ŞUŞA MAĞARA DÜŞƏRGƏSİ** adı verilmişdir.

Şuşa şəhərini əhatə edən qayaların Daşaltı çayının sahilindən başlayaraq **350-400 metr hündürlüyündədir.**

Dağların aşağı hissələrində dar cığırlar, yamaclar var. Eyni zamanda da dağ kahaları də əzəmətli dağlara xüsusi gözəllik verir.

# IV FƏSİL
# MÜSTƏQİL QARABAĞ XANLIĞININ YARANMASI

Qarabağ xanlığının banisi, görkəmli sərkərdə və dövlət xadimi **PƏNAHƏLİ AĞA CAVANŞİR 1693-cü ildə Qarabağın Sarıcalı** mahalında bəy ailəsində anadan olmuşdur. O, gənc yaşlarından **Nadir şahın xidmətində olmuş və onun hərbi səfərlərində iştirak etmişdir.** Pənahəli ağa Nadir şahın hərbi strategiya və taktikasına mükəmməl yiyələnmişdir.

Pənahəli ağa şəxsi igidliyi və qabiliyyəti ilə Nadir şahın dərin rəğbətini qazanmışdır. Lakin o, şahın müəyyən hərəkətlərini xoşlamırdı. Lakin bu hərəkətləri büruzə vermirdi...

Saray əyanları, hətta Nadir şahın ailəsinin bəziləri və qoşun başçıları da Pənahəli ağanın şahın yanında hörmətli olmasına qısqancıllıqla yanaşırdılar. Onu şahın nəzərindən salmaq üçün hər vasitəyə əl atırdılar. Nadir şah Pənahəli ağaya **bəy titulu da vermişdir.** Eyni zamanda onu Sarayda keşik ağası vəzifəsinə təyin etmişdir. Nəhayət paxıl adamlar Pənahəli bəyi Şahın nəzərindən sala bildilər. Pənahəli bəy bunu şahın ona münasibətlərindən aydın hiss edirdi.

Nadir şahın qəzəbindən qurtarmaq üçün onun sarayını tərk etmək lazım idi. O, bir neçə yaxın adamları ilə **1745-ci ildə** vətənə qayıdır **1747-ci ildə** Nadir şahın dəhşətli qətlindən sonra Pənahəli ağa açıq fəaliyyətə başlayır.

**1747-ci ildə Pənahəli ağa 1551-ci ildə yaranan Qarabağ bəylərbəyliyini iki hissəyə bölməyə nail olur.** Bəylərbəyliyin yerində iki müstəqil xanlıq – **QARABAĞ VƏ**

**GƏNCƏ xanlıqları yaranır.** Qarabağ da hakimiyyət Qacarlardan Cavanşirlərə keçir. Qarabağda bu zaman **beş alban mənşəli məliklər var idi.** Onlardan yalnız biri – Xaçın məlikliyi yerli idi. Qalanları isə kənardan Qarabağa gəlib sığınmışdılar.

Qarabağ xanlığının mərkəzi şəhəri yox idi. Pənahəli xan qısa müddət ərzində xanlığın ilk mərkəzi şəhərini – **BAYAT qalasını 1748-ci ildə tikdirib başa çatdırdı.** Pənahəli xanın şöhrəti artırdı. Bu isə Şəki hakimi Hacı Çələbi xanın düşmənçiliyinə səbəb oldu. O, Şirvan xanı ilə ittifaq bağlayıb Bayat qalasına hücum edib, qalanı **bir ay mühasirədə saxladı.** Lakin Pənahəli xan Hacı Çələbinin və onun müttəfiqlərini Bayat qalasının divarları arxasında tamamilə əzdi. Pənahəli xan heç bir fərmanla Qarabağ xanı elan edilməmişdir.

Tarixçi Mirzə Camal bəy Cavanşir yazırdı: «Hacı Çələbi xan Şəkiyə qayıdarkən demişdir, – **«Pənahəli xanı bir xan idi. Biz gəldik və onunla vuruşduq, qalib gələ bilmədik. Biz indi onu şah elan edib geri qayıdırıq»**.

Bayat qalasından sonra Pənahəli xan Şahbulaq qalasını **1749-cu ildə inşa etdirib, onu** Qarabağın **ikinci mərkəzi elan etdirdi.** Lakin Şahbulaq qalası da Bayat qalası kimi bir o qədər etibarlı deyildi. Daha doğrusu güclənməkdə olan Qarabağ xanlığının mərkəzi ola bilməzdi. Daha etibarlı mərkəz qala inşa etdirmək ideyası irəli sürülürdü. Yeni mərkəz qala inşa etdirmək məqsədilə Qarabağ ərazisini yaxşı tanıyan adamlardan ibarət dəstələr yaradıldı. Onlar **üç tərəfi uca dağlarla əhatə olunmuş, ağaclarla, kol-kosla örtülü olan bir ərazini müəyyən etdilər.** Bu ərazi indiki

**ŞUŞA** şəhərinin yerləşdiyi ərazi idi.

**1750-ci il avqustun sonu və sentyabr ayının əvvəllərində Şuşa şəhərinin bünövrəsi qoyuldu.** Ərazi ağaclardan, kol-kosdan təmizləndi, tikinti işləri sürətlə davam edirdi. Bunu dövrün beynəlxalq şəraiti də tələb edirdi.

Yeni mərkəz qalaya **PƏNAHABAD adı verildi. XVIII əsrin ikinci yarısında isə şəhərə ŞUŞA** adı verilmişdir. Qalanın tikinti işlərinə İbrahimxəlil xan və Molla Pənah Vaqif rəhbərlik edirdilər.

**Molla Məhəmməd əl-Cari** Şuşa qalasının etimologiyası haqqında yazmışdır: **«ŞUŞA QALASININ ETİMOLOGİYASI ƏRƏB SÖZÜ – «ŞAİŞƏ» – ŞUŞ – QƏHRƏMAN, MÜBARİZ, «ƏL – QALATU – Ş – ŞAUŞƏN» QƏHRƏMAN, YENİLMƏZ QALA KİMİ İZAH ETMƏK OLAR»[1].**

**1763-cü il avqust ayının 21-də Pənahəli xan Şiraz şəhərində vəfat etdikdən sonra, onun oğlu İbrahimxəlil xan Qarabağ xanı olmuş və 1806-cı ilə kimi xanlığı layiqincə idarə etmişdir.**

---

**[1] Bax: – Molla Məhəmməd Əl-Cari, «CAR SALNAMƏSİ». Bakı, 1997, səh. 135.**

# V FƏSİL
# MOLLA PƏNAH VAQİF VƏ QARABAĞ XANLIĞI

M.P.Vaqif **XVIII əsr Azərbaycanın seçilib sayılan siyasi və ictimai xadimlərindən biri idi.** O, **1717-ci ildə Qazax rayonunun Salahlı kəndində anadan olmuşdur.** Belə bir fərziyyə vardır ki, Vaqif, **dahi Məhəmməd Füzulinin həmyerlisidir.** Yəni **BAYATDAN QAZAX mahalına köçüb, gələnlərdəndir.** Eyni zamanda da deyirlər ki, Vaqif **PƏNAH ADINI** Şuşaya köçüb gələndən sonra, **PƏNAƏLİXANIN şərəfinə götürmüşdür.**

Vaqif mükəmməl mədrəsə təhsili almıqdı. Fars və ərəb dillərini yaxşı bilirdi. Hərtərəfli biliyə yiyələnən M.P.Vaqif astronomiya, riyaziyyat elmlərini, memarlığı, musiqini də bilirdi. Bədii yaradıcılığı geniş və hərtərəlfi idi. Onun şeir və qəzəlləri əldən-ələ keçərək bizə gəlib çatmışdır. **Qazaxda, Gəncədə, Şuşada məscid mədrəsələrində** müəllimlik etmişdir. O, Şuşa şəhərindəki **SAATLI məscidində** məktəb açaraq uşaqlara dərs edmişdir. Az bir müddətdən sonra məşhurlaşan Vaqif, Qarabağ xanlığının xanı İbrahimxəlil xan tərəfindən Saraya dəvət olunaraq **KEŞİK AĞASI, 1769-cu İLDƏ XANLIĞIN BAŞ VƏZİRİ TƏYİN EDİLİR.**

Bu təiynatdan sonra M.P.Vaqif xanlığın siyasi, iqtisadi, mədəni və sosial həyatında məqsədyönlü fəaliyyət göstərir. İbrahimxəlil xanın ən sədaqətli köməkçisi olur.

M.P.Vaqifin yaradıcılığının tanınmış tədqiqatçısı olan **ƏZİZ ŞƏRİFİN** DEDİYİ KİMİ: **– «Qarabağ xanlığının vəziri vəzifəsində VAQİF qeyri-adi dövlət xadimi, ağıllı**

**və uzaqgörən siyasətçi kimi özünü göstərmişdir».**

Mən bu iqtibası sona çatdırdıqdan sonra, belə bir fikir söyləməyə məcbur oldum:

**«AZƏRBAYCANIN BUGÜNKÜ QARABAĞ HADİSƏLƏRİ VAQİFİN, YOXSA İBRAHİMXƏLİL XANIN UZAQGÖRƏN SİYASƏTİNİN NƏTİCƏSİDİRMİ?»**

M.P.Vaqif Qarabağ xanlığının sarayında mühüm vəzifəyə təyin edildikdən sonra, **SÜNNÜ** məzhəbindən imtina edib, **ŞİƏLİYİ qəbul edir. 1783-cü ildə Gürcüstanın** Rusiya imperiyasının təbəəliyinə keçməsi ilə əlaqədar olaraq, Vaqif həmin şənliklərdə iştirak edən, Qarabağ xanlığının nümayəndə heyətinə başçılıq etmişdir.

Ağa Məhəmməd şah Qacar İranda hakimiyyətə gəldikdən sonra, İranda Qacarlar sülaləsinin hakimiyyəti başladı[1]. Qacarlar nəslindən olan **ZİYADOĞLULAR Qarabağı 200 ilə qədər idarə etmişlər.** Bəlkə də Ağa Məhəmməd şah Qacar Qarabağ uğrunda mübarizə apararkən, ona qohum olan qacarların tarixə qovuşan hüquqlarını bərpa etməyi nəzərdə tuturdu. Lakin o, bunu açıq bildirmirdi. Lakin onun məqsədi: – **AZƏRBAYCAN SƏFƏVİLƏR İMPEİYASININ SƏRHƏDLƏRİNİ BƏRPA ETMƏK VƏ QACARLAR İMPERİYASINI YARATMAQDAN İBARƏT İDİ.**

Ağa Məhəmməd şah Qacar təhlükəsi, ona qarşı hərbi ittifaqaların yaranmasına səbəb olurdu. Onun Qarabağ xanlı-

---

[1] **Bu hadisə 1796-cı ildə baş vermişdir.**

ğına hücumu ərəfəsində Vaqifin də iştirak etdiyi İbrahimxəlil xanın, Gürcüstan hakimi II İraklinin, İrəvan xanı Məhəmməd xanın və Talış xanı Mir Mustafa xanın görüşü oldu. Onların məqsədi Qacar şahına birgə mübarizə aparmaq üçün hərbi ittifaq bağlamaq idi.

Onu da deyim ki, Ağa Məhəmməd şah Qacar Şimali Azərbaycan xanlıqlarının Rusiya imperiyasının təbəəliyinə keçməsinin qəti əleyhinə idi...

Qarabağa hücum ərəfəsində Qacar şahı (xanı) İbrahimxəlil xandan tələb etdi ki, ona tabe olsun. Buna sübut olaraq oğlunu şah sarayına girov göndərsin. Lakin xan onun təklifini qətiyyətlə rədd etmişdir.

Qarabağ xanlığında baş verən siyasi hadisələrin gedişində Molla Pənah Vaqif səmərəli fəaliyyət göstərirdi.

# VI FƏSİL
# AĞA MƏHƏMMƏD ŞAH QACARIN QARABAĞ XANLIĞINA HÜCUMLARI. ŞUŞA QALASINI MÜHASİRƏYƏ ALMASI

İbrahimxəlil xanın Qacar şahına verdiyi rədd cavabı onun amansız qəzəbinə səbəb olmuşdur. Ona görə də o, **1795-ci ilin iyun ayında ARAZ** çayını keçib Qarabağ xanlığının ərazisinə daxil olub, Şuşa istiqamətində irəlilədi. Bu hücumda **85 min nəfərlik** ordu iştirak edirdi.

Şuşa qalasını **1500** xan döyüşçüsü və **3000 nəfərlik muzdla tutulan Dağıstan silahlı qüvvələri müdafiə edirdilər.** Döyüşlərdə mülki əhali də qəhrəmanlıqla iştirak edir, qızılbaşlara ağır zərbələr vururdular.

Qacar şahı ŞUŞA qalasını **33 gün mühasirə də saxladısa da heç bir uğur əldə edə bilmədi.** Şəhərin müdafiəsi yaxşı təşkil edilmişdir. Ağa Məhəmməd şah Qacar başa düşürdü ki, qalaya girə bilməyəcək, hər gün çoxlu itgilərə məruz qalan Qacar şahı mühasirədən əl keçərək Gürcüstana hücum etməyi qərara aldı.

**1796-cı ilin mart ayında** Ağa Məhəmməd Qacar **rəsmi surətdə şah elan olundu.** Bu onun siyasi mövqeyinin möhkəmlənməsi demək idi.

Ağa Məhəmməd şah Qacar öz məqsədinə çatmaq üçün **1797-ci il iyun ayının 27-də ikinci dəfə Şuşa qalasını mühasirə edib, şəhəri tuta bildi.** Lakin şah Şuşanı tutarkən **QURANİ-KƏRİMƏ and içib verdiyi əhdi pozduğuna görə, həmin ilin iyul ayının 4-də öz adamları tərəfindən qətlə yetirildi.** Mən Qacar şahının və onun hərbiçilərinin

Şuşa qalasında törətdikləri cinayətləri açıqlamaq istəmirəm...

Şuşa qalasını müvəqqəti olaraq tərk edən İbrahimxəlil xan Qacar şahının qətlindən sonra Şuşaya gəldi və siyasi fəaliyyətinə başladı. Xanın Şuşada olmamasından istifadə edən bir para adamlar özbaşınalığa yol verərək, xanın silahdaşlarına divan tutmuşlar. Həlak olanların içərisində Vaqif və oğlu da var idi.

Xarici müdaxilələr, təbii fəlakətlər nəticəsində Qarabağ xanlığı **XIX əsrin əvvəllərində siyasi və iqtisadi cəhətdən xeyli zəifləmişdir.** Qarabağ uğrunda dövlətlərarası mübarizə son həddə çatmışdı. Bu mübarizə bütün Azərbaycan uğrunda gedirdi. Bu sahədə Rusiya imperiyası daha fəal idi. İbrahimxəlil xanın qarşında çox çətin siyasi seçim dururdu. O, ya Rusiya imperiyasının, ya Qacarlar məmləkətinin və ya da Osmanlı imperiyasının təbəəliyini qəbul etməli idi.

Məlum olduğu kimi Osmanlı imperiyası siyasi cəhətdən zəif idi. Qacarlar dövləti də Qarabağ xanlığı haqqında müsbət fikirdə deyildi. Rusiyaya olan münasibət Xan Sarayında «müsbət» qarşılanırdı. Lakin onun məkirli niyytələri nəzərə alınmırdı...

# VII FƏSİL
# KÜRƏKÇAY MÜQAVİLƏSİ VƏ ONUN SİYASİ MAHİYYƏTİ

**XVIII əsrin ikinci yarısından başlayaraq, XIX yüzillik də daxil olmaqla Rusiya imperiyası Cənubi Qafqaz uğrunda silahlı mübarizəyə başladı.** Bu mübarizədə Şimali Azərbaycan xüsusi yer tuturdu. Ona görə ki, bu ərazi əlverişli coğrafi mövqeyə və zəngin xammal bazasına malik idi. Rusiyada kapitalizmin inkişafı onun sənayesi üçün xammal bazasının olmasını tələb edirdi.

Gəncə faciəsindən **(1804-cü il)** sonra Rusiyanın hakim dairələri Qarabağı işğal etmək siyasəti aparırdılar. Bu sahədə Qacarlar da fəal iş aparırdılar. Həmin dövlətlərin elçiləri Qarabağ xanı İbrahimxəlil xanı öz tərəflərinə çəkmək məqsədilə ona qiymətli hədiyyələr verməklə xanı ələ almağa çalışırdılar. Xan sarayında Qacarlara və ruslara münasibət isə müxtəlif idi. Uzun mübahisədən sonra ruslara meyilli qüvvələr qalib gəldi...

**1805-ci il may ayının 14-də İbrahimxəlil xan əyanları ilə birlikdə, Gəncə şəhəri yaxınlığında yerləşən KÜRƏKÇAY** sahilinə gələrək, Rusiyanın Cənubi Qafqaz üzrə canişini, xalqımızın qəddar düşməni olan S.D.Sisianovla bədnam Kürəkçay sülh müqaviləsini imzaladı.

Bu müqavilə Azərbaycanın faciəsinin başlanğıcı demək idi. **11 maddədən ibarət olan** müqavilənin şərtlərindən general Sisianov çox razı idi. Onu özünün ən böyük uğurlarından biri hesab edirdi... O, **1805-ci il may ayının 22-də**

imperator I Aleksandra məktub yazaraq, Rusiya imperiyasının ərazisinin genişlənməsi münasibətilə imperatoru təbrik etdi. Şuşa Qalasının qapısının açarını və müqavilənin mətnini ona göndərdiyini bildirdi. Həmin qala qapısının açarı Sankt-Peterburqda, Ermitaj muzeyində saxlanılır...

Sisianovun əsas məqsədlərindən biri də Şuşa qalasına hərbi qüvvə yeritmək idi. Kürəkçay müqaviləsindən sonra, mayor İ.Lisanoviçin başçılığı ilə **500 nəfər rus əsgəri 3 topla birlikdə Şuşa qalasına daxil oldu.**

Az keçmədi ki, dəli mayor Lisanoviç Şuşada əsas siyasi fiqura çevrildi. İbrahimxəlil xanın hüquqları əlindən alınmışdı. O, özünün siyasi səhvini başa düşdüsə də artıq işişdən keçmişdir. Rusiyanın ali hakimiyyətinin riyakarlığı, aldadıcı vədləri getdikcə açıq şəkildə özünü göstərirdi. Müqavilə də nəzərdə tutulan **«şərtlər»** ləğv olunurdu. İbrahimxəlil xanı aradan götürmək üçün tədbirlər görülürdü.

**1806-cı il iyun ayının 14-də gecə Lisaneviçin və Carayevin başçılığı ilə 200 nəfərlik rus əsgəri, Şuşa yaxınlığında yerləşən xanın düşərgəsinə hücum edərək, İbrahimxəlil xanı, onun ailəsini, yaxın adamlarını, ümumilikdə 35 nəfərə qədər adamı vəhşicəsinə qətlə yetirdilər.** Beləliklə də İbrahimxəlil xan Rusiya imperiyasının nümayəndələrindən son hədiyyəsini aldı...

İ.Lisanoviç nahaq qan tökdüyünə görə layiqli cəzasını aldı. **1825-ci ildə o, Şimali Qafqazda Gersel aulunun yaxınlığında əsir götürülən kalmıklara ağır cəza verərkən, bir nəfər kalmık. Onu qılıncla doğramışdı...**

# VIII FƏSİL
# ŞUŞA ŞƏHƏRİNİN ƏHALİSİ VƏ SOSİAL TƏRKİBİ

Dəqiq olmayan məlumatlara görə **XVIII əsrin** axırıncı **onilliyində** Şuşa qalasında **10 min** nəfərə qədər adam yaşayırdı. **1823-cü ildə** Şuşa şəhərində **1532 ailə yaşayırdı.** Onların **1500-**ü Azərbaycan ailəsi, **32-i isə** kürdlərin, ləzgilərin və rusların ailələri idilər. **XIX əsrin** başlanğıcında Şuşada əhalinin sayı xeyli artmışdı. Əldə olan məlumata görə **1830-cü ildə** Şuşa şəhərində **25881** nəfər əhali yaşayırdı. Şəhərdə sənayenin, ticarətin sənətkarlığın və maarifin inkişafı nəticəsində **1917-ci ildə** Şuşada əhalinin sayı **43869 nəfərə çatmışdır.** Bu **1913-cü illə müqayisədə 1301 nəfər çox idi.** Deməli, **1913-cü ildə** Şuşa şəhərinin əhalisinin sayı **42568** nəfər idi.

Tarixi mənbələrə görə **1830-cu ildə** Şuşa şəhərinin sosial tərkibi belə idi:

Göstərilən ildə Şuşada **56 bəy, 64 müsəlman ruhani, 200 tacir və 266 sənətkar** ailəsi yaşayırdı. Şəhərdə iqtisadi və sosial inkişafı əhalinin sosial tərkibinə əhəmiyyətli dərəcədə təsir göstərirdi.

**1897-ci ildə** keçirilən əhalinin ümumrusiya siyahıya alınmasına görə Şuşada **2227 zadəgan, 270 din xadimi, 1416 tacir, 2738 sənətkar, 97 dövlət məmuru, 121 müəllim, 6 tərbiyəçi, 40 səhiyyə işçisi qeydə alınmışdır.**

Aparılan elmi təhlillər sübut edir ki, **1897-ci ildə** bəy ailələrinin sayı daha çox artmışdı, təxminən **40 dəfə**, sənətkarların sayı **10 dəfə**, tacirlərin sayı **7,5 dəfə** artmışdır. Bir daha qeyd edək ki, bu artım şəhərdə iqtisadiyyatın və mədəniyyətin inkişafının nəticəsi idi.

# IX FƏSİL
# QARABAĞ XANLIĞI İBRAHİM XANDAN SONRAKI DÖVRDƏ

İbrahimxəlil xanın, ailə üzvlərinin və yaxın adamlarının faciəli qətli Qarabağda və onun mərkəzi Şuşada həyəcana və böyük narazılığa səbəb oldu. Fətəli şah qızılbaş qoşunlarını yenə də bir neçə dəfə Qarabağa və Şuşaya göndərdi. Şuşa əhalisinin narazılığından qorxan rus komandanlığı öz mövqeyini dəyişməyə məcbur oldu.

Qarabağ xanlığı vəzifəsinə onun oğlu Mehdiqulu ağa təyin olundu. O, **1807-ci ildən 1822-ci ilə kimi** bu vəzifədə olmuş və ağır məhdudiyyətlərlə qarşılaşmışdır. Şuşa qalasında komendant olan rus məmurları xanlığın ləğv olunması uğrunda iş aparırdılar. Hətta onlar Mehdiqulu xana təklif edirdilər ki, xanlığı imperator I Aleksandra bağışlamaq üçün ona müraciət etsin.

**Qarabağ uğrunda Rusiya ilə Qacarlar sarayı arasında birinci müharibə 1804-cü il iyun ayının 16-dan, 1813-cü il 12 oktyabr Gülüstan sülh müqaviləsinin imzalanmasına kimi davam etmişdir.**

**Gülüstan müqaviləsi bəşər tarixində, özgə torpaqlarının bölüşdürülməsi yolunda imzalanmış ilk qeyri-qanuni və zorakı müqavilələrdən biridir.**

Gülüstan sülhünə əsasən Şimali Azərbaycan torpaqları ilə birlikdə Qarabağ xanlığı da Rusiya imperiyası tərəfindən işğal olundu. İkinci Rusiya Qacarlar müharibəsi 1826-1828-ci il Türkmənçay sülhü ilə başa çatdı. Bununla da Azərbaycan rəsmi olaraq iki hissəyə parçalandı.

**1822-ci ildə Rusiya imperiyası Kürəkçay müqaviləsinin şərtlərini kobud surətdə pozaraq Qarabağ xanlığını ləğv etdi.**

Rusiya imperiyasının bu özbaşınalığı beynəlxalq hüquqa tamamilə zidd idi. Müasir Rusiya Federasiyasının bu siyasəti hazırda da davam edir...

Xanlıq ləğv edildikdən sonra Şuşa da komendant (hərbi) üsul-idarəsi tətbiq olundu. Qarabağda, o cümlədən Şuşa qalasında hökm sürən qanunsuzluq və özbaşınalıq baş alıb gedirdi. Bu haqsızlıqlar rus məmurları tərəfindən də etiraf olunurdu. Rusiya Senatının üzvləri E.İ.Meçnikov və P.İ.Kutausov yazırdılar:

**«Müsəlman əyalətlərinin idarə olunmasını nəzərdən keçirərkən adam rəislərin azğınlığından və əhalinin düçar olduğu əzab-əziyyətdən dəhşətə gəlir. Qanun əsarət altına alma alətinə çevrilmişdir. Dairə rəislərinin, komendantların, kiçik nahiyələrin polis rəislərinin və başqa vəzifəli şəxslərin fəaliyyətinin əsas amilləri tamahkarlıq (yəni rüşvətxorluq, vəzifələrindən şəxsi varlanmaq üçün istifadə etmələri – Y.H.), azğınlıq və özbaşınalıq idi».**

**1846-cı il Cənubi Qafqazın inzibati ərazi islahatına görə Şuşa qəzası Şamaxı quberniyasının, 1868-ci ildə Şuşa qəzası yeni yaradılan Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edildi.**

# X FƏSİL
# ŞUŞA ŞƏHƏRİNİN GERBİ

**1843-cü il may ayının 21-də** Azərbaycanın başqa şəhərləri ilə birlikdə Qarabağın mərkəzi şəhəri **ŞUŞA** şəhərinin də **gerbi** Rusiya imperiyası tərəfindən təsdiq olundu.

Gerbin yuxarı hissəsində qızılı fonda Kaspi vilayətinin bir hissəsi, aşağıda yaşıl fonda Asiya yəhəri və cilovu olan sürətlə qaçan at təsvir olunur.

Gerbin aşağı hissəsində göstərilir ki, Şuşa qəzasında əla at cinsləri (Qarabağ atları) yetişdirilir, Asiya yəhəri və cilovu düzəldilir.

Şuşa şəhərinin gerbinin təsviri **XIX əsr** alman heraldika ustası **Quqo Ştrexelin rəsmi əsasında verilmişdir.**

Bütün sənədlər sübut edir ki, rus hakimiyyəti Şuşanı da Bakı kimi müsəlman əyalətlərinə daxil etmişdir. Şuşa şəhərinin gerbi Bakı şəhərinin gerbindən yalnız aşağı hissəsi ilə fərqlənir.



# XI FƏSİL
# ŞUŞA ŞƏHƏRİNİN MƏHƏLLƏLƏRİ VƏ MEYDANLARI

Şuşa şəhəri **17 MƏHƏLLƏYƏ BÖLÜNÜR.** Həmin məhəllələr böyüklüyünə və relyefinə görə bir-birindən fərqlidir. Şuşa şəhərinin məhəllələri aşağıdakılardır:

**Birinci məhəllə – Xanlıq aradır**. Əsl adı **Mir** deməkdir. İbrahimxəlil xanın sarayının yanında yerləşir. **Mir** sözü ərəb sözü olub rəis, başçı, rəhbər mənasını verir. Görünür məhəllə Qarabağ xanlarının sarayına yaxın olduğuna görə xanların şərəfinə MİR deyiblər.

**İkinci məhəllə –** Saatlı məhəlləsidir.
**Üçüncü məhəllə –** Köçərli məhəlləsidir.
**Dördüncü məhəllə –** Mamayı məhəlləsidir.
**Beşinci məhəllə –** Xoca Mərcanlı məhəlləsidir.
**Altıncı məhəllə –** Dəmirçilər məhəlləsidir.
**Yeddinci məhəllə –** Hamamqabağı məhəlləsidir.
**Səkkizinci məhəllə –** Təzə miəhəlləsidir.

**AŞAĞI MƏHƏLLƏLƏR:**
**Birinci məhəllə – Qurdlar məhəlləsidir.**
**İkinci məhəllə – Seyidli məhəlləsidir.**
**Üçüncü məhəllə – Culfalar məhəlləsidir.**
**Dördüncü məhəllə – Quyuluq məhəlləsidir.**
**Beşinci məhəllə – Çuxur məhəlləsidir.**
**Altıncı məhəllə – Dördlər Qurdu məhəlləsidir.**
**Yeddinci məhəllə – Dörd Çinar məhəlləsidir.**
**Səkkizinci məhəllə – Hacı Yusifli miəhəlləsidir.**
**Doqquzuncu məhəllə – Çölqala məhəlləsidir.**

Göstərilən məhəllələrin bir hissəsi həmyerlilər cəmiyyətinin adı ilə – Qurdlar, Seyidli, digər bir hissəsi isə şəhərdə yerləşdikləri yerin adı ilə – Çölqala, Hamamqabağı (Şuşada ilk hamamı Əbdüssəməd bəy inşa etdirmişdir) və yerin səthi quruluşuna görə Çuxur məhəllə adlandırılmışdır. Dəmirçilər məhəlləsində eyni adlı Türk tayfasından olan dəmirçilər yaşayırdılar. Quyuluq məhəlləsi quyularının çoxluğu ilə bu adı daşıyırdı. Saatlı məhəlləsinin adı Saatlı tayfasının adından götürülmüşdür. Bu tayfadan olan yeddi ailə bura Molla Pənah Vaqiflə birlikdə gəlmişlər. Vaqif Saatlı məhəlləsində olan məsçiddə məktəb açıb uşaqlara dərs demişdir.

**Şuşada Bazarbaşı, Meydan, Torpaq** adlanan böyük meydanlar var. Hər bir məhəllə məsçidinin qarşısında ayrıca meydançalar da var. Bir sıra tədbirlər – bayramlar və dini tədbirlər həmin meydançalarda təşkil olunardı. Şuşalılar asudə vaxtlarını meydan və meydançalarda keçirərdilər.

Meydanlar və meydançalar səliqə və səhmanları ilə diqqəti cəlb edirdi.

## ŞUŞANIN KÜÇƏLƏRİ

Şuşa qalasının küçələri qeyri-adi mənzərə yaradır. Küçələr məhəllələri bir-biri ilə əlaqələndirir və onları birləşdirirdi.

**ŞUŞA QALASININ** baş küçəsi Rastabazar adlanır. **RASTABAZAR FARSCA DÜZ KÜÇƏDƏ YERLƏŞƏN BAZAR MƏNASINI VERİR.** Küçənin salınması üçün Şuşa qalasının ərazisinin ən münasib ərazisi seçilmişdir. Küçə bir çox məntəqələri birləşdirir. Daha doğrusu Xan

Sarayını və onun qarşısında olan küçə və ticarət şəbəkələrini, Aşağı bazar vasitəsilə Torpaq meydanını əlaqələndirir.

Rastabazar və Aşağı bazar geniş yol boyunca uzanırdı. Onların hər **iki tərəfində** Tacir dükanları yerləşirdi. Eyni zamanda bu küçələr də karvansaraylar, hamamlarp, məsçidlər yerləşirdi.

Gündən, yağışdan və qardan qorunmaq üçün Rastabazarın hər **iki** tərəfinin üstündə, tacir dükanlarının qarşısında daş sütunlu eyvanlar var idi. Onların qarşısında göçə ağacları əkilmişdir. Həmin ağaclar **XX əsrin 60-cı illərinə qədər** Şuşanın bəzəyi idi...

Rastabazar və Şeytanbazar küçələrində yerləşən ticarət dükanlarının qarşısı böyük düzbucaqlı daşlarla örtülmüşdü. Küçələr müxtəlif rəngli çay daşları ilə döşənmişdir.

Şuşa küçələrində yerləşən evlər də xüsusi gözəlliyə malik idi. Evlərin sakinləri həyətlərində müxtəlif meyvə ağacları və gül kolları əkirdilər.

Şuşa qalasının küçələri daşlarla döşənilmişdir və olduqca rahat idi. Küçələr dolanbac, yoxuşlu-enişli idi. Şuşa küçələrində evlər hündür hasarla əhatə olunurdu.

Şuşa qalasında yağış və qar sularının axması üçün tağbəndlə örtülü olan yeraltı arxlar bir neçə küçələrdə var idi. Ümumiyyətlə bu sistem **XVIII əsrdən** Şuşada mövcud idi.

Şuşa küçələri neftli çıraqlarla işıqlandırılırdı. Bu işlə xüsusi adamlar məşğul olurdulapr. **XIX əsrin sonunda** Şuşa küçələrində **30-a qədər çıraq var idi.**

Şuşa küçələrini tacir Məşədi Tağının, Hacı Qulunun, Xurşudbanu Natəvanın, Məhəmmədhəsən ağanın (İbrahimxəlil xanın oğlu), Mehmandarovların, Zöhrabbəyovların,

Əsəd bəyin və başqalarının mülkləri bəzəyirdi.

Yuxarı və Aşağı Gövhər ağa məsçidləri, Xan Sarayı, Qala divarları, bürclər, böyük və kiçik şəhərdaxili körpülər Şuşa şəhərinin fəxri memarlıq abidələri idilər.

Şuşa təbii muzey idi.

## ŞUŞA QALASININ SU TƏMİNATI

**1750-ci ildə Pənahabad qalası inşa edilərkən ərazidə axar su mənbəyi yox idi.** Bu sahədə mövcud olan çatışmazlıqları aradan qaldırmaq üçün xeyli iş görüldü.

**XIX əsrin 70-ci illərinə qədər** Şuşa şəhərinin əhalisi kəhriz sularından istifadə edirdi. Su kəhrizlərindən, Daşaltı və Xəlifəli çaylarından gətirilən içməli su şəhərdə baha qiymətə satılırdı. Su satanlar suyu eşşəklərdə, qatırlarda və arabalarda gətirirdilər. Bunun üçün onlar tuluqlardan istifadə edirdilər. Şuşalılar içməli suyu saxlamaq üçün torpağı qazır, iri küplərin həcminə uyğun olan həcm də çalaya qoyub, ətrafını sona kimi torpaqla örtürdülər. Küpün ağzını mis boşqabla örtürdülər. Burada su sərin qalırdı və təravətini itirmirdi.

Şuşa qalasında həyətlər də çoxlu su quyusu var idi. Lakin onların əksəriyyəti şor sulu idi. Şirin su quyuları Çuxur məhəllədə və Gövhər ağalıq da idi. Suya olan ehtiyacını ödəmək üçün bir çox şuşalılar həyətlərində su anbarları inşa etdirmişdilər. Həmin anbarlara yağış və qar suları toplanırdı.

Özünün xeyirxah işləri ilə bütün Qarabağ əhalisinin dərin hörmətini qazanan xan qızı Xurşudbanu Natəvan **1873-cü ildə öz hesabına** Şuşanın **7 kilometrliyində yerləşən**

**SARIBABA dağından saxsı borularda Şuşaya şirin su xətti çəkdirdi.** Bu iş üçün xan qızı **20 min manat qızıl pul sərf etmişdir.**

Xurşudbanu Natəvan imarətinin qarşısında yaraşıqlı, **səkkizkünclü və altı** kranı olan mərmər daşlardan şirin su bulağı inşa etdirmişdir.

Bulağın açılışı günü Şuşaya **Şirvandan, Şəkidən, Gəncədən, Naxçıvandan**, ətraf şəhər və kəndlərdən xeyli qonaqlar dəvət olunmuşdular. Bunun üçün xan qızı öz bağında qonaqlara ziyafət vermişdir.

Bundan **20 il sonra Şuşaya T.Tamirov ikinci su kəməri çəkdirmişdi.** Şuşada bulaqlar adətən məhəllə məsçidlərinin meydanlarında inşa olunurdu. Məsçidlər kimi bulaqlar da yerləşdikləri məhəllələrin adı ilə adlandırılırdı.

Şuşa şəhərinin ətrafında çoxlu təbii bulaqlar var. Bu bulaqlar insan üçün olduqca xeyirli idi. Qotur bulaq, Səkili bulaq, **Şamilin bulağı, İsa bulağı, Damcılı bulaq** və başqaları. Mineral suyu olan **Turşsu** insanların ən çox sevdiyi istirahət yeri idi. Bu yuxarıda qeyd etdiyim bulaqlara da aid idi.

## ŞUŞANIN HAMAMLARI

Şuşa şəhərində hər bir məhəllənin ayrıca hamamı var idi. Hamamların əksəriyyəti şor su ilə işləyirdilər. Bazarbaşında Xan qızı Xurşudbanu Natəvanın inşa etdirdiyi şirin su hamamı şuşalılara ən qiymətli hədiyyə idi. Hamamın giriş otağının ortasında gözəl hovuz var idi. Hovuzun ortasında

tikilmiş daş fiqurdan soyuq su axırdı. Suyun şırıltısı insanlara xoş təsir bağışlayırdı.

Məlum olduğu kimi Şuşa şəhərində ilk hamamın inşa edilməsi **Əbdüssəməd** bəyin adı ilə bağlıdır. Ümumiyyətlə şəhərdə **17 müsəlman və** onun kənarında xristianlar üçün də **1** hamam var idi.

Həftənin cüt günləri hamamlar qadınlara, tək günlərində isə kişilərə xidmət edirdi. Hamamlarda insanların istirahəti üçün hərtərəfli xidmət göstərilirdi. Belə ki, hamamlarda müştərilərə çay və yüngül yeməklər verilirdi.

Hamamların istirahət otaqlarının divarlarında ov, döyüş və pəhləvanların güləş səhnələrini təsvir edən rəsmlər həkk edilmişdir.

**Şuşada Mirzə Əli Qazinin, Əli bəy Fuladovun, Rüstəm bəyin, Bəhmən Mirzənin, Hacı Əbdürrəhimin, Xeyransanın, Hacı Salehin, Şahbaz bəyin, Hacı Əmiraslanın hamamları var idi. Bunlardan başqa Məşədi Qulunun 2, Hacı Rzanın 3 və Ağakişinin də 2 hamamları var idi. Cəmi 18 hamam mövcud idi.**

## ŞUŞANIN KARVANSARAYLARI

Orta əsrlərdə Karvansaraylar Azərbaycan şəhərlərində xüsusi yer tuturdu. Karvansaraylarda əsasən tacirlər, səyyahlar və zəvvarlar öz karvnaları ilə qalırdılar. Karvansaraylarda yük heyvanlarının dincəlməsi üçün xüsusi tövlələr inşa olunmuşdur. Tacirlərin istifadəsi üçün dükanlar var idi. Eyni zamanda da karvansaraylarda hamamlar mövcud idi.

Karvansaraylarda topdansatış ticarəti də təşkil edilirdi.

Ona görə də karvansaraylar adətən şəhər meydanlarının, ticarət mərkəzlərinin və bazarların yaxınlığında yerləşirdi.

Şuşa qalasında ilk karvansaray aşağı məhəllədə tikilmişdir. Ona Hacı Məhəmməd karvansarayı deyirdilər. Aşağı bazarda digər bir karvansaray Uğurlu bəyə məxsus idi. Şuşa karvansaraylarının əksəriyyəti **iki mərtəbəli idi.** Birinci mərtəbənin həyətə çıxan hissəsində tövlə, küçəyə baxan hissəsi isə ticarət dükanları və sənətkar emalatxanaları üçün ayrılırdı. Qonaqlar üçün otaqlar da ikinci mərtəbədə yerləşirdi.

**XIX ƏSRIN 80-Cİ İLLƏRİNDƏ ŞUŞA QALASINDA 10 KARVANSARAY VAR İDİ.**

**Uğurlu bəyin, hacı Əmiraslan bəyin, Məşədi Seyid Hüseynin, Hacı Məhərrəmin, Murad bəyin, Cavad ağanın, Gövhər ağanın, Səfərov qardaşlarının, Məşədi Şükür Mirməyyaf oğlunun, Xanlıq Muxtarın, hacı Əmiraslan bəyin karvansarayları məşhur idi.**

## ŞUŞA QALASININ MƏSÇİDLƏRİ VƏ PİRLƏRİ

Şuşa qalasında ilk məsçid **Pənahəli** xanın hakimiyyəti dövründə inşa edilmişdir. Şuşa sakinləri həmin məsçidə **iki qapılı məsçid deyirmişlər.** Adından göründüyü kimi məsçid iki qapılı olmuşdur. Şəhər əhalisinin sayı artdıqca daha yeni və qalaya layiq, Şərq memarlığı əsasında yeni bir məsçid inşa olunmasına ehtiyac artırdı.

İbrahimxəlil xanın hakimiyyəti dövründə – **1768-1769-cu illərdə, şəhərin Meydan adlandırılan ərazisində 2 minarəli Cümə məsçidi inşa edildi.** Qoşa minarəli Cümə

məsçidi şəhərə xüsusi yaraşıq verir. Məsçidin böyük otağı var. Məsçid daş sütunlar üzərində dayanır. Divarlarda **QURANİ-KƏRİMDƏN** ayələr yazılmışdır. Məsçidin qarşısında fəvvarəli hovuz da var.

**1865-1866-cı illərdə** Cümə məsçidini İbrahimxəlil xanın qızı **Gövhər ağa təmir etdirmişdir.** Məsçid şuşalı memar **Kərbəlayı Səfixan (1788-1910-cu illər)** tərəfindən yeni formada təmir olunmuşdur. Kərbəlayı Səfixan Qarabaği məsçidə sanki yeni həyat vermişdir. Minarələr daş sütunlar üzərində dayanırlar. Deyilənə görə məsçidin ikinci mərtəbəsinin naxışlarını M.M.Nəvvab işləmişdir. Məsçidin daxilində və ətrafında mədrəsələr üçün otaqlar da inşa olunmuşdur.

**1874-1875-ci illrdə** Gövhər ağa Kərbəlayı Səfixanın layihəsi əsasında **Aşağı Gövhər ağa məsçidini inşa etdirmişdir.** Aşağı Cümə məsçidi də qoşa minarəlidir. Quruluşuna görə Yuxarı Cümə məsçidindən çox da fərqlənmir. Bununla belə Aşağı məsçid həcminə görə Yuxarı məsçiddən bir qədər kiçikdir.

Yuxarı və Aşağı Gövhər ağa məsçidlərindən başqa, Şuşada **17 məhəllə məsçidləri də var.** Məhəllə məsçidlərinin əksəriyyəti memar Kərbəlayi Səfixan Qarabağinin rəhbərliyi ilə inşa olunmuşdur. Yəni memarı o olmuşdur.

**17 məhəllə məsçidindən başqa Şuşada 2 kiçik məsçid də var idi.** Ümumilikdə şəhərdə **21 məsçid olmuşdur.** Elə yeri gəlmişkən deyim ki, Şuşanın memarlıq abidələri haqqında mətbuatda və televiziya verilişlərində bəzən səhvlərə yol verilir.

Məsələn, **17 məsçid yox 21 məsçid deyilməlidir.** Xan

sarayları yox xanların sarayı deyilməlidir. Qarabağ xanlarının **bir sarayı olmuşdur.** Mən həmin sarayı **2021-ci il iyun ayının 21-də doğma şəhərim Şuşada olarkən** sarayı **ŞUŞA POLİS ŞÖBƏSİNİN məsul əməkdaşına göstərmişəm.** Divanxana və Cabbar bəyin evi yenə də xan sarayı kimi təqdim olunur... Mən yuxarıda qeyd etdiyim memarlıq abidələrini qarış-qarış gəzmişəm...

Təkrar edirəm: – **2 Cümə məsçidi, 17 məhəllə məsçidi və 2 kiçik məsçid, cəmi 21 məsçid var idi. Kiçik məsçidin biri Bəhmən Mirzənin malikanəsində, biri isə Kiçik Qurdlar məhəlləsində yerləşirdi...**

Tarixdə buraxıdan səhvi heç kəsə bağışlamaq olmaz...

Şuşada **21 məsçiddən əlavə 11 müqəddəs ocaqlar – Pirlər də var. Onların əksəriyyəti məsçidlərin ərazilərində yerləşirdilər.** Onlar haqqında **«ŞUŞA SALNAMƏSİ» (2015-ci ildə) əsərimdə və digər elmi yazılarımda ətraflı məlumatlar vermişəm. Ona görə də onların adlarını qeyd etməyi münasib hesab edirəm.**

**1. Seyid Xəlil ocağı; 2. Saqqaxana ocağı; 3. Həzrət Abbas ocağı; 4. Şahlıq ocağı; 5. Mir Fəseh ocağı; 6. Şami-Qəriban ocağı; 7. Qurdlar ocağı; 8. Cindirli ocağı; 9. Seyid ocağı; 10. Sərça ocağı və 11. Əli ocağı.**

Məsçidlərə və pirlərə gələn ziyarətçilər onlara və ehtiyacı olanlara nəzir verərdilər.

# XII FƏSİL
# ŞUŞADA MİLLİ MƏRASİMLƏR

## 1. NOVRUZ BAYRAMI

Xalqımızın milli bayramı olan **NOVRUZ BAYRAMI** Şuşada böyük təntənə ilə keçirilirdi. **Novruz baharın** gəlişi olub adətən hər il **mart ayının 22-ə təsadüf edir.**

Qarabağ xanlığı dövründə Novruz bayramı ən yüksək səviyyədə – **12 gün davam edərdi.** Şuşada Novruz bayramına **1 ay qalmış** hazırlıq işləri aparılırdı. Çərşənbə günlərinin hər biri – **Su** (su çərşənbəsi), **Od** (od çərşənbəsi), **Yel** (yel çərşənbəsi), **Torpaq** (torpaq çərşənbəsi) ayinləri ilə bağlı idi. Şuşa da axırıncı çərşənbə **İlaxir çərşənbə adlandırılırdı.** Bu çərşənbə özündən əvvəlki **üç** çərşənbələrdən daha təntənəli qeyd olunurdu. Səliqə-səhman işləri bir daha yeniləşdirilib yeni məzmun alırdı.

Bayram süfrəsi öz zəngin təamları ilə fərqlənirdi. Şuşa sakinləri evlərini novruzgülü və bənövşə ilə bəzəyirdilər.

Bayram axşamı qalalılar süfrəyə **«S»** hərfi ilə başlayan nemətləri – **səməni, süd, sumax, su, sirkə, sarımsaq və süzmə qoyardılar.**

Bayram axşamı bütün şuşalıların süfrəsi zəngin olardı. İmkansız ailələr hərtərəfli nemətlərlə təmin edilərdilər.

Səhər tezdən şəhər sakinləri bulaq və çeşmə başına gedib, evlərinə yeni ilin suyunu gətirərdilər. Çərşənbə və bayram tonqalları insanları birləşdirərdi. Tonqallar bir qayda olaraq təbii bitkilərin qurumuş gövdələrindən qalanardı. Tonqalların qığılcımları ulduz kimi ətrafa səpələnərdi. Tonqal ətrafında müxtəlif milli oyun havaları icra olunardı. Musiqiçilər, xanəndələr,müğənnilər bayram günlərində şəhər sakinlərini əyləndirmək üçün əllərindən gələni əsirgəmirdilər.

Bayram axşamı küsülülər barışardılar. **Novruz şənlikləri Şuşada Cıdır düzündə, məhəllə meydanlarında kütləvi halda qeyd edilərdi.**

**İsak-Musak quşları bayram axşamlarına xüsusi gözəllik bəxş edirdilər.**

**BÜTÜN BAYRAM NEMƏTLƏRİ EVLƏRDƏ HAZIRLANARDI.**

## 2. ORUCLUQ BAYRAMI

Orucluq bayramı da Şuşa şəhərində müsəlman adət və ənənələrinə uyğun olaraq qeyd olunurdu. Orucluq bayramı ramazan ayında orucun başa çatmasını özündə ehtiva edir. Eyni zamanda oruc ay təqviminin birinci ayında icra edilən **otuz günlük pəhrizdir**. Orucluq günlərində oruc tutanlar gün çıxandan batana qədər yemək yeməz və su içməzlər. Ətirdən istifadə olunmaz.

Axşam gün batandan sonra bütün oruc tutanlar **AZANI**-ibadətə çağırışı gözləyirlər. Bundan sonra **İFTAR** – axşam pəhrizi açılır. İftar süfrəsi bu vaxt hazır olmalıdır. İftara xüsusi yeməklər – **firni, bal halvası, süd sıyığı, su və başqa ərzaq məhsulları qoyulur.** Orucluğun **27-ci** günü – **yəni QƏDİR gecəsi sədəqə paylanmalıdır.**

Orucluq insan sağlamlığı üçün olduqca xeyirli olub, xəstəlik mənbələrini məhv edir. Şuşa qalasında yaşlı nəslin nümayəndələri müntəzəm olaraq oruc tuturdular.

## 3. QURBAN BAYRAMI

**QURBAN BAYRAMI** orucluq qurtarandan **70 gün sonra, yəni ZİLHİCCƏ ayının 10-da qeyd olunur.**

Həmin vaxt zəvvarların **MƏKKƏYƏ** ziyarətləri təşkil

olunur. Qurban bayramının əsasını **İBRAHİM PEYĞƏMBƏR və onun oğlu İSMAYIL** haqqındakı hadisələr təşkil edir. İbrahim öz oğlunu **ALLAHA** qurban vermək istəyir. Lakin İsmayıl qurban kəsildiyi anda **ALLAHIN** ona rəhmi gəlir və onun əvəzinə **QOÇ** kəsilməsinə qərar verir.

**QURANİ-KƏRİMƏ görə,** müsəlmanlar qurban kəsməlidirlər. Qurban bayramına bir neçə gün qalmış qurbanlıq heyvan alınmalıdır. Həmin heyvan tam sağlam olmalıdır. Qurbanlıq heyvan kəsilərkən qurbanlıq duası oxunmalıdır.

Qurban kəsənlər qurbanlıq heyvanı (qoyunun) ətini **yeddi hissəyə bölməlidir.** Qurbanlıq əti ehtiyacı olanlara vermək daha savab sayılır.

Qurban bayramı müsəlmanların istək və arzularının həyata keçirilməsinin əsas göstəricisidir. Bu bayram insanlar üçün müqəddəs sayılır. Adətən qurbanlıq üçün kəsilən heyvanlar evlərin həyətlərində və məsçidlərdə düzəldilən xüsusi yerlərdə kəsilirdi.

Məkkə və başqa müqəddəs yerlərə ziyarətə gedən zəvvarlar və digər sosial təbəqələrin nümayəndələri də qurban kəsdirirlər. Bütün bunlar onların istək, arzu və diləklərinin reallığa çevrilməsi naminə icra olunur.

## 4. ŞUŞADA MƏHƏRRƏMLİK MƏRASİMLƏRİ

Şuşada başqa mərasimlər kimi **Məhərrəmlik mərasimləri də yüksək səviyyədə icra olunurdu. Mühərrəm – ərəb sözü olub, ərəb qəməri ilinin birinci ayıdır.** Kərbala müsibəti bu ayda baş verdiyinə görə şiələr tərəfindən matəm ayı sayılır. Bu ayda toy və şənliklər qadağan hesab edilir, tərkibində spirt olan içkilərdən istifadə etmək olmaz.

**Məhərrəmlik – 680-ci il ay təqviminin 10-da KƏRBALA adlı yerdə Məhəmməd Peyğəmbərin (ə.s.ə.) əmisi oğlu və kürəkəni İmam Əlinin oğlu İmam Hüseynin faciəli qətli ilə bağlıdır.** Bu gün tarixdə **AŞURA** adlanır. Yuxrıda qeyd olunduğu kimi İmam Hüseyn həmin gün qətlə yetirilmişdir. Aşura ərəbcə **ON MƏNASINI VERİR.**

Məhərrəmliyin özü **on gün,** ümumi matəm isə **40 gün qeyd olunur.**

Şuşada evlərdə matəm şamları yandırılırdı. **10 gün kişilər üzlərini qırxmazdılar.** Şuşalı şairlər təzə mərsiyələr yazardılar.

Məhərrəmlik mərasimləri Şuşada **1920-ci ilə qədər** kütləvi halda keçirilmişdir. Sovet hakimiyyəti ilərində məhərrəmlik mərasimi qadağan edilmişdir. Lakin evlərdə bu iş gizli olaraq davam etdirilirdi. Bir neçə qonşular bir yerə yığışıb İmam Hüseyninin xatirəsini yad edərdilər. Aşura günləri məsçidlər ciddi nəarət altına alınardı...

**1991-ci ildə AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİ BƏRPA EDİLDİKDƏN SONRA,** məhərrəmlik mərasimi yenidən kütləvi halda keçirilməyə başlandı. Lakin məlum hadisələr bu işi müvəqqəti olaraq dayandırdı.

Biz tezliklə doğma Şuşamıza qayıdacaq, bütün milli bayramlarımızı, o cümlədən də dini mərasimlərimizi əvvəlki kimi təntənəli və yüksək səviyyədə qeyd edəcəyik. Artıq məsçidlərimiz bərpa olunur. Yuxarı Gövhər ağa məsçidi yüksək səviyyədə bərpa və təmir olunmuşdur.

Şuşanın memarlıq abidələrinin bərpa və yenidən qurulması **AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, SİLAHLI QÜVVƏLƏRİMİZİN ALİ BAŞ KOMANDANI CƏNAB İLHAM ƏLİYEVİN NƏZARƏTİ ALTINDA APARILIR.**

# XIII FƏSİL
# ŞUŞADA ZORXANA

Tarixi mənbələrdə göstərilir ki, **ZORXANA AZƏRBAYCAN SƏFƏVİLƏR DÖVLƏTİ** dövründə meydana gəlmişdir. Zorxanalarda Səfəvilər ordusu üçün sağlam, güclü və çevik hərbiçilər hazırlanırdı. Zorxanalarda **pəhləvanlar, gənc oğlanlar ağırlıq qaldırmaq, güləşmək və müxtəlif hərəkət növlərini icra edirdilər.** Müharibə zamanı zorxanalarda mətinləşən əsgərlər döyüşlərin zərbə qüvvəsini təşkil edirdilər. Pəhləvan titulu Səfəvilər dövründə xüsusi fərmanla verilirdi.

Şuşa şəhərində orta əsrlərdə zorxana şəhər əhalisinin ən çox sevdikləri istirahət məkanı idi. Zorxana üçün bəzən hamamlar icarəyə götürülürdü.

Şuşa sakinləri də zorxanalardan istifadə edirdilər. Qalada İbrahimxəlil xanın qohumu **Cəfərqulu ağaya** məxsus olan, **250-300 nəfər** tamaşaçı tutan zorxana fəaliyyət göstərirdi.

Şifahi və yazılı məlumatlar sübut edir ki, Qarabağ xanlığının xanı **İbrahimxəlil xana** məxsus olan böyük zorxanada **yüzlərlə gənc yetişdirilirdi.** Onlar xana məxsus döyüşçülərin əsasını təşkil edirdilər. Zorxanalar xarici və daxili quruluşlarına görə diqqəti cəlb edirdi. Zorxanaların daxilində, xüsusilə divarlarında müxtəlif fiqurlar həkk edilirdi.

Zorxanaların ortalarında diametri (**diametr** – yunan sözü olub, eninə kəsən mənasını bildirir) **10 metr, dərinliyi 1 metr olan və süfrə adlanan idman meydançası yerləşirdi. Eyni vaxtda orada 20-25 nəfər məşq edə bilirdi.**

Məşq zamanı idmançılar **TUMBA** adlanan yumşaq dəridən dizə qədər şalvar geyirdilər. Zorxanada tamaşaçılar üçün taxtadan rahat oturacaqlar quraşdırılırdı. Oturacağın ən yüksək yerində **Miyandar** – aparıcı, məsləhətçi əyləşirdi. O, zınqırovu səsləndirən kimi yarışlar başlardı. **İkinci** dəfə zınqırovu səsləndirəndə yarışlar başa çatardı.

Yarışların gedişi zamanı qaydalar pozulardısa, yenə də zınqırov vasitəsilə yarışlar dayandırılır, məsləhətçinin tövsiyələrindən sonra yarışlar yenidən davam etdirilərdi. Bütün məşqlər və yarışlar musiqi sədaları ilə başlayıb və eləcə də başa çatardı.

Yarışlar **Cıdır düzündə xalçalar** üzərində təşkil olunardı. Bu yarışlar ilin fəsilləri və havaların əlverişli olması ilə bağlı idi. Şuşada bayram günləri və şənliklər adətən güləşsiz keçirilməzdi. Şuşada təşkil olunan şənliklərdə təşkil olunan idman yarışlarını tanınmış idmançılar idarə edirdilər. Şuşa zorxanalarında Azərbaycanın bir çox yerlərindən gələn pəhləvanları, eyni zamanda da Qacarlar məmləkətindən, Osmanlı Türkiyəsindən dəvət olunan pəhləvanları görmək olardı.

Şuşa qalasında yadda qalan **iki nəfər pəhləvan** yaddaşlara həkk olunmuşdur. Onlar **pəhləvan NABAT və pəhləvan SEYİD HƏSƏN idilər.** Hər iki pəhləvanın qələbələri haqqında qalalılar arasında rəvayətlər davam etməkdədir. Onlar Şuşa zorxanalarının yetirmələri idilər və Şuşanın Dördlər qurdu məhəlləsinin sakinləri idilər. **MƏHƏMMƏDƏLİ bəy BAHARLI pəhləvan NABAT haqqında «ƏHVALATİ QARABAĞ»** salnaməsində belə yazırdı:

**«Bir gün NABAT çiynində mal gəlirmiş. Görür ki,**

**adamlar ora-bura qaçırlar. Nabat onlardan soruşur ki, nə olub, niyə təlaş içərisindəsiniz? Camaat deyirlər, Nabat qaç qızmış kəl səni öldürər. Elə bu zaman sürüdən ayrılıb şəhərə girən kəl Nabata hücum edir. O, kəlin buynuzlarından tutaraq boynunu burub, yerə yıxır və üstündə oturur bir neçə qalalı kəlin ayaqlarını bağlayıb sahibinə təhvil verirlər».**

# XIV FƏSİL
# XVIII və XIX ƏSRLƏRDƏ ŞUŞALILARIN GEYİMLƏRİ

## ŞUŞA QADINLARININ VƏ KİŞİLƏRİNİN GEYİMLƏRİ

Şuşalıların geyimlərinin biçimi, rəngi və forması onun sahibinin ictimai və sosial mənsubiyyətinə uyğun olmalı idi. Qadınların geiymləri xüsusilə yaraşıqlı və müxtəlif idi.

Qadınların üst geyimləri yerli və kənardan gətirilən **zərxara, qumaş, məxmər, satin, atlas, ipək və başqa keyfiyyətli parçalardan tikilirdi.** Alt geyimlər də yüngül və müxtəlif idi. Qadınların üst geyimləri kimi alt geyimləri də enli formada tikilirdi.

Geyimlər içərisində **ARXALIQ MÜHÜM** yer tuturdu. Orta əsrlərdə arxalıq Azərbaycanda geniş yayılan üst geyim növü idi. Şuşa qadınları və kişiləri onlardan geniş istifadə edirdilər. Şuşa arxalıqlarını digərlərindən fərqləndirən, onun düzbucaqlı kəsiminin olması idi.

Şuşada **ÇƏRKƏN** də geniş yayılmışdır. Çərkən yalançı qolları olan üst qadın geyiminin bir forması idi. Ondan kişilər də istifadə edirdilər. Çərkəni tirmədən, məxmər və başqa parçalardan tikirdilər. Qadınlar geydikləri çərkəni müxtəlif qiymətli məmulatlarla bəzəyirdilər. Kürdü – sırınmış qolsuz köynək də qadınların xoşladığı geyim növü idi. O da tirmədən və məxmərdən tikilir və bəzənirdi.

Şuşa qadınlarının üst geyim paltarları çoxnövlü idi. On-

ların istifadə etdikləri ayaqqabılar da növlərinə görə bir-birindən fərqli idi. Tuman əsas üst geyim idi.

Şuşa qadınlarının **baş örtükləri də növlərinə və yaraşıqlarına görə bir-birindən fərqlənirdi.** Araqçın, çalma, yaylıq, çadra və başqaları da dəbdə idi. Qadın və kişilər üçün corablar evlərdə toxunurdu. Corablar rəngli iplərdən ibarət idi. Xarici görünüşləri diqqəti cəlb edirdi. Qadınlar üçün **qış, yaz, yay və payız paltarları ayrıca hazırlanardı.**

Qadınların **toy, yas və qonaq gedərkən geydikləri paltarları həmin mərasimlər üçün uyğun olmalı idi.** Bu geyimlər müntəzəm olaraq diqqətdə saxlanılırdı.

**Şuşa kişilərinin geyim formaları sadəliyi ilə seçilirdi.** Kişilər adətən **üç növ – biryanlı, ikiayanlı və düyməsiz** arxalıqlardan istifadə edirdilər. Kişilər üst köynəyindən, arxalıqdan, qabadan, çuxadan, şəltədən, şalvardan, kürkdən fəsillərə uyğun olaraq istifadə edirdilər. Kürk qoyun dərisinin yunlu hissəsindən tikilirdi.

Kişilər bahalı papaqlara üstünlük verərdilər. Müxtəlif ayaqqabılar geyərdilər. Kişilər üçün geyim əşyaları əsas etibarilə evlərdə hazırlanırdı. Onu da xatırlatmaq lazımdır ki, Şuşa kişilərinin geyim əşyaları, onların sosial vəziyyətini də özündə əks etdirirdi...

Kişi geyimləri Şuşada kişi simvolu dayışırdı, sahibinə nur, mərhəmət, qeyrət aşılayırdı.

## ŞUŞALILARIN ƏL İŞLƏRİ

Əl işləri Şuşada ustalar və həvəskarlar tərəifndən hazırlanırdı. Evlərdə və sənətkar emalatxanalarında işlənən əl iş-

ləri şəxsi ehtiyacları ödəmək və bazar üçün istehsal olunurdu. Əl işləri şuşalılara çoxdan məlum idi. Bu məhsullar yerli və xarici ölkələrdən gətirilən müxtəlif rəngli məxmər parçalardan hazırlanırdı.

Bazar üçün işlənən əl işləri daha keyfiyyətli idi. Güləbətin, sıx naxış, parlaq bəzək əşyaları, inci muncuq və digər məhsullar Şuşada geniş yayılmışdır. Zərli saplarla tikmə yüksək qiymətləndirilirdi. Əl işləri üçün keyfiyyətli müxtəlif məxmər parçalar yerli istehsala məxsus idi. Bəzən həmin məxmər parçaları şuşalı tacirlər tərəfindən xarici ölkələrdən də gətirilirdi. Zərli saplarla işlənilən əşyalar gehiz də verilirdi.

Möhür qabı, tənbəki kisəsi, üzərlik kisəsi, Quran örtüyü, tütün kisəsi heybə, yelpik, zənpuş və saysız-hesabsız başqa əl işləri şuşalıların əsas məşğuliyyətləri idi.

Müxtəlif heyvan və quş rəsmləri – bülbül, tovuzquşu, göyərçin, qırqovul, bildirçin, ilan, əjdaha, at və digər quş və heyvan rəsmləri tikmə işlərində geniş yayılmışdır.

Tikmə və hörmə əl işləri Şuşa sənətkarlarının fəlsəfi dünyagörüşlərinin ən yüksək göstəricisi idi.

Şuşa şəhərində ağac gövdələrindən və müxtəlif daşlardan da yaraşıqlı oyma fiqurlar düzəldilirdi.

# XV FƏSİL
# ŞUŞADA ZƏRGƏRLİK MƏMULATLARI

Şuşa şəhərində zərgərlik sənətinə yiyələnən mahir zərgərlər indi də yaddaşlarda yaşayırlar. Zərgər **Rüstəm (əsl adı İsmayıldır), zərgər Behbud XX əsrin 50-ci illərinə qədər Şuşanın RASTABAZAR** ərazisində fəaliyyət göstərirdilər. Zərgər Rüstəm, dahi **ÜZEYİR HACIBƏYOVUN dostu idi.**

Zərgərlik məmulatları – **baş (qadınların başlarına qoyduqları tac şəkilli daş-qaşlı bəzək), müxtəlif bəzək əşyaları, boyunbağlar, sırqalar, qızıl və gümüşlə bəzədilən kəmərlər, qızıl və gümüş düymələr, almaz, mirvari, zümrüd, yaqut və firuzə qaş-daşlar Qacarlar məmləkətindən, Hindistandan və başqa ölkələrdən gətirilirdi.** Bu daş-qaşlarla bəzədilən əşyalar əldən-ələ gəzirdi.

Nişan üzükləri adətən zərgərlər tərəfindən mükəmməl işlənib hazırlanırdı. Bu üzüklər ən yüksək əyyarlı qızıldan düzəldilirdi. Şuşa qalasında zərgərlik məmulatları başqalarındanq fərqlənirdi.

Şuşa zərgərləri istehsal etdikləri bəzək məmulatlarını xarici ölkələrə də ixrac edirdilər.

## ŞUŞALILARIN MƏİŞƏTİNDƏ QAB-QACAQ

Şuşa sənətkarları məişətdə istifadə etmək üçün müxtəlif qab-qacaqlar düzəldirdilər. Onların arasında qulplu sətil, su və süd üçün dolçalar, vedrələr mərasimlər üçün aftafa-ləyən dəsti, parç, zəfəran qabı, müxtəlif ölçülü boşqablar, sərpuş

(aş qazanının qapağı), dolça, qazanlar məcmuələr, qaşıq və çəngəllər, nimçələr, kəfkirlər, şirin şərbət paylamaq üçün qablar, kasalar, ləyənlər, sürmə qabları, bürünc camlar və digərləri var idi.

Misgərlər yuxarıda qeyd edilən əşyaları misdən hazırlayırdılar. Həmin əşyaların xarici hissəsini bəzəmək üçün ayrıca mütəxəssislər var idi. Onların çoxu mahir rəssamlar idi. Mis qablar qalayçılar tərəfindən qalaylanırdı. Bu iş üçün Şuşada çoxsaylı qalayçı var idi. Onlar şəhərin mərkəzində emalatxanalarda əhaliyə yüksək səviyədə xidmət göstərirdilər. Şuşanın kəndlərində də qalayçı emalatxanaları var idi.

Şuşa şəhərində müxtəlif tutumlu çaydanlar da istehsal olunurdu.

Şuşa sakinlərinin mənzillərini gül, saxsı və çini qablar bəzəyirdi. Çay və qəhvə dəsti tutumuna və bəzəyinə görə fərqli idi.

Şuşa şəhərində fincanları nəlbəkiləri Təbriz ustaları hazırlayırdılar.

Misgərlər Şuşada su sənəkləri və teştlər də hazırlayırdılar.

# XVI FƏSİL
# AZƏRBAYCANIN QARABAĞ XANLIĞI BÖLGƏSİNİN KƏND TƏSƏRRÜFATI

Azərbaycanın Qarabağ xanlığının iqtisadiyyatında kənd təsərrüfatı əsas yer tuturdu. Onun ən çox inkişaf etdiyi sahələr maldarlıq və əkinçilik idi. **XIX əsrin əvvəllərində** xanlığın torpaq ehtiyatı **1.354000 desyatin** idi. Əkin üçün yararlı torpaq sahəsi **100.000 desyatin təşkil edirdi.** Bölgədə hər adambaşına orta hesabla **1,1 desyatin** yararlı torpaq sahəsi düşürdü.

Xanlıqda əsas istehsal vasitələri – **bel, xış, yaba, şana, vəl, oraq, dəryaz, dırmıx, çin və başqa təsərrüfat alətləri idi.** Dəmir kotandan imkanlı torpaq sahibləri istifadə edirdilər. Xış və kotana **at, öküz, kəl və eşşək qoşurdular.**

**1832-ci il məlumatına görə** bir iş günü ərzində kotanla düzəngah ərazilərdə **0,5-1 çərək**[1], dağlıq ərazidə isə **0,5 çərəkdən az** torpaq sahəsi şumlamaq mümkün idi. **Bir desyatin**[2] becərilən torpaq sahəsini xışla **3-4 günə** şumlamaq olurdu. Şumlanan ərazilər xüsusi alətlərlə hamarlanırdı. Taxıl xırmanlarda **vəllə döyülürdü. Vələ at, öküz və kəl qoşulurdu.** Onları **bir** nəfər idarə edirdi.

Xanlıq dövründə Qarabağda **4000 xış və kotan var idi.**

Xanlıqda buğda, arpa, çəltik, darı, pərinc, kətan, küncüt, gənəgərçək əsas əkinçilik bitkiləri idi. Bunlardan əlavə pambıq və tütün də becərilirdi.

---

[1] **Çərək dörddə bir deməkldir. Batmanın dörddə biri.**
[2] **Bir desyatin 1,092 hektara bərabər torpaq sahəsidir.**

Yuxarıda adları qeyd olunan kənd təsərrüfatı bitkiləri xanlığın ərazisində mövcud olan **6 iqlim** qurşağında becərmə şəraitinə görə əkilirdi.

**1832-ci ilin məlumatına görə** Azərbaycanın Qarabağ xanlığında hər il orta hesabla təxminən **2200 qətvər buğda, 11000 çətvər darı, 250 çətvər pərinc, 550 çətvər pambıq, 50 çətvər kətan, 5 çətvər küncüt əkilirdi.** Dəqiq olmayan məlumata görə Qarabağ xanlığının orta illik məhsulunun **220000 çətvər buğda, 14.3000 və çətvər arpa, 33750 çətvər çəltik, 26000 çətvər darı, 1750 çətvər pərinc, 400 çətvər kətan, 1100 çətvər çiyidli pambıq, 50 pud gənəgərçək təşkil edirdi.**

Xanlığın iqtisadi həyatında çəkilliklərin, meyvə, üzüm bağlarının və bostançılığın xüsusi yeri var idi. **1832-ci** ilin məlumatına görə Qarabağ xanlığında **1600 çəkillik** bağları var idi.

Qarabağ xanlığında **tut, armud, şaftalı, müxtəlif növ nar, heyva, əncir, gilənar, alma, zoğal, gavalı, alça, qoz, fındıq, gilas** yetişdirilirdi. Bunlarla yanaşı **qarpız, qovun (yemiş), xiyar, balqabaq (boranı), günəbaxan, noxud, soğan, sarımsaq, lobya və digər bostan məhsulları yetişdirilirdi. Tərəvəzçilik geniş yayılmışdır.** Bostanlara hər il **200-220 desyatin torpaq sahəsi ayrılırdı.**

Üzümçülük də bölgədə mühüm yer tuturdu. Üzüm məhsulları iqtisadiyyata xeyli gəlir gətirirdi. Üzümdən **kişmiş, bəhməz, riçal, sirkə, abqora[1], müxtəlif şərablar hazırlanırdı. Qarabağda 3080 üzüm bağı var idi.**

---

[1] **Abqora – üzümdən hazırlanan turşu.**

Qarabağ xanlığının iqtisadi həyatında maldarlıq da xüsusi yer tuturdu. **1832-ci ildə** bölgədə iribuynuzlu mal-qaranın sayı **100 min, xırda buynuzlu**[1] heyvanların sayı **300 min baş idi.**

Bu dövrdə xanlıqda **20 min at, 2200 eşşək, 100 dəvə var idi.**

**1832-ci ildə Qarabağda 250 ayğır, 1400 madyanı olan 11 atçılıq zavodu var idi.**

**1832-ci ildə Qarabağda 2500 arı pətəyi** mövcud idi. Azərbaycan arıçıları hər il **600 pud bal, 200 pud mum** və başqa arı məhsulları istehsal edirdilər.

Bölgədə peşəkar və həvəskar ovçular da var idi.

---

[1] **Xırdabuynuzlu dedikdə – qoyun və keçi nəzərdə tutulur.**

# XVII FƏSİL
# ŞUŞA ŞƏHƏRİNİN TİCARƏT HƏYATI

Qarabağ xanlığı və ondan sonrakı dövrlərdə Şuşa qalası daxili və xarici ticarətin mərkəzi idi. Şəhərin ətraf ərazilərində yerləşən kəndlərin sakinləri də istehsal etdiklər sənətkarlıq və kənd təsərrüfatı məhsullarını satmaq üçün şəhərə gəlirdilər. Ticarət əsasən **Bazar** günləri təşkil olunurdu. Həmin gün şəhər daha izdihamlı olurdu.

Şəhər ticarətində tacirlər, sənətkarlar, torpaq sahibləri, kəndlilər və kənardan gələnlər iştirak edirdilər. Onlardan başqa çobanlar da artıq mal-qaralarını satmaq üçün şəhər bazarına gəlirdilər. Bazarda ən baha qiymətə atlar satılırdı. Şuşa bazarında istənilən malı tapmaq olardı.

**1823-cü ildə** Şuşa şəhərində bir çətvər duz **18 manat 90 qəpik**, bur çuval arpa **6 manat 30 qəpik**, bir çuval darı **5 manat**, bir batman yağ **15 manat,** quzu dərisi – qaragül **10 manat**, bir girvənkə ipək **4 manat**, bir batman yun sap **15 manat,** kilim **10 manat**, öküz **40-70 manat idi.**

**9 ildən sonra, yəni 1832-ci ildə** Qarabağ xanlığında rus pulu ilə məzənnə belə idi:

Rus gümüş pulu ilə bir çətvər buğda **3-4 manat,** darı **1,4 manat**, pərinc **2 manat,** çəltik **1,5-2 manat**, darı yarması **4-5 manat,** bir pud pambıq **3-4 manat** kətan yağı **4-5 manat,** Naxçıvanda **on qəpiyə alınan** bir batman duz Qarabağda **40 qəpik idi.** Şuşa şəhərində də məzənnə belə idi.

Qarabağ xanlığından Gürcüstana aparılan atlar daha baha idi.

Rus işğalından sonra Şuşa şəhəri Tiflisdən sonra Cənubi

Zaqafqaziyada ikinci ticarət mərkəzinə çevrilmişdir. Şuşa tacirləri öz məhsullarını xarici ölkələrə aparırdılar. Ticarət peşəkar azərbaycanlı tacirlərin əlində cəmləşirdi. Xarici ticarətdə Rusiya imperiyası və Qacarlar məmləkəti əsas yer tuturdular.

Tiflis şəhərindən Şuşaya çit, güllü, naxışlı paltarlar, mahud, kolenkor[1], nankalar[2], boyaq, Bakıdan dəmir, yazı kağızı, saxsı qablar, zəfəran və mazut gətirilirdi. Mazut yanacaq üçün gətirilirdi.

Qədim Azərbaycan şəhəri **Dərbənddən** Şuşa şəhərinə qızıl boya, Şəkidən tüfəng, evlərdə toxunan mahud şal, yapınçı, xalça, Gəncədən zəy, Naxçıvandan naxışlı məxmər parçalar, Təbriz şəhərindən müxtəlif növ parçalar, istiot, darçın, həna, badam, meyvə qaxları, qənd, qumaş[3], Şiraz tütünü, Xoydan və Urmiyadan qumaş, bez, müxtəlif çit və başqa məhsullar gətirilirdi. Ərdəbildən isə Şuşaya qalın toxunan parçalar gətirilirdi.

Osmanlı Türkiyəsindən Şuşaya meyvə və meyvə qaxları, müxtəlif çeşidli qadın örtükləri, ipək parçalar, kofe və başqa məhsullar gətirilirdi.

Məlum olduğu kimi ticarətdə əsas meyar puldur. Bütün əmtəələrin qiymətləri pulla müəyyən olunur. **1751-ci ildə** Pənahabad qalasında **15 qəpiklik dəyərində olan PƏNAHABADİ** adlı pul kəsilirdi.

[11] **Kalinkor – pambıq – parça növü idi.**
[2] **Nanka – sarı rəngli pambıq – parça növü deməkdir.**
[3] **Qumaş – toxunma incə, zərif parça.**

# XVIII FƏSİL
# ŞUŞALILARIN QİDA MƏHSULLARI

Şuşa şəhərinin sosial tərkibi müxtəlif idi. Xanlıq dövründə xanlar, şahzadələr, bəylər, tacirlər, din xadimləri və digərləri şəhərin sosial tərkibini təşkil edirdilər. Sənətkarlar da qalada sosial zümrədə əsas yer tuturdular. Sosial tərkib kimi qida məhsulları da müxtəlif və rəngarəng idi.

Əla növ buğdanın təndir çörəkləri, yuxa, fətir, suxarı və digər un yeməkləri, şəhər əhalisinin ən çox istifadə etdikləri ərzaq məhsulları idi. Buğda şəhərin ətrafında inşa edilən su dəyirmanlarında üyüdülürdü. Ərzaq məhsulları onların növlərinə görə qablarda saxlanılırdı. Yemək üçün kəsilən heyvanların əti yaşayış binalarının alt otaqlarında, zirzəmi deyilən soyuq otaqlarda saxlanılırdı. Bunun üçün əlverişli şəraiti daş binalar yaradırdı.

Şuşada çoxlu su quyuları var idi. Əti və digər ərzaq məhsullarını həmin quyularda da saxlanılırdı. Ərzaq məhsullarını müxtəlif qablara qoyur, quyuların ətrafında bitən ağaclara möhkəm kəndirlə bağlayıb, onu quyuların su səthinə qədər endirib, istənilən müddətə saxlayırdılar. Ərzaq məhsulları öz tərkibini dəyişmirdi.

**QOYUN** ətindən bişirilən qovurma şuşalıların ən çox sevdikləri yemək idi. Ət yeməkləri azərbaycanlıların əsas qida məhsulu idi. Şoran ərazilərdə bəslənilən qoyunların ətindən daha çox istifadə olunurdu. Belə ki, **Qarabağın HARAMI düzündə** saxlanılan qoyunların əti daha dadlı və baha idi.

Adətən Qarabağda və xüsusilə Şuşada xalq arasında **qara yunlu** qoyunun ət və süd məhsullarına yüksək qiymət

verirdilər... Ərzaq üçün kəsilən bütün heyvanların qanının tamamilə axması vacib şərtlərdən biridir. Əgər kəsilən heyvanın ətinin tərkibində qan qalarsa, o zaman ətin keyfiyyəti aşağı olur.

Xalqımızın dini etiqadlarına görə heyvan kəsilərkən, onun üzü **qibləyə olmalıdır**, ayaqları hərəkət üçün sərbəst olmalı və **ilik** qanın axıb qurtarmasından sonra kəsilməlidir. Bütün bu deyilənlərə Şuşada əməl olunur və qoyun və başqa heyvanlar kəsilərkən xüsusi dua oxunardı. Qarabağda, bütün Azərbaycan ərazisində və o cümlədən də Şuşada qoyun bədəninin **yeddi** hissəsi – **döş fəqərəsinin ucundakı bir gəmircək, qollarının ucundakı iki gəmircək, boynunun başdan kəsilib ayrılmış birinci fəqərə (buna qurd yeməz deyilir), ürəyin iki qulaqcığı və dalağı** haram sayılır. Onları heç vaxt yeməzdilər.

Qarabağda, o cümlədən də Şuşada qoyun cəmdəyinin ayrı-ayrı hissələrinin əti həm tamına, həm də faydasına görə fərqli olduğunu yaxşı bilirdilər. Boyun və bel sümüyü üstündəki ət daha dadlı hesab olunur. Sağ tərəfin əti sol tərəflə müqayisədə bərk və gec bişir.

**Tikə kabab, toğlu və şişək erkək qoyunların ətindən hazırlanırdı.** Şuşada kababı qoyunun boyun və bel sümüyü üstündəki ətdən bişirirdilər. Kababın dadlı olması üçün ətin doğranması daha münasibdir. Şuşadı kababçılar yaxşı bilirdilər ki, **üzüm və ardıc ağacdarının közündə, odun kömründə bişirilən kabab daha ləzzətli olur.** Kababçılar, onun bişirmə üsullarını mükəmməl bilirdilər. Şişlərə taxılan ətlər, **kömür ocaqlarında (manqallarda) iki dəfə çevrilərdi.** Kabab bişirilərkən şiş olmadıqda digər üsullardan

da istifadə olunurdu. Belə ki, **zoğal və fındıq ağaclarının nazik budaqlarından şiş düzəldib əti onlara taxırdılar.** Bu üsuldan gəzinti zamanı istifadə olunurdu.

**LÜLƏKABAB, SACQOVURMASI** şuşalıların mətbəxində əsas xörək növlərindən biri idilər. Onlar hazırlanarkən üstünə soğan doğranılır, **narşərab və sumaxla, müxtəlif ədviyyatlarla süfrəyə verilirdi.**

**QOVURMA.** Şuşada yemək üçün hazırlanan qovurma istənilən yaşda olan qoyun ətindən hazırlanırdı. Qış fəsli üçün hazırlanan ət tikələri bir qədər iri doğranılırdı. Tələb olunan qaydada bişirilirdi. Ət bişdikdən sonra duzlanırdı. Hazırlanan qovurmanı saxsı qablara yığıb, sərin yerdə saxlayırdılar. Üzərinə əridimiş yağ tökülən qovurma yeyilərkən qızdırılırdı. Qovurmadan bozbaş və şorba hazırlanarkən istifadə olunurdu.

**ŞUŞA AŞLARI.** Tarixən azərbaycanlılar arasında, yeməklərin **ŞAHI olan aş süfrələrin bəzəyi olmuş və hazırda da belədir.** Aş bişirilərkən düyünün növünə xüsusi fikir verilirdi. Xörək bişirilərkən yerli düyü məhsullarından istifadə olunurdu. Şuşada aşın bir çox növləri – **şüyüdlü aş, çığırtmalı aş, turaclı aş, kəklikli aş, qırqovullu aş, turşuqovurmalı aş, qırxbuğumlu aş, boyanalı aş, əvəlikli aş, lobyalı aş, noxudlu aş və başqa növləri vardır.**

Aş hazırlanarkən tələb olunan qaydalara riayət olunurdu. Məqsədim Azərbaycan xalqının bütün yeməklərini sadalamaq deyil. Yalnız bəzilərini qələmə almaq kifayət edər.

Şuşada ölü heyvanın ətindən istifadə edilməzdi. Donuz əti qəti qadağan idi.

# XIX FƏSİL
# QARABAĞDA VƏ ŞUŞA ŞƏHƏRİNDƏ XALÇAÇILIQ

Qarabağ xanlığı dövründə ən böyük sənətkarlıq və kustar sənayesinin mərkəzi **Şuşa qalası idi.** Şəhərdə **xalçaçılıq yüksək səviyyədə inkişaf etmişdir. Şuşada və bütövlükdə Qarabağ mahalında toxunan xalçalar öz yüksək keyfiyyətinə və incə naxışları ilə dünyada şöhrət qazanmışdır.**

Şuşada toxunan xalçalar əsas etibarilə xarici bazarların tələbatını ödəmək məqsədi daşıyırdı. Xalçalar yalnız azərbaycanlılar tərəfindən toxunurdu.

**ARAN, BAĞÇADA GÜLLƏR, BALIQ, BUYNUZ, BƏRDƏ, BƏHMƏNLİ, QARABAĞ, QOCA, QASIMUŞAĞI, LƏMBƏRAN, MUĞAN, TALIŞ, LƏNKƏRAN, LƏMPƏ, MALIBƏYLİ, XANQƏRVƏND, XANLIQ, XANTİRMƏ, ÇƏLƏBİ VƏ ŞABALID BUTA** xalçaları Qarabağın və Şuşa xalçaçılıq məktəbinin məhsulları idilər.

Şuşa xalçaları **1867-ci ildə PARİSDƏ** və **1872-ci ildə MOSKVADA** təşkil olnan beynəlxalq sərgilərdə mükafatlara layiq görülmüşdülər. O dövrdə Qafqaz mətbuatlarından biri yazırdı:

**«Şuşada çox gözəl xalçalar toxunur. Bu xalçalar naxışları, rəngi və keyfiyyəti ilə İran xalçalarından geri qalmır... Hətta Xorasan xalçalarını üstələyir... Şuşa şəhəri ilk növbədə bədii zövqlərin məkanıdır. Bu şərəfli işlə azərbaycanlı qadınlar məşğul olurlar».**

**Şuşada, Bərdədə, Ağcabədidə, Cəbrayılda və Qubadlıda xovlu və xovuz xalqlar, habelə xurcun, məfrəş, çuval, çul, heybə və digər əşyalar toxunurdu.**

**XVIII əsrdə Qarabağ xalçaçılıq məktəbi Şuşa şəhərində mərkəzləşmişdir.** Şuşa qalasında toxunan sujetli xalçalarda **QAÇAQ NƏBİNİN, SƏTTARXANIN döyüş səhnələrindən nümunələr verilirdi.**

Son olaraq qeyd etmək istərdim ki, **XALÇAÇILIQ Azərbaycan xalqının şanlı əməyinin bəhrəsidir.**

# XX FƏSİL
# ŞUŞANIN TARİXİ ŞƏXSİYYƏTLƏRİ

## ZAKİR QASIM BƏY OĞLU CAVANŞİR

**Zakir Qasım bəy oğlu Cavanşir 1784-cü ildə Şuşa şəhərində bəy ailəsində anadan olmuşdur.** İlk təhsilini o, Şuşa şəhərində fəaliyyət göstərən mollaxanaların birində almış, ərəb, fars dillərini və **klassik**[1] **Şərq** ədəbiyyatını dərindən öyrənmişdir.

Q.B.Zakir rus məmurlarını ciddi tənqid atəşinə tutduğuna görə **1849-cu ildə özü Bakı şəhərinə, oğlu NƏCƏF-QULU və qardaşı oğlu İSGƏNDƏR bəy Rusiyanın daxili vilayətlərinə sürgün edilmişdilər.**

Q.B.Zakir **M.F.Axundovun səyləri nəticəsində sürgündən azad olunub Şuşaya qayıtmışdır.**

**Şair ömrünün böyük hissəsini Xındırıstandakı şəxsi təsərrüfatına həsr etmişdir.** Şairin lirik şeirləri var. Yaradıcılığında Azərbaycan atalar sözlərindən, məsəl və idiomatik[2] ifadələrdən məharətlə istifadə etmişdir.

Q.B.Zakir öz yaradıcılığı ilə Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutur.

O, **1857-ci ildə Şuşada vəfat etmiş və Mirzə Həsən qəbiristanlığında dəfn olunmuşdur.**

---

**[1] Klassik – latın sözü olub, ən nümunəvi mənasını verir. Məhdud mənada – qədim yazıçılara verilən ad. Geniş mənada – ümumxalq şöhrəti, nüfuzu qazanmış, mədəniyyət və elm xəzinəsini zənginləşdirən əsərlər yaratmış yazıçı, rəssam, musiqiçi alimlərinə deyilir. Bu sözü ilk dəfə SESERON işlətmişdir.**

**[2] İdiomatik – başqa dillərə hərfən tərcümə edilməyən söz birləşməsi mənasında işlənir.**

# XAN QIZI XURŞUDBANU NATƏVAN

**Xan qızı Xurşudbanu Natəvan (1832-1897)** Qarabağın Cavanşirlər nəslindən olan İbrahimxəlil xanın nəvəsi, Qarabağın sonuncu **(1807-1822)** xanı **MEHDİQULU** xanın qızıdır. O, mükəmməl ev təhsili almışdır. **Ərəb, fars və rus dillərini yaxşı bilirdi.**

Xurşudbanu Natəvanın tanınmış şəxsiyyət kimi formalaşmasında **Qasım bəy Zakirin, Mirzə Adıgözəl bəyin, Mirzə Camal bəy Qarabağinin, Əhməd bəy Cavanşirin təsiri mühüm yer tutur. Natəvan 13 yaşı olarkən atasını itirir.** Mehdiqulu xan Ağdamda **İMARƏT adlanan qəbiristanlıqda dəfn olunur.**

Belə bir məlumat da var ki, sonralar Mehdiqulu xanın sümükləri səliqə ilə qəbirdən çıxarılıb, **şiələrin müqəddəs şəhəri olan KƏRBALAYA APARILIB ORADA DƏFN OLUNMUŞDUR**. İmarətdə olan məğbərə isə boşdur.

**1848-ci ildə** rusiya imperiyasının Qafqazdakı canişini M.S.Voronsov Xurşudbanu Natəvanı anası Vədicahan Bəyimlə birlikdə **Tiflis şəhərinə**, onun ərə getməsi barədə danışıqlara dəvət edir. Bu zaman Natəvanın **18 yaşı var idi.** Namizəd əvvəlcədən hazırlanmışıdır. Məqsəd Rusiyanın Qarabağda möhkəmlənməsi idi.

Xurşudbanu Natəvan üçün Türk kumık knyazı Xasay xan Usmiyev ər seçilmişdir. Bu seçim Rusiya imperiyasının siyasi maraqlarına tamamilə uyğun idi. Xasay xan Usmiyev Kumık knyazı **Musa** xanın oğlu idi. O, atası tərəfindən girov olaraq Sankt-Peterburq şəhərinə göndərilmişdir. Rusiya məmurları onu əvvəlcə **Pay** (hissə) korpusuna təyin

edirlər. Sonra isə Xasay xan Fransaya **NAPOLEONUN** oxuduğu **Sen-Şir Hərbi Akademiyasına** oxumağa göndərirlər. Gənc yaşlarında o, general-mayor hərbi rütbəsi almışdır. Xasay Usmiyev Tiflisdə bir çox tanınmış şəxsiyyətlərlə dostluq edirdi. Onların arasında **Mirzə Şəfi Vazeh və Mirzə Fətəli Axundov da var idi.** Onu da göstərmək yerinə düşər ki, Xasay Mirzə Şəfi Vazehin **XIX əsrin 40-cı illərində Tiflisdə təşkil etdiyi «DİVANİ-HİKMƏT» («MÜDRİKLİK») ədəbi məclisinin üzvü idi.**

Xurşudbanu Natəvanın kəbinlik məsələsi həll olunduqdan sonra o, anası ilə bərabər Şuşaya qayıdır. **1850-ci ildə** Xurşudbanu Natəvanla Xasay xan Usmiyevin toy mərasimi olur. Lakin Tiflis mühiti Xurşudbanu Natəvana pis təsir göstərdi. O, xəstələndi və həkimlərin məsləhəti ilə yenidən doğma şəhəri Şuşaya qayıtdı. **1852-ci ildə Şuşaya qayıdan Xurşudbanu Natəvan bir ilə qədər xəstə olur.**

Bu zaman Natəvanla Xasay xanın münasibətləri pozulur. Bunun bir neçə səbəbi var idi. **1852-ci ildə Şuşaya gələn M.F.Axundov** onları barışdırır. **1853-cü ildə Xurşudbanu Natəvan tamamilə sağalır.** Bundan sonra Xasay xan Tiflisdə canişinin yanında olan vəzifəsindən istefa verərək Şuşaya gəlir. Şuşada o, yerli əyyanlarla yaxşı münasibətlər yaradır.

**1855-ci ildə Natəvanın Xasay xandan oğlu oldu.** Atasının şərəfinə Natəvan onun adını Mehdiqulu qoydu. Mehdiqulu ədəbi mühitdə **«VƏFA»** təxəllüsü ilə tanınır. O, çoxlu şeirlər yazmışdır.

Tarixi məlumatlarda qeyd olunur ki, Fransanın məşhur yazıçısı **ATA ALEKSANDR DÜMA 1858-ci ilin iyun ayından 1859-cu ilin fevral ayına kimi Rusiyada səfərdə**

**olmuşdur. A.Düma səfərinin son üç ayını Qafqaz səyahətinə həsr etmişdir.**

Qafqaz səyahətində A.Dümanı heykəltəraş **Jan Pyer Moyne** və tərcüməçi **Kalino** müşayiət etmişdilər. Yazıçı Qafqaza səyahəti zamanı, **1859-cu ildə Bakı şəhərində** Xurşudbanu Natəvanla görüşmüşdü. Bu görüşü yazıçı belə təsvir edir:

**«Səbirsizliklə gözldiyimiz, hörmətlə qəbul olunduğumuz bu məclisdə bizi görmək istəyən iki azərbaycanlı xanım və onlardan birinin – gənc xanımın əri də iştirak edirdi. Çadra örtmüş bu xanımlardan biri Qarabağ xanlığının sonuncu xanı olan MEHDİQULU xanın arvadı, o biri qızı idi. Anaya qırx, qızına isə iyirmi altı yaş vermək olardı. Hər ikisi Azərbaycanın milli geyimində idi. Gözəllikdən daha çox bahalı olması ilə seçilən nazik geyimdə cazibədar görünən gənc xanımın yanında iki uşağı da var idi... Gənc xanımın həyat yoldaşı Xasay Usmiyev... qəddi-qamətli idi. Başında quzu dərisindən hazırlanan qıvrım tüklü yaraşıqlı papaq var idi. Əynindəki geyim olduqca cazibədar idi...»**

Görüşün sonunda Xasay Usmiyev Dümaya xan qızı Xurşudbanu Natəvanın toxuduğu və tikdiyi tənbəki kisəsini və arxalığını hədiyyə etmişdir. Yazıçı bu hədiyyələri ali hədiyyə kimi qəbul etmiş və onlara heyran olduğunu fərəh hissi ilə böyük və qiymətli hədiyyə adlandırmışdır.

Xurşudbanu Natəvan anası Bədircahan bəyimlə birlikdə özünə məxsus olan təsərrüfat sahələrini idarə edirdilər. Xasay Usmiyev bu işlərlə məşğul olmurdu. Ailədə yenidən münaqişə yarandı. **1864-cü ildə Xasay Usmiyev ailəsini**

**tərk edib, Vladiqafqazda hərbi xidmətə başladı.** O, yenidən evləndi... Çox keçmədi ki, Xasay Usmiyevi dövlətə xəyanətdə günahlandırıb, **VORONEJ şəhərinə** sürgün olundu. Siyasi təhqirlərə dözməyən Xasay Usmiyev mehmanxanada özünü öldürdü.

Xurşudbanu Natəvan Qarabağda böyük işlər görürdü. Xan qızı böyük təsərrüfatları idarə edir, atasından qalan **AT** zavodunu bərpa etdi və yeni at cinsləri yetişdirdi.

**1864-cü ildə Şuşa şəhərində** Xurşudbanu Natəvanın rəhbərlii ilə **«MƏCLİSİ-ÜNS»** ədəbi məclis təşkil edilmiş və **1897-ci ilə qədər fəaliyyət göstərmişdir.** Məclis A.Ağahın evində fəaliyyətə başlamışdır. Xurşudbanu Natəvanın başçılığı ilə, məclisin tədbirlərində şairlər – A.Agah, M.P.Fəna, M.Ə.Növrəs, A.H. Yüzbaşov, M.Məmən, M.S.Piran və başqa tanınmış şairlər iştirak edirdilər.

Xurşudbanu Natəvanın ədəbi yaradıcılığında gözəl şeirlər və qəzəllər əsas yer tutur.

**1873-cü ildə Xurşudbanu Natəvan Şuşa şəhərinə şirin su kəməri çəkdirmişdir.** Araz çayından Mil düzünə su kəmərinin çəkilməsi də xan qızı Natəvanın adı ilə bağlıdır. **«XAN QIZI BULAĞI»** və Şuşanın **«BAZARBAŞI» ərazisində yerləşən şirin su hamamı Xurşudbanu Natəvan tərəfindən şuşalılara ən qiymətli hədiyyədir.**

**Xurşudbanu Natəvan 1897-ci il oktyabr ayının 2-də Şuşa şəhərində əbədiyyətə qovuşmuşdur. O, həyatla vidalaşarkən 65 yaşı var idi... şuşalılar onu çiyinlərində Ağdama kimi dayanmadan aparmışlar. Xan qızının tabutu heç yerdə dayandırılmadın İMARƏT məzarlığına aparılıb orada qohumlarının məzarları yanında dəfn olunmuşdur.**

# GÖRKƏMLİ MEMAR KƏRBƏLAYI SƏFİXAN QARABAĞİ

Şuşanın və demək olar ki, bütün Qarabağın ən məhsuldar memarı **KƏRBƏLAYI SƏFİXAN QARABAĞİ** idi. Şuşa şəhərində, ondan kənarda kiçik, böyük məscidlərin, sarayların, malikanələrin, karvansarayların, hamamların, yaşayış binalarının tikintisi onun adı ilə bağlıdır.

Kərbəlayı Səfixan **1788-ci ildə Cənubi Azərbaycanın ƏHƏR şəhərində bənna ailəsində anadan olmuşdur. O, 1910-cu ildə Şuşanın SAATLI** məhəlləsinin məsçidinin təmirinə rəhbərlik edərkən yıxılmış və həlak olmuşdur. Bu zaman onun **122 yaşı var idi.** Kərbəlayı Səfixan dəfn olunarkən, Şuşanın məşhur həkimi **ƏBDÜLKƏRİM bəy MEHMANDAROV** memarın məzarının üstündə vida nitqi söyləmişdir.

Kərbəlayı Səfixanın atası əslən Qarabağlı idi. Bənnalıqla məşğul olan **SULTAN HÜSEYN** oğlunu əməksevərlik ruhunda tərbiyə etmişdir. Nadir şah **Gəncə-Qarabağ bəylərbəyliyini ləğv edərkən bir çox tayfaları İranın, Mərkəzi Asiyanın və Əfqanıstanın müxtəlif ərazilərinə köçürmüşdür.** Sultan Hüseynin ailəsi **Təbriz şəhəri yaxınlığında yerləşən Əhər şəhərində məskunlaşmışdılar.** Sultan Hüseyn bənnalıq sənətini Kərbəlayı Səfixana mükəmməl öyrətmişdir.

Memarlıq sənətinə yüksələn Kərbəlayı Səfixanın layihələri əsasında Əhərdə və onun ətrafında yaraşıqlı evlər tikilir. Öz əməyi ilə məşhurlaşan gənc memar Təbriz memarlıq məktəbinin yetirməsi idi.

**XIX əsrin əvvəllərində Şuşa şəhərində kiçik və böyük**

**binalara tələbat xeyli artmışdır.** Bu səbəbdən də bənna və memarlara tələbat xeyli artmışdır. Şəhərdə abadlıq və yeni quruculuq işlərində Kərbəlayı Səfixan yaxından iştirak edir və yeni-yeni layihələr tərtib edərək, onların həyata keçirilməsini təmin edirdi.

Şuşa şəhərində **Yuxrı Gövhər ağa məsçidinin yenidən qurulması ideyası irəli sürülərkən şəhər əhalisi yekdilliklə Kərbəlayı Səfixanın namizədliyini irəli sürdülər. 1883-cü ildə məsçidin bərpa işləri əsasən başa çatdırılır. Məsçidin ibadət salonuna və qoşa minarələrinə bəzək vurulması istedadlı rəssam, şuşalı M.M.NƏVVABA həvalə olunmuşdur.**

Şuşa qalasının məhəllə məsçidlərinin əksəriyyətinin inşası Kərbəlayı Səfixanın memarlıq sənətinin məhsuludur. Məsçidlərdə memarın istedadı **səkkizbucaqlı daş sütun və onlara uyğun künbəzlərin örtüklərində özünü əyani surətdə göstərir.** Bunlardan başqa onun inşa etdiyi məsçidlərdə qadınlar üçün mehrabların olmasıdır.

**MEHRABLAR** məsçidlərin qibləyə baxan hissələrində inşa olunurdu. Məsçidlərdə mehrabla üz-üzə qadınlar üçün eyvanlar da inşa olunurdu.

Yuxarıda qeyd etdiyimiz kimi Kərbəlayı Səfixan Qarabağdan uzaq ellərdə də məşhur idi. O, Qarabağda özünəməxsus memarlıq məktəbi yaratmış, bu sahədə milli memarlıq ənənələrinə ömrünün sonuna qədər sadiq qalmışdır.

Kərbəlayı Səfixan **1868-ci ildə Bərdə ərazisində yerləşən İMAMZADƏ memarlıq kompleksində yenidən qurma işləri aparmış və burada məsçid inşa etmişdir. 1868-1870-ci illərdə Ağdamda məsçid inşa etmişdir. 1874-**

**1875-ci illərdə Şuşa şəhərində Aşağı Gövhər ağa, 1890-cı ildə Füzuli şəhərində Hacı Əkbər, yenə həmin rayonun Horadiz (1891-1908) və Qoçəhmədli (1906) kənd məsçidlərini inşa etmişdir.**

Bunlardan əlavə Kərbəlayı Səfixan **1870-ci illərdə Odessada TATAR və 1880-ci ildə isə Aşqabadda QARABAĞLILAR məsçidlərini inşa etmişdir.** Memarın bizə miras qoyduğu maddi mədəniyyət abidələrini saymaqla qurtarmaz.

**KƏRBƏLAYI SƏFİXAN QARABAĞİ** Şuşa şəhərinin **MİRZƏ HƏSƏN** məzarlığında övladlarının yanında dəfn olunmuşdur.

## MİR MÖHSÜN NƏVVAB QARABAĞİ

**Mir Möhsün Nəvvab 1833-cü ildə** Şuşa şəhərində **HACI SEYİD ƏHMƏDİN** ailəsində anadan olmuşdur. O, bütün ömrünü Şuşa şəhərində keçirmişdir. M.M.Nəvvab təhsilini dini məktəbdə almış, ərəb, fars dillərini öyrənmişdir. Sonra təhsilini **SARICALI ABBASIN mədrəsəsində davam etdirmişdir,** astronomiya, kimya, riyaziyyat elmlərini, ədəbiyyatı, rəssamlığı, xəttatlığı və musiqini dərindən öyrənmişdir. O, **20-dən çox** kitabın müəllifidir.

**M.M.Nəvvab 1872-ci ildə «MƏCLİSİ-FƏRAMUŞAN» («Unudulmuşların məclisi») və XANƏNDƏLƏR MƏCLİSİ yaratmış, Şuşada kitabxana və qiraətxana açmışdır.**

M.M.Nəvvabın rəhbərlik etdiyi məclislərə şairlər –

**Abdulla bəy Asi, Fatmı xanım Kəminə, Məşədi Əyyub Baki, Həsənəli xan Qaradaği, Əbülhəsən Şəhid, musiqiçilər və xanəndələr – Hacı Hüsü, Məşədi Cəmil Əmirov, İslam Abdullayev, Seyid Şuşinski** daxil idilər. Həmin məclislər Azərbaycanın başqa məclisləri – **Şuşada «Məclisi-üns», Şamaxıda «Beyk-us-Səfa», Bakı şəhərində «Məcmə-üş-Şüəra» (şairlər məclisi)**, ilə sıx əlaqə saxlayırdı.

M.M.Nəvvabın yazdığı əsərlər arasında Qarabağda **XVIII-XIX əsrlərdə** yaşamış **100-dən** çox şairin həyat və yaradıcılığı haqqında maraqlı məlumatlar var. **«TƏZKİREYİ-NƏVVAB» ANTOLOGİYASINDA**[1] onlar haqqında ətraflı məlumatlar verilir.

Məcmuədə Vaqif, Vidadi, Kərbəlayı Səfi Valeh, Q.B.Zakir, Səfərqulu xan Nəva, Məhəmməd bəy Aşiq, Abdulla bəy Asi, X.B.Natəvan, Mehdiqulu xan Vəfa, Fatma xanım Kəminə, Həsənəli xan Qaradaği, Mirzə Rəhim Ağamirzəzadə, Hacı Abbas Agəh, M.M.Xəzani və başqa şairlər haqqında tutarlı məlumatlar var.

M.M.Nəvvabın yuxarıda qeyd olunan əsəri **1913-cü ildə Bakı şəhərində, 1998-ci ildə Bakıda fəaliyyət göstərən Şuşa nəşriyyatında nəşr olunmuşdur.** M.M.Nəvvabın **«NƏSİHƏTNAMƏ», «KİFAYƏT-UL-ƏTVAL», «NUR-ÜL-ƏNVAR», VÜZİH-ÜL-ƏRQAM, «KƏŞF-ÜL-HƏQİQEYİ» məsnəvi əsərləri Azərbaycanın mədəni həyatına qiymətini töhvədir.**

---

[1] **Antologiya – müxtəlif müəlliflərin seçilmiş əsərlərindən ibarət şeir və ya nəsr məcmuəsidir.**

Geniş dünyagörüşünə malik olan M.M.Nəvvab **1918-ci ildə 85 yaşında** Şuşa şəhərində əbədiyyətə qovuşmuşdur.

## UNUDULMUŞ RƏSSAM, USTA QƏMBƏR QARABAĞİ

Uzun müddət diqqətdən kənarda qalmış, Azərbaycanın görkəmli rəssamı, şuşalı **USTA QƏMBƏR 1830-cu ildə** Şuşa şəhərində anadan olmuşdur. Onun **ŞÜKÜR** adlı bir oğlu var idi. **Usta Qəmbər Qarabağinin** qardaşı **Usta Səfər də** rəssam idi. O, Şəki Xan Sarayının abadlaşdırılmasında iştirak etmişdir.

Usta Qəmbər Şəki Xan Sarayının divar rəsmlərinin müəllifidir. Şəki Xan Sarayında aparılan bərpa işlərində ona oğlu Usta Şükür və qardaşı Usta Səfər kömək etmişlər.

Şuşa şəhərində Mehmandarovların, Hacı Məmmədovun, İsgəndər bəy Rüstəmbəyovun evlərinin inşa edilməsini və divar rəsmlərini də Usta Qəmbər işləmişdir. Onu da qeyd edim ki, Şuşada onun işlədiyi divar rəsmləri, Şəki Xan Sarayında bir daha təkrar olunur.

Təəssüflə deməliyik ki, Usta Qəmbərin və onun köməkçilərinin Şuşa şəhərində və digər yerlərdə çəkdiyi rəsmlər qorunub saxlanılmamışdır.

Şərq monumental rəssamlıq məktəbinin görkəmli nümayəndəsi Usta Qəmbərin həyat və fəaliyyəti haqqında məlumatlar da kifayət qədər əlimizdə yoxdur.

Usta Qəmbər **1902-ci ildə,** bəzi məlumatlara görə **1906-cı ildə** Şuşa şəhərində dünyasını dəyişmişdir.

## VƏZİROV NƏCƏF BƏY FƏTƏLİ BƏY OĞLU

**Vəzirov Nəcəf bəy Fətəli bəy oğlu 1854-cü il fevral ayında Şuşa şəhərində anadan olmuşdur.** O, ilk təhsilini Şuşa şəhərində mollaxanada və mədrəsədə almış, **1868-1874-cü illərdə Bakı şəhərindəki gimnaziyada oxumuşdur.** Nəcəf bəy Vəzirov Azərbaycan dramaturqu, teatr xadimidir. Onun publisist əsərləri siyasi və ictimai həyat məsələlərinə həsr edilmişdir.

N.B.Vəzirovun ilk pyeslərində[1] **«Əti sənin, sümüyü mənim», «Qara günlü», «Gəmi lövbərsiz olmaz», «Ev tərbiyəsinin bir şəkli», «Daldan atılan daş topuğa dəyər»** ictimai hadisələr geniş təsvir olunur. **«Hacı Qənbər», «Yağışdan çıxdıq, yağmura düşdük», «Adı var, özü yox» və başqa pyeslər də onun qələminin məhsuludur.**

**Nəcəf bəyin pyesləri Şuşa şəhərində də geniş maraqla qarşılanırdı. «Müsibəti Fəxrəddin» faciəsi** daha geniş əks-səda doğururdu.

**Vəzirov Nəcəf Fətəli bəy oğlu 1926-cı il iyul ayının 9-da Şamaxı rayonunun Çuxuryurd kəndində vəfat etmiş və Bakıda torpağa tapşırılmışdır.**

## KÖÇƏRLİ FİRİDUN BƏY ƏHMƏD BƏY OĞLU

**Köçərli Firidun bəy Əhmədbəy oğlu 1863-cü il yanvar ayının 26-da Şuşa şəhərində anadan olmuşdur.** Azərbaycan tarixində o, ədəbiyyatşünas, pedaqoq publisist

---

**[1] Pyes – latınca tikə, hissə mənasını verir. Dram əsərlərinin, faciə, dram, komediya və sairənin ümumi adıdır.**

kimi şöhrət qazanmışdır. İlk təhsilini Şuşada mollaxanada və mədrəsədə almış və ərəb, fars dillərini öyrənmişdir.

Firidun bəy **1885-ci ildə Qori Müəllimlər Seminariyasını** qurtardıqdan sonra, Azərbaycan şəhəri, İrəvan xanlığının mərkəzi **İrəvandakı gimnaziyada, sonra isə Qori Müəllimlər Seminariyasında dərs demişdir.**

**Köçərli Firidun bəy Azərbaycan ədəbiyyatı tarixinə həsr etdiyi əsərlərində «Azərbaycan tatarlarının ədəbiyyatı», «Azərbaycan Türk ədəbiyyatı» və «Azərbaycan ədəbiyyatı tarixi materialları» milli ədəbiyyatımıza böyük hədiyyədir.**

Firidun bəy əsərlərində Azərbaycan dilinin saflığı uğrunda da fəal mübarizə aparmışdır. Onun uşaq ədəbiyyatı sahəsində də xitmətləri çoxdur. Köçərlinin xeyli sosial yönümlü publisist məqalələri də var.

**Köçərli Firidun bəy 1920-ci ildə Azərbaycanın Gəncə şəhərində dünyasını dəyişmiş və orada dəfn olunmuşdur.**

## AĞAYEV ƏHMƏD BƏY MİRZƏ HƏSƏN OĞLU AĞAOĞLU

**XIX əsrin sonu – XX əsrin** əvvəllərində Azərbaycanın siyasi, ictimai və mədəni həyatında görkəmli publisist, alim, siyasi xadim **ƏHMƏD bəy AĞAYEV AĞAOĞLU 1869-cu ildə Şuşa şəhərində bəy ailəsində anadan olmuşdur.** İlk təhsilini evdə almış və sonra Tiflis gimnaziyasını bitirmişdir.

Ağayev Əhməd bəy Fransanın **SARBONNA** şəhərindəki hüquq universitetini qurtarmışdır. Paris şəhərində tələbə olarkən o, mətbuatda və elmi jurnallarda məqalələrlə çıxış etmişdir. Universiteti qurtardıqdan sonra Əhməd bəy doğma şəhəri Şuşaya qayıdır. Bu qayıdış **1893-cü ildə baş verir. O, ŞUŞA REALNI MƏKTƏBİNDƏ FRANSIZ DİLİNDƏ DƏRS DEYİR.**

**1897-ci ildə Əhməd bəy Bakı şəhərinə köçür.** Bakı şəhərində nəşr olunan **«KASPİ», «HƏYAT», «İRŞAD» VƏ «TƏRƏQQİ» qəzetlərində milli ruhda məqalələrlə çıxış edir.**

Azərbaycan xalqına qarşı milli qırğınların qarşısını almaq üçün milli burjuaziya və torpaq sahiblərinin nümayəndələri müdafiə cəmiyyətləri yaratmaqla məcbur oldular. Bu sahədə Əhməd Ağayev xüsusilə fərqlənirdi. O, **1906-cı il oktyabr ayında «İRŞAD» qəzetində yaratdığı «DİFAİ» («Müdafiə») partiyasının proqram məqsədləri barədə çıxış etdi.**

**«DİFAİ» partiyası hay talanlarına və xalqımıza qarşı cinayət törədən bütün qüvvələrə ağır zərbə oldu. 1905-ci ildə yaradılan «DİFAİ» partiyası xalqımıza qarşı törədilən milli qırğınların qarşısını almaqda böyük rol oynadı.**

**«DİFAİ»** – ərəb sözü olub mənası yuxarıda qeyd etdiyimiz kimi özünü müdafiə etmək deməkdir. Ümimiyyətlə, onu **«QAFQAZ ÜMUMMÜSƏLMAN MÜDAFİƏ KOMİTƏSİ» də adlandırmaq olar.**

Hay-müsəlman qırğınları zəminində yalnız öz xalqını

müdafiə etmək məqsədilə yaradılan və Qafqaz müsəlmanları arasında ilk mütəşəkkil hərbi-siyasi təşkilat olan «DİFAİ» partiyasının Bəyannaməsinin sonunda deyilirdi:

**“Daşnaksütyun” partiyası bilsin ki, heç bir vaxt, biz öz millətimizin bədbəxtliyi üzərində erməni (hay) tayfasının səadət və xoşbəxtlik qurmasına yol verməyəcəyik!”**

Ağayev Əhməd bəy Mirzə Həsən oğlu **1939-cu ildə Türkiyədə vəfat etmişdir.**

## HAQVERDİYEV ƏBDÜRRƏHİM BƏY ƏSƏD BƏY OĞLU

**Haqverdiyev Əbdürrəhim bəy Əsəd bəy oğlu 1870-ci il may ayının 17-də Şuşa şəhərində anadan olmuşdur.**

Əbdürrəhim bəy Azərbaycan ədəbiyyatında yazıçı, dramaturq kimi şöhrət qazanmışdır. O, M.F.Axundovun realist ənələrinin davamçısı və ictimai xadim idi. İlk təhsilini Şuşada mollaxanada almış, sonra isə Tiflis realnı məktəbini qurtarmışdır.

**Haqverdiyev 1891-ci ildə Sankt-Peterburq Yol Mühəndislər İnstitutuna daxil olmuş və eyni zamanda da azad müdavim kimi Sankt-Peterburq Universitetinin Şərq fakültəsində oxumuşdur. 1892-ci ildə «YEYƏSƏN QAZ ƏTİNİ GÖRƏSƏN LƏZZƏTİNİ», 1896-cı ildə «DAĞILAN TİFAQ» dramlarını yazmışdır.**

**Əbdürrəhim bəy 1899-cu ildə təhsilini başa çatdıraraq doğma Şuşaya qayıdır. 1901-ci ildə Bakı şəhərinə köçmüşdür. 1905-ci ildə Rusiya Dövlət Dumasına** deputat seçilmiş, duma buraxıldıqdan sonra uzun müddət Sankt-

Peterburqda qalmış, **«AĞA MƏHƏMMƏD ŞAH QACAR» tarixi dramını yazmaq üçün** araşdırmalar aparmış və **1907-ci ildə QACARLAR MƏMLƏKƏTİNƏ** səyahət etmişdir.

Əbdürrəhim bəy **«MOLLA NƏSRƏDDİN» jurnalında maraqlı** məqalələrlə çıxışlar etmişdir. əsərlərində o, Azərbaycan tarixinin ən mühüm məqamlarını əks etdirmişdir.

Şuşa şəhərində Şərq konsertlərinin nümayiş etdirilməsi sahəsində **Əbdürrəhim bəy** səmərəli fəaliyyət göstərmişdir.

**Ə.B.Haqverdiyev 1933-cü il noyabr ayının 12-də Bakı şəhərində vəfat etmişdir.**

## AXUNDOV SÜLEYMAN RZAQULU BƏY OĞLU

**Axundov Süleyman Rzaqulu bəy oğlu 1875-ci il oktyabr ayının 3-də Şuşa şəhərində anadan olmuşdur.** İlk təhsilini Şuşada mədrəsədə almış və **1894-cü ildə QORİ MÜƏLLİMLƏR SEMİNARİYASININ AZƏRBAYCAN ŞÖBƏSİNİ bitirmişdir.**

O, ömrünü ən qiymətli işə – **müəllimliyə həsr etmişdir. 1906-cı ildə keçirilən Azərbaycan müəllimlərinin birinci qurultayında nümayəndə kimi iştirak etmişdir.**

Süleyman Sani **1899-cu ildə «TAMAHKAR» dramasını yazmışdır.** Bir çox dram əsərləri hekayələri var.

Süleyman Sani Axundov ictimai işlərdə də fəal iştirak etmişdir.

**O, 1939-cu il mart ayının 3-də Bakı şəhərində vəfat etmişdir.**

# VƏZİROV YUSİF MİRBABA OĞLU

**Vəzirov Yusif Mirbaba oğlu 1887-ci il sentyabr ayının 12-də Şuşa şəhərində anadan olmuşdur.** Ailənin daşıdığı **VƏZİROV** familiyası **Qarabağ xanlığının xanı İBRAHİMXƏLİL xanın** nüfuzlu saray əyanlarından biri olan **Mirzə Əli Məhəmmədlə bağlıdır.** Çəmənzəminli təxəllüsü ilə əsərlərin müəllifi kimi məşhurlaşan Yusif Vəzir Çəmənzəminli **«İKİ OD ARASINDA»** yazdığı romanında **MIRZƏ ƏLİ MƏHƏMMƏD** ağanın bədii surətini yaratmışdır. Atası Mirbaba həm həkim və həm də əczaçı idi.

Anası **SEYİD ƏZİZ SEYİD HÜSEYN qızı humanist qadın idi.** Yusifin məşhur ədib kimi formalaşmasında anasının adət və ənənələrimiz, nağıllarımız haqqında söhbətlərinin əvəzsiz təsiri olmuşdur.

Atası Mirbaba Vəzirov Ə.B.Haqverdiyevlə, Ə.Ağayevlə (Ağa oğlu), N.B.Vəzirovla və başqa ədib və ziyalılarla yaxın dostluq edərmiş. O, Fars və Türk dillərini də mükəmməl bilirmiş. Atası Ağdamda işlədiyi üçün Yusifi özü ilə or aparır. Lakin Ağdamda məktəb olmadığı üçün, oğlunu **MURADBƏYLİ kəndindəki rus məktəbinə qoyur.** O, burada **bir il** oxuduqdan sonra yenidən doğma şəhəri Şuşaya qayıdır.

**1896-cı ildə Şuşaya** qayıdan Yusif Vəzir **EDADİYYƏ**[1] məktəbinə daxil olur. Bu məktəbdə fransız dilini Əhməd bəy Ağayev, şəriət dərsini Mirzə Sadıq, tədris edirdilər. Məktəbin direktoru və başqa fənləri tədris edənlər milliyyətcə ruslar idilər.

Y.V.Çəmənzəminli həyatının **20 ilini Şuşada keçirmişdir.**

---

[1] **Edadiyyə – Şuşada orta məktəbə deyilirdi.**

Bu müddət ərzində Şuşa mühiti onun bədii yaradıcığılığına güclü təsivr göstərmişdir. **O, orta təhsilini 1906-cı ildən Bakı şəhərində fəaliyyət göstərən orta məktəbdə davam etdirir. 1909-cu ildə** o, Bakı şəhərində orta məktəbi bitirir.

**Y.V.Çəmənzəminli 19010-cu ildə Müqəddəs Vladimir adına Kiyev İmperator Universitetinin hüquq fakültəsinə daxil olur.** Kiyev tələbə mühiti Yusif Vəzirin hərtərəfli formalaşmasına böyük təsir göstərmişdir.

Y.V.Çəmənzəminli **AZƏRBAYCAN XALQ DEMOKRATİK RESPUBLİKASININ yaradılmasında əziz yoldaşımız və böyük mürşidimiz adlandırdığı MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ ilə birlikdə çalışmış, istiqlaliyyətin möhkəmləndirilməsi, sahəsində böyük işlər görmüşdür.**

**ADR-nın Türkiyədə səfiri olmuş Y.V.Çəmənzəminli** bu sahədə də yadda qalan işlər görmüşdür. Ədibin **1926-1936-cı illərdə** hekayə və romanlarını əhatə edən **14 adda** kitabları nəşr olunmuşdur.

**1938-ci il avqust ayının 9-da** Y.V.Çəmənzəminlinin həbs edilməsi haqqında qərar verildi. Bu vaxt o, vətəndə deyildi. **XARƏZM VİLAYƏTİNİN ÜRGƏNC şəhərində idi.** O, burada institutda işləyirdi. **1940-cı il yanvar ayının 27-də Ürgənc şəhərində həbs edilib Bakıya gətirildi.**

**Y.V.Çəmənzəminli 1940-cı ilin yayında mühakimə olunaraq Rusiyanın QORKİ vilayətinin Suxobezvodnoe kəndinə sürgün olundu.** Ədibin hekayələri, romanları və digər yazıları hazırda azərbaycanlı oxucuları arasında geniş şöhrət qazanmışdır. **Y.V.Çəmənzəminli 1943-cü ildə yuxarıda göstərilən kənddə vəfat etmişdir.**

# XXI FƏSİL
# ŞUŞA AZƏRBAYCANIN MƏDƏNİYYƏT MƏKANIDIR

## ŞUŞADA HƏMİŞƏ MUSİQİ SƏSLƏNİRDİ

**ŞUŞA QALASININ** bünövrəsi sanki mədəniyyət üzərində qoyulmuşdur. Hər yerdə həmişə musiqi səsləri eşidilirdi. Lakin bu sahədə müəyyən fərqli cəhətlərdə var idi. Təşkil olunan böyük rəsmi tədbirlər **nağara, zurna, kərənay, şeypur, nefir, şahnəfir**[1] **musiqi alətlərindən istifadə olunardı.**

Bir qayda olaraq idman yarışları keçirilən Şuşa zorxanalarında və Cıdır düzündə həmişə musiqi, qəhrəmanlıq dastanlarının ifaları səslənərdi. Əyləncə məkanlarında musiqi səsi ətrafı öz ağuşuna alardı. Qamışdan düzəldilən çoban tütəyi qoyun sürülərini istənilən qayda da idarə edirdi.

**Yaylımı** melodiyasının sədaları altında qoyunlar yem axtarmaq üçün çəmənilikləre axışırdı.

**Yığılma** melodiyası ilə naxır su bulağına yollanmaq üçün çobanın ətrafına toplaşırdılar. Nəhayət son olaraq axşama yaxın evə və ya yatağa qayıtmaq üçün səslənən **Qayıtma** musiqi sədaları səslənirdi.

Məhərrəmlik mərasimləri günlərində dini matəmlərdə şəraitə uyğun olaraq yüksək səviyyədə qeyd edilirdi. Şuşa qalasında bu işi hərtərəfli bilən din xadimləri və dindarlar var idi. **İMAM HÜSEYNİN** faciəli ölümünü rəvayət edən səhnələş-

---

[1] **Şahnəfir – böyük zurna deməkdir.**

dirilmiş tamaşalarda bir neçə mərsiyəçilər və xanəndələr iştirak edirdilər. Mərsiyələri oxumaq üçün xanəndə muğamın fəlsəfi əsaslarını dərindən bilməli idi.

Zəngin, müxtəlif meşələrlə, ormanlarla, nur bulaqlarla, təbii istehkamlarla əhatə olunan Şuşa qalasında **tar, saz, kamança, ud, kanon, dəf, balaban, zurna, tütək, ney və digər milli musiqi alətlərinin istehsalı üçün bütün şərait var idi.**

Şuşa qalasının əsası **(1750-ci il)** qoyulandan sonra musiqi məclisləri təşkil olunmağa başlanmışdır. **Qarabağ xanlarının – PƏNAHƏLİ XANIN və onun oğlu İBRAHİMXƏLİL xanın dövrlərində sarayda musiqiçilər və xanəndələr məclisləri var idi. XVIII əsrin sonu və XIX əsrin əvvəllərində İbrahimxəlil xanın sarayında Şahsəməd oğlu, Yusif Mirzə Hüseyn, Həsənçə, Qaraçı Əsəd, Kosa Məhəmməd, Mirzə İsmayıl, Tarzən Ələsgər, kamançaçı Qaraçı Hacı bəy, Pərviz oğlu Məhəmməd kimi xanəndə və çalğıçılar Şuşanın musiqi şöhrətini yüksəkliklərə qaldırırdılar.**

Şuşada **Xarrat Qulunun və Molla İbrahimin** rəhbərlik etdikləri musiqi məktəbi fəaliyyət göstərirdi. Bu məktəb yalnız Şuşada, Qarabağda deyil, bütün Azərbaycanda vokal musiqi sənətinin inkişafına səmərəli təsir göstərmişdir. Bu məktəb **Hacı Hüsü, Məşədi İsi, Tarzən Sadıqcan, Əbdülbaqi Zülalov, Cabbar Qaryağdı oğlu, Keçəçi oğlu Məhəmməd və başqa tanınmış xanəndələr yetişdirmişdir.**

Xarrat Qulunun vəfatından **(1883)** sonra onun şagirdi, görkəmli xanəndə **Hacı Hüsü və tanınmış alim, musiqişünas Mir Möhsün Nəvvab Şuşada musiqi məclisi – «Məclisi-xanəndə» («Musiqiçilər cəmiyyəti») yaratdılar,** məktəb musiqiçilər, xanəndələr yetişdirmək sahəsində böyük xidmət

göstərmişdir. **Seyid Şuşinski iki il bu məktəbdə təhsil almışdır.**

**Musiqili və ədəbi məclislərin bəhrəsi olaraq Şuşada 60-a qədər musiqi ansamblı var idi.**

Şuşalı musiqiçilərin və xanəndələrinin iştirakı ilə **Şuşada, Gəncədə, Dərbənddə, Vladiqafqazda, Tiflisdə, İrəvan xanlığının mərkəzində şərq konsertləri təşkil olunurdu.**

Şuşa mühiti musiqi aləminin beşiyinə, Zaqafqaziyanın konservatoriyasına çevrilirdi. Bu elə bir dövr idi ki, Şuşa bu sahədə birinci yeri özü üçün artıq təmin etmişdir.

**1897-ci ildə Ə.B.Haqverdiyevin təşəbbüsü ilə dahi Azərbaycan şairi Məhəmməd Füzulinin «LEYLİ VƏ MƏCNUN» poeması əsasında «MƏCNUN LEYLİNİN MƏZARI ÜSTÜNDƏ» musiqili muğam səhnəciyi tamaşaya qoyuldu. Bu Şuşa şəhərinin tarixində çox mühüm hadisə idi.**

Bu səhnəcik sübut etdi ki, Azərbaycan milli musiqisində açılmamış xəzinələr var. Bu səhnəcik nümayiş etdirilərkən gələcəyin dahi musiqişünası, bəstəkar, milli operamızın banisi **ÜZEYİR BƏY HACIBƏYOV** da tamaşaçılar arasında idi. Azərbaycanın bütün musiqi yeniliklərinin başında durmaq məhz Üzeyir bəyə qismət oldu.

**HACI HÜSÜ NİFTALI OĞLU – 1830-cu ildə Şuşada anadan olmuş və 1898-ci ildə Türkmənistanın mərkəzi Aşqabadda vəfat etmişdir.** Hacı Hüsü Şuşanın Çölqala məhəlləsində papaqçı ailəsində doğulmuşdur. Hacı Hüsü Xarrat Qulunun musiqi məktəbini qurtaran ilk şagirdlərdən biri idi. Xan qızının yanında böyük hörməti var idi. O, ilk dəfə Şuşa

teatr binasında xeyriyyə konserti vermişdir.

Hacı Hüsü Qacar şahı Nəsrəddin şah tərəfindən oğlu Müzəfərəddinin **Təbrizdə** təşkil olunan toy məclisinə dəvət olunmuş və həmin vaxt keçirilən musiqi müsabiqəsində **birinci yerə layiq görülmüşdür.**

Hacı Hüsü **MƏKKƏ** ziyarətinə gedərkən and içmişdir ki, ziyarətdən qayıtdıqdan sonra muğam ifa etməyəcək. O, bir müddət Şuşada **Gövhər ağanın Yuxarı CÜMƏ məsçidində azanxan xidmətində olmuşdur.**

**ZÜLALOV ƏBDÜLBAQİ (BÜLBÜLCAN) 1841-ci ildə Şuşa şəhərində anadan olmuş, 1927-ci ildə Bakı şəhərində vəfat etmişdir.**

**Zülalov Əbdülbaqi Kərbəlayı Əli oğlu Bülbülcan** Xarrat Qulunun musiqi məktəbinin yetirməsidir. Güclü və məlahətli səsə malik olan xanəndə hər yerdə tanınan müğənni idi, **1873-cü ildə xan qızı Xurşudbanu Natəvanın Şuşa şəhərinə çəkdirdiyi şirin su kəmərinin açılışı mərasimində iştirak etmişdir.** Bülbülcan **1875-ci ildə** Tiflis şəhərinə köçür. O, Tiflisin mədəni həyatında fəal iştirak etmişdir.

O, **1888-ci ildə** Qafqaza səyahət edən **çar III Aleksandrın** qarşılanması mərasimində iştirak edib, muğam ifa etmişdir. Müğənninin ifası imperatora böyük təsir bağışlamışdır. Hərhalda o, muğamın sözlərini dərk edə bilməmişdir. Müğənninin səsi və musiqi imperatora mənəvi zövq vermişdir.

**CABBAR MƏŞƏDİ İSMAYIL OĞLU 1861-ci il mart ayının 31-də Şuşa şəhərində anadan olmuşdur.** Bir dəfə Xarrat Qulu və Molla İbrahimin musiqi məktəbinin şagirdi **16**

**yaşlı Cabbar Qaryağdı oğlunu öz müəllimi ilə birlikdə** Şuşa şəhərində toy məclisinə dəvət edirlər. Toyda Hacı Hüsü və Məşədi İsi də iştirak edirdilər. Toyda Cabbar Qaryağdı oğlunun ifa etdiyi **MUĞAM** mərasim iştirakçılarına mənəvi zövq verir. Hacı Hüsü ayağa qalxaraq, gənc müğənnini təbrik edərək alnından öpür və deyir:

**«GƏLƏCƏKDƏ BİZİ BU GƏNC XANƏNDƏ ƏVƏZ EDƏCƏK».** Onun bu sözləri sonralar həqiqətə çevrildi. Müasirləri Cabbar Qaryağdı oğlunun səsini **«coşub-daşan selə bənzədirdilər. O, Azərbaycan milli musiqisinin, milli muğamımızın canlı tarixi idi».**

Cabbar Qaryağdı oğlu **XX əsrin əvvəllərində Bakı şəhərinə köçür və 1902-ci ildə «ŞƏRQ KONSERTİ» təşkil edir.** Hacı Zeynalabdin Tağıyevin teatr binasında təşkil olunan konsertdə xanəndəni tarzən **Mirzə Fərəc Rzayev və Kamançaçı Məşədi Qulu** müşayiət etmişlər.

**XX əsrin əvvəllərində Cabbar Qaryağdı oğlu «QRAMMAFON», «SPRT-REKORD» və «EKSTRAFON»** şirkətlərinin dəvəti ilə **Varşava, Riqa və Kiyev şəhərlərində olmuş və muğam ifalarını plastik valları yazdırmışdır.**

**1910-1915-ci illərdə** Cabbar Qaryağdı oğlu **Qacarlar məmləkətində, Osmanlı Türkiyəsində və Mərkəzi Asiyada da** şöhrət qazanmışdır. O, xanəndəlikdən başqa mahir tədqiqatçı və musiqişünas idi.

**O, 1944-cü il aprel ayının 20-də Bakı şəhərində vəfat etmişdir.**

## MİR MÖHSÜN AĞA SEYİD İBRAHİM OĞLU (ŞUŞİNSKİ)

**Mir Möhsün Ağa Seyid Şuşinski 1889-cu il aprel ayının 12-də Şuşa şəhərində anadan olmuşdur.**

Cabbar Qaryağdı oğlunun ən ləyaqətli ardıcıllarından biri **Mir Möhsün ağa Seyid Şuşinskidir**. O, mədrəsə təhsili almışdır. Xanəndənin ilk musiqi müəllimi **BİBİSİ MƏŞƏDİ HÜRZAD olmuşdur.** Əmisi ilə toy şənliklərində iştirak edən gənc xanəndə təsadüfən **KEÇƏÇİ OĞLU MƏHƏMMƏDLƏ** tanış olur.

Keçəçi oğlu Seyidin əmisinə məsləhət görür ki, onu Şuşa musiqi məktəblərinin birinə qəbul etdirsin. Şuşada gənc Seyidin musiqi təhsili ilə əmisi özü məşğul olur. Çünki əmisi Seyid Əli musiqini yaxşı bilirdi. Bundan əlavə **SEYİD ƏLİ** Cabbar Qaryağdı Oğlu ilə Şuşa şəhərində qonşu idi və aralarında səmimi dostluq münasibəti var idi.

Muğam sahəsində məşhurlaşan Seyid Şuşinski ilk konsertini **1908-ci ildə** təşkil etmişdir. Konsertdə o, əvvəlcə **«MANİ»** muğamını, sonra isə tamaşaçıların təkidi ilə **«BAYATI-ŞİRAZ»** muğamını ifa etmişdir.

Seyid Əli qardaşı oğlunu Mir Möhsün Nəvvabın musiqi məktəbinə qoyur. **İki il** Nəvvab məktəbində təhsil alan Seyid Şuşinski milli muğamlarımızın bütün sirlərini kamil mənimsəyir.

**1911-ci ilin payızında** Seyid Şuşinski mahir tarzən **MƏŞƏDİ CƏMİLLƏ** tanış olur. Onlar birlikdə konsertlər verirlər. Məşədi Cəmil Əmirov gənc xanəndəni özü ilə **GƏNCƏ**

**şəhərinə** aparır. Bu andan etibarən onların hər ikisi Gəncə şəhərinin musiqiçiləri ilə birlikdə ictimai tədbirlər də iştirak edir və toy şənliklərini bəzəyirdilər. Məşhurlaşan Seyid Şuşinskini **TİFLİS şəhərinə** dəvət edirlər. Tiflis tamaşaçıları Seyidin nümayiş etdirdiyi muğam konsertlərini yüksək qiymətləndirdilər. Verilən hər bir konsert xanəndəyə tamaşaçı hörməti qazandırırdı. Tamaşaçılar xanəndəni tez-tez dinləməyi arzu edirdilər.

**1908-ci il yanvar ayının 12-də Üzeyir Hacıbəyovun «Leyli və Məcnun» milli operası tamaşaya qoyulur. Müğənnilər öz məharətlərini göstərmək imkanı əldə edirlər.** Seyid Şuşinski də opera səhnəsində uğurla çıxış etməyə başlayır.

**1914-cü ildə** Şərq aləmində məşhur olan **ƏBÜLHƏSƏN XAN Təbriz şəhərindən Tiflisə gəlir.** Təbriz xanəndəsi Seyid Şuşinskini dinlədikdən sonra, onun ifasına yüksək qiymət verir.

**Seyid Şuşinski 1965-ci il oktyabr ayının 1-də Bakı şəhərində vəfat etmişdir.**

## MURTUZA MƏŞƏDİ RZA OĞLU (BÜLBÜL)

**Məmmədov Murtuza Məşədi Rza oğlu** (təxəllüsü – **BÜLBÜL) 1897-ci il iyun ayının 22-də Şuşanın Çuxur məhəlləsində anadan olmuşdur.**

**BÜLBÜL** Azərbaycan xalq mahnılarını və təsniflərini özünəməxsus tərzdə ifa edirdi. Şuşa musiqi məktəbinin yetirməsi olan Bülbül, Şuşa şəhərində təşkil olunan xalq məclislərində məlahətli səsi ilə rəngarəng təsnif və mahnılar oxumaqla

şəhər əhalisinin dərin hörmətini qazanmışdır.

**Bülbül 1927-1931-ci illərdə İtaliyanın Milan şəhərində** musiqi təhsili almışdır. Eyni zamanda o, Azərbaycan Konservatoriyasını da qurtarmışdır. Bülbül yaradıcılığının ən yüksək və parlaq zirvəsi, Üzeyir Hacıbəyovun **«Koroğlu»** operasındakı **Koroğlu surətidir. Bu surət indi də xalqımızın ən çox sevdiyi surətdir, Koroğlu uvertürasıdır.**

Bülbül musiqi və opera səhnəmizin əvəzolunmaz məxsiyyəti və Koroğlusu idi.

**MƏMMƏDOV MURTUZA MƏŞƏDİ RZA oğlunun Azərbaycan VOKAL sənətinin inkişafında müstəsna xidmətləri var.**

**Bülbül 1961-ci il sentyabr ayının 26-da Bakı şəhərində əbədiyyətə qovuşmuşdur.**

## BEHBUDOV RƏŞİD MƏCİD OĞLU

**Behbudov Rəşid Məcid oğlu 1915-ci il dekabr ayının 14-də Tiflis şəhərində anadan olmuşdur.** O, Azərbaycan Dövlət Filarmoniyasının və opera səhnələrimizin müğənnisi (solisti) idi.

Rəşid Behbudov Azərbaycan xalq mahnılarını və Azərbaycan bəstəkarlarının bəslədikləri **VOKAL** əsərlərini böyük şövqlə ifa edirdi.

**Rəşid Behbudov 1989-cu ildə 74 yaşında Moskva şəhərində yerləşən xəstəxanaların birində müəmmalı şəraitdə vəfat etmişdir...**

**Fikrət Əmirov, Zülfüqar Hacıbəyli, Əfrasiyab Bədəlbəyli, Soltğan Hacıbəyov, Süleyman Ələsgərov, Zakir Bağırov və başqa bəstəkarlar da Şuşa şəhərinin yetirmələridirlər.**

Dünyada musiqi sahəsində elə şəhərlər vardır ki, musiqi onun hər bir daşına, dumanına, çiskininə, dağına, dərəsinə, meşəsinə, ormanına, buz bulaqlarına, şəlalələrinə, nəğməkar quşlarına siyarət etmişdir.

Bu şəhərlərin sayı çox deyildir. Onlardan biri **Avstriyanın mərkəzi şəhəri VYANA,** ikincisi **İtaliyanın NEAPOL şəhəri və üçüncüsü Günəşli Azərbaycanımızın qeyrət tacı olan ŞUŞA ŞƏHƏRİDİR.**

Şəkililər öz şəhərini – **ŞƏKİNİ** qayalardan asılan şəhər adlandırırlar. Biz şuşalılar isə **ŞUŞA ŞƏHƏRİNİ** səmadan asılan şəhər adlandırırıq. Bunların hər ikisi həqiqətən də belədir.

## MİRZƏ SADIQ ƏSƏD OĞLU SADIQCAN

**Sadıq Əsəd oğlu təxəllüsü SADIQCAN 1846-cı ildə Şuşa şəhərində anadan olmuşdur.**

Mirzə Sadıq Şuşanın mədəni və musiqi məclislərində fəal iştirak edirdi. M.M.Nəvvabın təşkil etdiyi **«MƏCLİSİ-FƏRAMUŞAN»da və «MƏCLİSİ-XANƏNDƏ»də** fəal iştirak edir və hər iki cəmiyyətin məşğələlərinin yüksək səviyyədə keçirilməsinə böyük köməklik göstərirdi. Bununla yanaşı o, xan qızı X.B.Natəvanın da məclislərində iştirak edirdi.

Ədəbi və musiqi məclislərindəki səmərəli fəaliyyəti onun şöhrətinin artmasına səbəb oldu. Şuşalılar artıq ona **SADIQCAN deyirdilər.** O, **1880-ci ildə** xanəndə Hacı Hüsü ilə bir-

likdə Təbriz şəhərinə Nəsrəddin şah Qacarın oğlu Müzəffəraddin Mirzənin toy məclisinə dəvət olunmuşdur. Yuxarıda dediyimiz kimi Hacı Hüsü ən yaxşı xanəndə, Sadıqcan isə mahir tarzən kimi **ŞİRİ-XURŞUD ORDENİNƏ layiq görülmüşdülər.**

Sadıqcan Mirzə Ələsgərin musiqi dəstəsində kamança çalırmış. Günlərin bir günündə müəllimi xəstələnir. Mirzə Ələsgərin əvəzinə tar çalmalı olur. Hamı onun tar ifasını mövcuzə adlandırır. Müəllimi Mirzə Ələsgər Sadıqcana məsləhət görür ki, bundan sonra tar çalmaqla məşğul olsun. Belə də olur. Sadıqcan Tiflis şəhərində, Qafqazın müxtəlif şəhərlərində, Mərkəzi Asiyada, Qacarlar məmləkətində geniş fəaliyyəti ilə şöhrət tapır. Sadıqcan tarzən kimi ilk ad-san qazanan musiqiçi idi.

Sadıqcan tarın imkanlarını artırmaq, onu muğam **üçlüyündə deyil**, bütövlükdə muğam dünyasının şahı etmək üçün axtarışlar aparırdı. Nəhayət o, öz arzusuna çata bildi.

Sadıqcana qədər tarı bir qayda olaraq, diz üstə qoyub əyilərək çalırdılar. İstedadlı ixtiraçı bu köhnə üsulu aradan qaldıraraq, ilk dəfə tarı sinə üzərində əlində tutaraq çalmağa başladı. Əvvəllər **tarın beş simi var idi. O, tara altı sim də əlavə edib, onların sayını on birə çatdırdı. TARIN qolunda olan bir çox pərdələri ləğv edib, on yeddi pərdə saxladı.** Musiqiçilər bu yeniləşmiş tarı **«SEHİRLİ TAR», SADIQCANI isə «TARIN ATASI»** adlandırmağa başladılar.

Bununla da milli musiqi alətimiz olan tar məclislərin şahı oldu.

Sadıqcan tarzən ifaçısı olmaqla bərabər, eyni zamanda da bəstəkar idi. O, **1901-ci ildə** Şuşa şəhərində ilk dəfə təşkil olunan **«Şərq konserti»ndə iştirak etmişdir.**

**Sadıq Əsəd oğlu Sadıqcan 1902-ci ildə 56 yaşında əbədiyyətə qovuşmuşdur.**

## HACIBƏYOV ÜZEYİR ƏBDÜLHÜSEYN OĞLU

**Dahi Azərbaycan Bəstəkarı Hacıbəyov Üzeyir Əbdülhüseyn oğlu** 1885-ci il sentyabr ayının 18-də Şuşa şəhərində anadan olmuşdur.

Üzeyir Hacıbəyov **1899-cu ildə** Şuşa şəhərində **ikisinifli** rus-tatar məktəbini bitirmişdir. **1904-cü ildə** Üzeyir bəy **QORİ Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini (5 illik)** bitirmiş və müəllim işləmişdir.

Seminariya illərində Ü.Hacıbəyov başqa elm sahələrində olduğu kimi musiqi sahəsində də mükəmməl biliklərə yiyələnə bilmişdir. Belə ki, o, müasir Azərbaycan peşəkar musiqi mədəniyyətinin əsasını qoymuş və şifahi ənənəvi milli sənətlə bəstəkar yaradıcılığının sintezini yaratmaqla **ŞƏRQ** və **QƏRB** mədəniyyətinin fəal qarşılıqlı təsirinə səbəb olmuşdur.

Üzeyir Hacıbəyovun yaradıcılığında milli bəstəkar musiqisinin, demək olar ki, bütün janrlarının təməli qoulmuşdur. Bu janlarların əsasını **opera, musiqili komediya, simfonik musiqi, kantata, romans, qəzəl, kütləvi xalq mahnıları təşkil edir.**

Üzeyir Hacıbəyov **1908-ci il yanvar ayının 12-də tamaşaya qoyduğu «LEYLİ VƏ MƏCNUN» operası ilə** milli operamızın, həm də bütün müsəlman şərqində opera sənətinin, muğam-opera janrının əsasını qoydu. O, Məhəmməd Füzulinin «Leyli və Məcnun» poeması və milli xalq musiqi janrına – **muğam, mahnı, rəqslərinə müraciət etmiş,** dövrün əhval-ruhiyyəsi, xalqımızın mənəvi tələbləri ilə səsləşən səhnə əsəri yaratmışdır.

Üzeyir Hacıbəyovun başqa operaları – **«ŞEYX SƏNAN» (1909), «RÜSTƏM VƏ ZÖHRAB» (1910), «ŞAH ABBAS VƏ XURŞUDBANU» (1912), «ƏSLİ VƏ KƏRƏM» (1912), «HARUN VƏ LEYLA» (1915)** operaları da əsasən muğamlara əsaslanır.

Üzeyir Hacıbəyovun sosial-məişət mövzularında yazdığı operaların musiqisini – **«ƏR VƏ ARVAD» (1910), «O OLMASIN, BU OLSUN» (1911), «ARŞIN MAL ALAN» (1913).** Xalq mahnılarına əsaslanaraq bəstələmişdir. «Arşin mal alan» operettası dünyanın bir sıra xalqlarının dilinə tərcümə olunub nümayiş etdirilmişdir.

Y.Hacıbəyov **1918-ci il may ayının 28-də** yaranan **Azərbaycan Demokratik Respublikasının orqanı olan «AZƏRBAYCAN» qəzetinin redaktoru vəzifəsində işləmişdir. O, 1925-ci ildə yaradılan «Türk musiqi məktəbi» adlı ilk Azərbaycan musiqi məktəbini təşkil etmişdir.**

**1937-ci il aprel ayının 30-da** Azərbaycan Opera və Balet teatrında nümayiş etdirilən **«KOROĞLU»** operası dahi Üzeyir bəy yaradıcılığının zirvəsini təşkil edir. Operanın musqi dramaturgiyasının əsasını monumental xor səhnələri təşkil edir. Koroğlu xalq qəhrəmanı olmaqla yanaşı, həm sərkərdə, həm də aşıqdır. Elə ona görə də opera əsasən aşıq musiqisi üslubunda bəstələnmişdir.

Dahi Üzeyir bəyin hərtərəfli yaradıcılığı onun doğulub boya-başa çatdığı doğma **ŞUŞAMIZIN RUHUDUR.**

**ÜZEYİR bəy HACIBƏYOV 1948-ci il noyabr ayının 23-də 63 yaşında Bakı şəhərində əbədiyyətə qovuşmuşdur.**

Şuşanın musiqi həyatı sübut edir ki, bu şəhər Azərbaycanın musiqi beşiyi, konservatoriyası və paytaxtıdır.

# XXII FƏSİL
# ŞUŞADA TƏHSİL, MƏKTƏBLƏR VƏ MƏDRƏSƏLƏR

**QURANİ-KƏRİMİ** oxumaq və onun mənəvi mənalarını dərindən dərk etmək, mərasimlərdə əhali arasında geniş təbliğ edilməsi üçün təhsilə böyük ehtiyac var idi. Ona görə ki, **QURANİ-KƏRİM** insanları doğru yola aparan hidayət rəhbəri və əvəzolunmaz möcüzədir. Hər bir müsəlman Qurani-Kərimi oxumaq üçün yüksək biliyə sahib olmalı idi. Bunun üçün təhsil ön planda dayanırdı.

Şuşada təhsil məcburi idi. Məktəblər bütün məsçidlərin, mədrəsələr isə iri məsçidlərin nəzdində fəaliyyət göstərirdi. Bunlardan əlavə ayrı-ayrı məktəblər və mədrəsələr də var idi.

Şuşa qalasında tədris adətən, məktəblərdə **4-6**, mədrəsələrdə **10-15** nəfərdən ibarət olan qruplarda aparılırdı. Çox zaman şagirdlərin sayı qruplarda **20-30 nəfərə çatırdı.** Ev təhsili də geniş yayılmışdır. İmkanlı adamların öz evlərində təşkil etdikləri məktəblərdə **mürəbbi**[1] müəllimlər dərs deyirdilər. **Ağabəyim ağa, Gövhər ağa, Xurşudbanu Natəvan** və başqaları da ev təhsili almışlar. Mürəbbi müəllimlər geniş dünya görüşünə və biliyə malik idilər. Belə müəllimlər bəzən xarici ölkələrdən də gətirilirdilər.

Məktəblər qalada savadlı **mollaların, mədrəsələr**[2] **isə** dini təşkilatların sərəncamında fəaliyyət göstərirdilər.

---

[1] **Mürəbbi – tərbiyəçi müəllim deməkdir.**
[2] **Mədrəsə – dini elmlər məktəbidir.**

Bir qayda olaraq təhsil müəssisələrində dərslər **ƏRƏB ƏLİFBASININ** öyrədilməsindən və **QURANİ-KƏRİMİN** əzbər mənimsənilməsindən başlanırdı. İlk kitabça mollaxanalarda Qurani-Kərimin kiçik **surələrinin toplusu olan ÇƏRƏKƏ**[1] **idi.** Qurani-Kərimi əzbər öyrənənə **HAFİZ**[2] deyirdilər.

Şuşa mollaxanalarında, mədrəsələrində və digər məktəblərində Qurani-Kərim öyrədildikdən sonra **fars, ərəb dillərinin, müsəlman hüququnun, İslam tarixinin fəlsəfəsinin, hesabın, astronomiyanın, öyrənilməsinə başlanırdı.** Şagirdlər bu deyilənləri mükəmməl mənimsədikdən sonra məktəbi qurtarırdılar. Onlar təhsillərini davam etdirmək üçün **ŞAMAXI, GƏNCƏ, TƏBRİZ və BAĞDAD şəhərlərində fəaliyyət göstərən mədrəsələrə qəbul olunurdular. ŞUŞADA və BƏRDƏ imamzadəsinin nəzdində də belə məktəblər var idi.**

Məktəb nizamnaməsinin tələblərinə riayyət etməyən şagirdlər ciddi cəzalandırılırdılar. Şagirdlərin vaxtlarının çoxu məktəblərdə keçirdi. Onlar məktəbə yemək aparırdılar. Payız və qış aylarında tədris otaqları müxtəlif üsullarla qızdırılırdı.

Şagirdlər hərtərəfli biliyə malik olmaları üçün müəllimlərə suallarla müraciət edərdilər. Bu sahədə müəllimlərin köməkçiləri olan xəlifələrə də suallar verilər və cavablar alınardı. Hər bir şagird gözəl xətlə yazmağı bacarmalı idi. Təhsil dini bayramlar zamanı bir günlüyə dayandırılırdı.

---

[1] **Dörddə bir mənasını bildirən və Qurani-Kərimin kiçik surələrini özündə ehtiva edən ÇƏRƏKƏ indi də geniş yayılmışdır.**

[2] **Hafiz – Qurani-Kərimi əzbər bilən adama deyilir.**

**NOVRUZ BAYRAMI** günlərində isə şagirdlər **3-4 gün** istirahət edirdilər. Həftənin cümə günləri istirahət günləri idi. Şuşa şəhərində bu tipli məktəblərdən biri **Yuxarı Gövhər**[1] **ağa məsçidinin nəzdində idi.**

**Azərbaycanın məktəb və mədrəsələri XIX əsrdə A.A.Bakıxanov, Mirzə Kazım bəy, M.F.Axundov, M.M.Nəvvab, Məhəmməd ağa Şahtaxtinski, M.Ş. Vazeh** və yüzlərlə böyük şəxsiyyətlər yetişdirmişdir.

**XIX əsrin əvvəllərində** Şuşa şəhərində yeni tipli məktəblər təşkil olundu. Bu tipli məktəblər həm dövlət, həm də imkanlı şəxslər tərəfindən yaradılırdı.

**1830-cu ildə Şuşada yeni tipli qəza məktəbi təsis olundu.** Şagirdlər həmin məktəbdə Azərbaycan, fars, rus dillərini, hesabı, coğrafiyanı, tarixi, rəsmxətti, şəriəti öyrənirdilər. Məktəb şagirdlərə yalnız ibtidai təhsil verirdi. **1848-ci ildə** həmin məktəb qəza məktəbinə, **1874-cü ildə** şəhər məktəbinə çevrildi.

**1845-ci il məlumatına görə Şuşa qəza məktəbinin kitabxanasında 301 adda müxtəlif kitab, dərslik və digər tədris ləvazimatları var idi.**

**1883-cü ildə SƏFƏRƏLİ BƏY VƏLİBƏYOV** Azərbaycan dilində təlim verən məktəb təsis etmişdir. **1895-ci ildə isə Hüseynəli bəy Rüstəmbəyov da Şuşada xüsusi məktəb açmış, lakin məktəb bir il fəaliyyət göstərmişdir.**

**1861-ci ildən** başlayaraq Şuşada fəaliyyət göstərən **realnı**[2] məktəbi açıldı. Məktəbdə təlim rus dilində aparılırdı.

---

[1] **Gövhər – inci, cavahir, daş-qaş, tayı olmayan inci mənalarını bildirir.**

[2] **Realni məktbəi təcrübi, fəal təlim verən məktəb idi.**

Onu da qeyd edim ki, məktəbdə əcnəbi dillərin tədrisinə və öyrədilməsinə xüsusi fikir verilirdi. Şagirdlər **Azərbaycan, alman və fransız dillərini öyrənirdilər.** Məktəbin tədris proqramına əsasən **riyaziyyat, fizika, təbiətşünaslıq, rəsm, rəsmxət** fənləri də tədris olunurdu. Məktəbin şagirdləri digərlərindən fərqlənmək üçün xüsusi məktəbli forması geyirdilər.

**1896-cı ildə Şuşanın xeyriyyə cəmiyyətlərinin vəsaiti hesabına rus-tatar** məktəbləri açıldı. Məktəblər əvvəlcə xan qızı **Xurşudbanu Natəvanın** və Bəhmən Mirzənin oğlu **Fətəli Mirzə Qacarın** evlərinin nəzdində fəaliyyətə başladılar. Məktəbin bütün xərclərini azərbaycanlı varlılar öz öhdələrinə götürmüşdülər. Məktəbin direktoru **Haşım bəy Vəzirov** təyin edilmişdir. Şuşa **Xeyriyyə Cəmiyyətinin** müraciəti ilə məktəb dövlət təhsil hüququ adını almışdır.

**Şuşalılar** – **Zülfüqar bəy hacıbəyov, Üzeyir bəy Hacıbəyov, Yusif Vəzir Çəmənzəminli, bu sətirlərin müəllifinə dərs deyən Mirzə Xosrov Axundov, Əhməd bəy Vəlibəyli, Cəmil bəy Vəzirov, Hidayət Tarverdiyev, Ədil bəy Mehmandarov və başqaları Şuşa realnı məktəbinin müdavimləri idilər.**

**1897-ci ildə** Şuşada ilk şəhər kitabxanası açıldı. Bu şəhərin mədəni həyatında böyük hadisə idi. Kitaxananın açılmasında xan qızı Xurşudbanu Natəvanın oğlu **MEHDİQULU xan və şuşalı ziyalı, həkim ƏBDÜLKƏRİM MEHMANDAROV fəal iştirak etmişdilər.**

**1918-ci ildə Zaqafqaziya Müləlimlər Seminariyasının Azərbaycan şöbəsi Gürcüstanın Qori şəhərindən Azər-**

**baycanın QAZAX şəhərinə köçürüldü. Bu köçürülmənin təşkilatçısı FİRİDUN bəy KÖÇƏRLİ idi. O, Qazax Müəllimlər Seminariyasının ilk direktoru oldu.**

**XX əsrin ikinci yarısında Şuşa şəhər məktəblərində ictimaiyyətin, şagird və tələbə heyyətlərinin dərin hörmətini qazanan, öz fənnini dərindən bilən və pedaqoji işin incəliklərinə yiyələnən pedaqoji kollektiv formalaşmışdır. Onlardan Mirzə Xosrov Axundov (müləlimlər müəllimi), Ağa Kazımov, Keyman Bəhmənov, Mərdan Əliyev, Tofiq Əliyev, Rüstəm Zeyalov, filologiya üzrə fəlsəfə doktoru Namiq Babayev, Həbib Allahverdiyev, Yaqub Quliyev, Tovuz Abbasova, Diliş Mehdiyeva, Firuzə Əlişova, Ağca Axundova, Fərəzəndə Əşrəfova, Aliyə Hacıyeva, Zahid Cəfərov, Yelmar Nəsirov, Maya Əliyeva, Tariyel Kazımov, Əvəz Məmmədov, Saleh Heydərov, Rəsul İsmayılov, Tamella Kazımova, Elmira Ələkbərova, Məlahət Babayeva, Esmira İsmayılova, Almaz Kərimova və başqaları indi də xatirələrdə hörmətlə yad edilirlər.**

# XXIII FƏSİL
# QARABAĞ XANLIĞININ KİTABXANASI

**XVIII əsrdə Azərbaycanda, o cümlədən də Qarabağda şəxsi kitabxanalar var idi.** Bu kitabxanalar içərisində Qarabağ xanlığının banisi **PƏNAHƏLİ XANIN şəxsi kitabxanası xüsusilə fərqlənirdi.** Pənahəli xanın **və onun oğlu İBRAHİMXƏLİL xanın** hakimiyyətləri dövründə Qarabağda və xüsusilə, xanlığın mərkəzi şəhəri **ŞUŞADA** böyük quruculuq və abadlıq işləri aparılırdı. Şuşa şəhərində tarixi dünyəvi və dini abidələr inşa olunurdu. Sosial obyektlərin şəbəkəsi genişlənirdi. Pənahəli xan saray əyyanlarının və Qarabağ xanlığına gələn hörmətli qonaqların istifadə edə biləcəkləri **ŞƏRQ** memarlığı üslubunda möhtəşəm bir **KİTABXANA** binası inşa etdirmişdir. Kitabxananın kitab **EHTİYATI**, əsasən Qarabağın **məsçid və mədrəsələrində** toplanmış və üzü köçürülmüş qiymətli əlyazmalar ilə zəngin idi.

İbrahimxəlil xanın hakimiyyəti **(1763-1806)** dövründə kitabxananın kitab ehtiyatı daha da zənginləşdirilmişdir. Tarixi məlumatlara görə **İtaliyanın VENESİYA şəhərindən** kitabxanaya nadir kitablar da gətirilmişdir.

İbrahimxəlil xanın vəziri **MOLLA PƏNAH VAQİF** də həmin kitabxanadan səmərəli istifadə etmişdir. Eyni zamanda M.P.Vaqif üzünü köçürdüyü və topladığı kitablardan, özünün şəxsi kitabxanasını da yaratmışdır. **1859-cu ildə Şuşa şəhərində daha bir kitabxana açılmışdır.** Şuşa şəhərində açılan yeni tipli məktəblərdə də kitabxanalar var idi.

# XXIV FƏSİL
# HAY ÜNSÜRLƏRİNİN QARABAĞA KÖÇÜRÜLMƏSİ

**Birinci (1804-1813)** və **ikinci (1826-1828) rus-Qacar** müharibələri Azərbaycan uğrunda aparılan işğalçı və qarətçi müharibələr həm Rusiyanın, həm də Qacarlar dövlətlərinin tarixinə qara ləkə kimi həkk olunmuşdur.

Rusiya imperiyasının hakim dairələri Azərbaycan ərazisində xristianlardan ibarət qondarma qurum yaratmaq siyasəti yeridirdilər. Bu mənfur siyasətin qarşısında dayanan əsas məsələ, Qacarlar məmləkətindən qovulan **40 min hay ailəsinin Azərbaycan ərazilərində yerləşdirilməsi idi.** Rusiyanın əsas məqsədi Azərbaycanda möhkəmlənməkdən və özünə sədaqətli dayaq təmin etməkdən ibarət idi.

Torpağı, vətəni, paytaxt şəhəri, dövlətçilik ənənələri, mədəniyyəti, şifahi və yazılı folkloru olmayan, başqa dövlətlərin ərazilərində sığınacaq tapan haylara sahib durmaq lazım idi. Bu sahibkar Rusiya imperiyası oldu.

Qacarlarla Rusiya arasında aparılan müharibələr zamanı haylar ruslara Qacar ordusunun hərbi planları haqqında məlumatlar vermiş və Qacar ordusunun ağır məğlubiyyətlərinə şərait yaratmışdılar. Bu səbəbdən də bu **hamarlar** istədiklərinə nail ola bilmişlər. Yəni Azərbaycanın **Qarabağ, Naxçıvan bölgələrinə və xüsusilə də İrəvan xanlığı ərazisinə kütləvi halda ayaq aça bilmişdilər.**

Eyni vəziyyət **1829-cu il Ədirnə sülhündən sonra da baş vermişdir.** Bu sülh müqaviləsindən sonra Osmanlı Türkiyəsindən Cənubi Zaqafqaziya **200 mindən çox hay gətirildi.**

Bu **hirrələrin** xeyli hissəsi yenə də yuxarıda göstərilən ərazilərimizdə qeyri-qanunu olaraq yerləşdirildilər.

Halbuki hayların yerləşdirilməsi üçün Rusiya imperiyasında istənilən qədər istifadə olunmayan torpaq ərazisi var idi. Rsiyanın hakim dairələri haylara yaxşı bələd olduqları üçün, bu ünsürləri öz torpaqlarına buraxmırdılar.

Məsələn, **A.S.QRIBOYEDOV** rus imperatoruna yazırdı:

**«Əlahəzrət, olmaya mərkəzi rus torpaqlarında ermənilərin məskunlaşmasına icazə verəsiniz. Onlar elə tayfadırlar ki, bir neçə on il yaşadıqdan sonra dünyaya hay-küy salacaqlar ki, bura bizim qədim ata-baba torpaqlarımızdır».**

Ağa Məhəmməd şah Qacarın Qarabağa hərbi yürüşləri, Rus-Qacar müharibələri Qarabağda əhalinin sosial və say tərkibinə böyük təsir göstərmişdir. Yerli azərbaycanlılar öz həyatlarını və ailə üzvlərini ölümdən qurtarmaq üçün Cənubi Azərbaycana və Orta Asiya ərazilərinə köç etməyə məcbur olurdular. Bu səbəblərə görə də Qarabağda azərbaycanlı əhalinin sayı azalırdı.

Hayların Zaqafqaziyaya köçürülmələrindən bəhs edən **N.N.Şavrov yazırdı:**

**«Zaqafqaziyada yaşayan 1 milyon 300 min nəfər erməninin çoxu yerli deyildi. Onları vilayətə biz köçürmüşük».**

**1810-cu ildə** rus hərbiçilərinin verdikləri rəsmi məlumatlarda qeyd olunur ki, **«Mehrinin və Güney qəzası əhalisinin böyük əksəriyyəti Araz çayının o tayındadır. İmkan düşərsə, Mehri və Güney əhalisini, Xarvan, Kələvi, Düzəli çayları yaxınlığında yerləşən Qarabağ kəndlilərini, Əbülfət ağanın yanına qaçmış qarabağlıları da bu taya köçürmək lazımdır?»**

**1806-1812-ci illər** ərzində Qarabağ xanlığı ərazisindən didərgin düşən və Qacarlar ordusu tərəfindən Araz çayından cənuba aparılan əhalinin sayı həddindən artıq çoxdur. Qarabağ xanlığının ərazisindən **2628 ailə öz ata-baba torpağından, isti ocağından didərgin düşmüşdür.** Qacarlar məmləkətinə aparılan ailələrin ümumi sayı **13140 nəfər idi.**

Ümumiyyətlə Qacarlar məmləkətinə Qarabağ xanlığı ərazisindən aparılan ailələrin sayı **2217,** onların say tərkibi isə **11085 nəfər olmuşdur.**

**1812-ci ildə** Qarabağ ərazisini **4885 nəfər** tərk etmişdir. Rus hərb tarixçisi **N.DUBROVUN** yazdığı kimi bu dövrdə Şuşa şəhəri ətrafında gedən döyüşlərdən sonra, bir gecə ərzində **20 min adam Qacarlar məmləkətinə getmişdir.** Onların arasında xan nəslinin nümayəndələri də var idi.

**XIX əsrin** əvvəllərində Qarabağ xanlığı ərazisində baş verən hərbi-siyasi münaqişələrin nəticəsində buradan Şirvan əyalətinə **1500 ailə köç edərək, burada 8 yeni kənd salınmışdır.**

Aparılan müharibələr nəticəsində Qarabağ xanlığının ərazisi adamsız qalmışdır. Kəndlər xarabazara çevrilmişdir. Əkin sahələrində taxıl əkilmir və sahələri alaq otları basmışdır. Təsərrüfatı bərpa etmək üçün qaçqın əhalini geri – ata-baba torpaqlarına qaytarmaq lazım idi.

**1813-cü ildə Qacarlar məmləkətindən 811** ailə və **Gülüstan sülhündən (1813) sonra isə 4000 qarabağlı ailəsi öz vətəninə qayıtdı.**

**1823-cü ilə aid olan kameral təsvirdə göstərilir ki, Qarabağ əyalətində yaşayan 20095 ailənin 15729-u (78,3%) azərbaycanlı, 4366 ailə isə (21,7%) qeyri millətlərin nümayəndələri idilər.**

**1829-cu il dekabr ayının 24-də general Lazarev Paskeviçə yazdığı məktubunda qeyd edirdi ki, ermənilərin (hayların) İrandan (Qacarlar məmləkətindən)** köçürülməsi işlərinə **1828-ci il fevral ayının 26-dan başlanmışdır.** Səylərimiz nəticəsində bu iş **1828-ci il iyun ayının 11-də uğurla başa çatdırılmışdır.**

Bu müddət ərzində Qacarlar məmləkətindən **8149** erməni ailəsi, bunlardan əlavə **100** aysor ailəsi də **İRƏVAN, NAXÇIVAN** və **QARABAĞ** əyalətlərinə köçürülmüşdü. Köçürülmələr nəticəsində torpaqlarımızda hayların sayı qismən artmağa başlamışdır.

İrəvan xanlığının ərazisi Azərbaycan torpaqlarıdır. Bunu hay başbilənləri də təsdiq edirlər.

Hay tarixçi alimi Zaven Korkodyan özünün **«1831-1931-ci illərdə Sovet Ermənistanın əhalisi»** adlı əsərində yazır:

**«1883-cü ildə İrəvan şəhərinin əhalisi 18.755 nəfər idi. Onların 15.992 nəfəri azərbaycanlı idi. 1886-cı ildə İrəvan şəhərində 27.246 nəfər əhali yaşayırdı. Onların 23.626 nəfəri azərbaycanlı idi.** Deməli, İrəvanda **1886-cı ildə** yaşayan əhalinin **86%-nə qədərini azərbaycanlılar təşkil edirdi».**

**1828-1830-cu illərdə Qarabağın ərazisində və Göyçə gölü sahillərində 125 min hay yerləşdirilmişdir.** Qeyri-qanuni köçürülənləri də nəzərə alsaq, onların sayı **200 min nəfərə çatar.**

Rusiya imperiyası **1828-ci il fevral ayının 21-də «İRƏVAN VİLAYƏTİ» və 1849-cu ildə «İRƏVAN QUBERNİYASI» yaradılmaları haqqında fərman verdi.** Bu fərmanlar Azərbaycanın tarixi etnik torpaqlarına gətirilib yerləşdirilən haylara rusiyaya göstərdikləri **«xidmətlərə»** verilən hədiyyə idi. Beləliklə, Rusiya hayların hesabına özünə siyasi

dayaq yaratmağa və Cənubi Qafqazda mənfur maraqlarını həyata keçirməyə nail oldu.

Rusiya Qacarlar və Rusiya Osmanlı Türkiyəsi müharibələri dövrlərində haylar «böyük qardaşlarından» mükafatlarını ala bildilər.

**1822-ci ildə Qarabağ xanlığı Rusiya tərəfindən ləğv edildikdən sonra, burada rus müstəmləkə zülmü gücləndi.** Zorakı, kobud müstəmləkə zülmündən yaxa qurtarmaq üçün yerli azərbaycanlılar qonşu dövlətlərin ərazilərinə sığınmağa məcbur olurdular. Bu vəziyyət Qarabağda, yuxarıda dediyimiz kimi əhalinin etnik tərkibinə də təsir göstərirdi. Gəlmə hayların hesabına Qarabağda hayların sayı artırdı.

Zaman keçdikcə Qarabağda Azərbaycanlıların yaşadıqları kəndlərin adları dəyişdirilir və hay adları ilə əvəz olunurdu. Bu hal Sovet hakimiyyəti dövründə də müntəzəm olaraq davam etdirilirdi. **1923-cü ildə Xankəndi** xalqımızın ən qəddar düşməni olan daşnak S.Şaumyanın şərəfinə **Stepanakert, İrəvan şəhərinin Erivan,** Azərbaycan kəndi **Küznüt Martuni, Ağdərə Mardakert, Marağa kəndi Marquşavan, Muxtar kənd Muxətər və sair,** qondarma adları göstərmək olar. **Martuni və Hadrut rayonları** Azərbaycan dövləti tərəfindən **birləşdirilib Xocavənd rayonu yaradılmışdır.**

Azərbaycanın coğrafiyası haqqında qədim dövrlərin qaynaq və mənbələrində haylar haqqında istənilən qədər məlumatlar var. Bu məlamatlar sübut edir ki, hay ünsürləri Cənubi Qafqaza **DƏCLƏ VƏ FƏRAT** çaylarının sahillərində yerləşən cəngəllik və bataqlıq ərazilərdən gəlmişdilər. Öz yazısı, dili, dini, şifahi yazılı folkloru olmayan bu tayfa,

yer üzərində, xüsusilə bizə qonşu ərazilərə və bizim tarixi etnik torpaqlarımıza gətirilib yerləşdirilmişlər. Tarixən bu **Fratriya tayfa** Səyyar həyat tərzi keçirmiş, dağlıq ərazilərə sığınaraq öz varlıqlarını qoruyub saxlaya bilmişdilər.

Qarabağ birdir. Onun dağları da, meşələri də, dərələri də, ormanları da, çəmənləri də Azərbaycan xalqına məxsusdur.

Haylar **107 ildir ki,** tarixdə heç vaxt olmayan saxta **hay soyqırımından** it sümükdən yapışan kimi yapışmışlar. Bu fırıldaqçıların özləri də yaxşı bilirlər ki, tarixdə hay soyqırımı olmayıb. **1915-ci il aprel ayının 24-də** Osmanlı Türkiyəsinin ərazisində **1,5 milyona qədər hay ünsürü yaşayırdı.** Onlar yaşadıqları ölkəyə və bu ölkənin dövlətinə xəyanət edərək **Birinci Dünya müharibəsində Rusiya imperiyasının xeyrinə, Türkiyənin 6 vilayətində qiyam qaldırdılar.**

Türkiyə dövləti hayların xəyanətinə cavab olaraq cəbhə xəttində yaşayan hayları ölkənin başqa ərazilərinə köçürülmələri haqqında göstəriş verdi. Lakin haylar bu tədbirə əməl etmədilər. Onlar Türkiyəni tərk etmək istədiklərini bildirdilər.

**Osmanlı Türkiyəsində yaşayan 1,5 milyon hayların 400 min nəfəri İslam dinini qəbul etmişdir. 400 min nəfəri qonşu ölkələrə getmiş, 300 min nəfəri İngiltərəyə, Fransaya, ABŞ-a və 200 min nəfrəi isə Rusiya ərazisinə köçmüşdülər.** Yerdə qalan **200 min hay isə Livana, Suriya ərazisinə sığınmışdılar. Hayların göz yaşı tökdükləri soyqırımının nəticəsi budur.**

**Başqa ölkərə gedərkən yerli xalqların əçlakını talan etdiklərinə görə, onlar məhv edilmişdilər.**

# XXV FƏSİL
# HAYLARIN AZƏRBAYCAN RESPUBLİKASINA QARŞI HƏRBİ TƏCAVÜZÜ VƏ ŞUŞA ŞƏHƏRİNİN İŞĞAL EDİLMƏSİ. BU İŞĞALIN SON NƏTİCƏLƏRİ

**Bildiyimiz kimi haylar XX əsrdə bir neçə dəfə Azərbaycanın keçmiş «Dağlıq Qarabağ» ərazisini ələ keçirməyə cəhd göstərmişlər. Lakin onların bu riyakar niyyətləri baş tutmamışdır.**

**1967-ci il oktyabr ayının 21-də Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin Birinci Müavini HEYDƏR ƏLİYEV Sov.İKP MK plenumunda vəzifəsindən istefa verdikdən sonra,** haylar yenidən DQ məsələsini qaldırdılar. Ona görə ki, ölkə rəhbərliyi, M.S.Qorbaçov başda olmaqla hayları müdafiə etməyə başladılar. Bu sahədə Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri, qatı millətçi A.Aqanbeqyanın **Fransanın mərkəzi şəhəri Parisdə «İnterkontinental»** hotelində **«HUMANİTE» («BƏŞƏRİYYƏT»)** qəzetinin müxbirinə verdiyi saxta müsahibəsində keçmiş Dağlıq Qarabağ ərazisinin qeyri-qanuni dövlət olan Hayıstana birləşdirilməsi ideyasını irəli sürdü. Onun bu bəyanatı hayların DQ uğrunda iddialarına təkan verdi. Bəyantda əsl məqsəd iqtisadi maraqlarla pərdələnirdi. Eyni zamanda o, bildirdi ki, bu məsələ üzərində xüsusi dövlət komissiyası işləyir.

Əsas məqsəd Azərbaycanın ərazisini yenidən ələ keçirmək idi. Sovet rəhbərliyi başa düşmürdü ki, hər bir ölkənin dağı, dərəsi, təpəsi, enişi, yoxuşu, meşəsi, ormanı, çəməni

var. Keçmiş Sovet rəhbərliyi tərəfindən açıq surətdə müdafiə olunan haylar, Azərbaycan Respublikasına qarşı silahlı mübarizəyə başladılar.

Hay quldur silahlı qüvvələri, başqa dövlətlərin fəal köməyi ilə **1992-ci ilin may ayının sonuna kimi Azərbaycan Respublikasının DQ vilayətinin yuxarı ərazilərini, 1993-cü ilin oktyabr ayının sonuna kimi 7 rayonunu və yaşayış məntəqələrini müvəqqəti olaraq işğal etdilər.**

Beləliklə, hay quldur silahlıları havadarlarının köməyi ilə ərazimizin **20 faizini** müvəqqəti olaraq ələ keçirdilər. Həmin ərazilərdə quldurlar tarixi abidələri, sənaye müəssisələrini, məktəbləri dağıtdılar, bir sözlə qanlı cinayətlər törətdilər. Azərbaycanın **flora və faunasına ağır zərbə vurdular... On minlərlə soydaşlarımız düşmənə qarşı döyüşlərdə, vətən uğrunda canlarını qurban verdilər.** Bu döyüşlərdə ölkəmizdə yaşayan bütün millətlərin nümayəndələri də var. Onlar vətənləri olan Azərbaycanı sinələri ilə müdafiə edirdilər.

**1992-ci il may ayının 8-də hay silahlı** qüvvələri, **Xankəndində yerləşən keçmiş sovet ordusunun 366 alayının fəal köməyi ilə ŞUŞA şəhərini müvəqqəti olaraq işğal etdilər.**

Şuşanın işğalı nəticəsində rayonun **25 məktəbi, 31 dövlət və məktəb kitabxanaları, 17 klubu, 8 mədəniyyət evi, 3 texnikumu, 2 institut filialı, 7 uşaq baxçası, 4 kinoteatrı, 5 mədəniyyət və istirahət parkı, 2 sağlamlıq müəssisəsi, 1 turist bazası, 1 mehmanxana, 1 xalça muzeyi, 1 Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziya binası, Şərq Musiqi Alətləri fabriki, 1 Dövlət Rəsm Qalereyası və 1**

**Uşaq sağlamlıq məktəbi qarət edilmiş və binaları dağıdılmışdır.**

Bunlardan əlavə Şuşada görkəmli adamların, Xan sarayı talan edilmiş və yandırılmışdır.

Hay ünsürləri qeyri qanuni olaraq Hayıstandan Qarabağa gəlir, Şuşa şəhərində kef məclisləri qurur, sərxoş halda Cıdır düzündə şıllaq ataraq oynayır, hərbi xuntanın parlament binasını tikməyi və başqa ləyaqətsiz əməlləri ilə xalqımızı təhqir edirdilər.

Başabəla hay baş naziri N.Paşinyan sərxoş olaraq Qarabağ Hayastandır deməklə hay quldurlarını ruhlandırırdı. Bu ünsür başa düşmürdü ki, onlardan qisasımız tezliklə alınacaq və hay silahlı ünsürləri məhv ediləcəkdir.

Artıq son illərdə münaqişənin sülh yolu ilə həlli özünün siyasi əhəmiyyətini tamamilə itirmişdir. ATƏT-in Minsk qrupu öz vəzifəsini qəsdən yerinə yetirmirdi. Onlar hayların əlində oyuncağa çevrilmişdilər. Məqsədləri münaqişəni dondurmaq idi. Lakin bu mümkün olan məsələ deyildir.

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı Cənab İLHAM ƏLİYEVİN rəhbərliyi altında Azərbaycan iqtisadiyyatı, ordusu günü-gündən inkişaf edir və möhkəmlənirdi.** Hay quldurlarının ölüm günləri yaxınlaşırdı. Hay mifinə, onun quldur silahlı qüvvələrinə son qoymaq lazım idi. Artıq çıxış yolu hərbi yol oldu. Minsk qrupunun bu yolun qeyri-mümkünlüyü barədə **30 ilə qədər tutduğu niyyətə də son qoymaq vaxtı gəlib çatmışdır.**

**Cənab Prezident İLHAM ƏLİYEV** həmişə deyirdi ki, **«Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin**

**ərazisi kimi eyni dəyərə malikdir».** Eyni zamanda Cənab Prezident İlham Əliyev müntəzəm olaraq öz çıxışlarında qətiyyətlə bildirirdi ki, **Azərbaycan ərazisində** ikinci erməni dövlətinin yaradılması yolverilməzdir. Azərbaycanın müvəqqəti olaraq işğal edilmiş əraziləri düşməndən tamamilə azad ediləcək və vətəndaşlarımız öz ata-baba yurdlarına qayıdacaqlar. Dahiyanə deyilmiş bu sözlər **haqq və ədalətin təntənəsi demək idi.**

**2020-ci il SENTYABR AYININ 27-i AZƏRBAYCAN RESPUBLİKASININ VƏ ONUN BÜTÜN VƏTƏNDAŞLARININ ŞANLI TARİXİ OLDU. HƏMİN GÜN AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, SİLAHLI QÜVVƏLƏRİMİZİN ALİ BAŞ KOMANDANI CƏNAB İLHAM ƏLİYEVİN ƏMRİ İLƏ MÜZƏFFƏR AZƏRBAYCAN ORDUSU ZƏFƏR MÜHARİBƏSİNƏ, HAQQ VƏ ƏDALƏT MÜHARİBƏSİNƏ BAŞLADI. ORDUMUZUN HÜCUMUNUN QARŞISINI HEÇ BİR SİYASİ QÜVVƏ DAYANDIRA BİLMƏDİ.**

Müzəffər Azərbaycan Ordusu Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında **44 günlük VƏTƏN** müharibəsində misli-bərabəri olmayan qələbələr qazanaraq **5 şəfər, 4 şəhər tipli qəsəbə və 286 kəndi** faşist haylardan azad etdi. Cəbrayıl şəhəri və raonun **90 kəndi,** Füzuli şəhəri və rayonun **53 kəndi**, Zəngilan şəhəri və rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və **52 kəndi**, Xocavənd rayonunun Hadrut qəsəbəsi və **35 kəndi,** Tərtər rayonunun **3 kəndi**, Qubadlı şəhəri və rayonun **41 kəndi,** Xocalı rayonu-

nun **9 kəndi,** Şuşa şəhəri və rayonun **1 kəndi,** Laçın rayonunun **3 kəndi,** Ağdərə və Murovdağ istiqamətlərində **bir neçə** hərbi əhəmiyyətli yüksəklikləri, Zəngilan rayonunda isə Bartaz, Sığırt, Şükürataz yüksəklikləri və daha **5** adsız yüksəklik faşist haylardan təmizləndi.

**Azərbaycanın mədəniyyət beşiyi olan Şuşa şəhəri 2020-ci il noyabr ayının 8-də faşist halardan tamamilə təmizləndi. Bu əfsanəvi döyüşlərin nəticəsi idi.**

Beləliklə, **28 İL 6 AYDAN SONRA ŞUŞA ÖZ SAHİBLƏRİNƏ QAYTARILDI.**

Hay faşistlərinin günəşi **Cocuq Mərcanlıda söndürülmüşdü. Bu ünsürlərin bel sütunu ŞUŞA döyüşlərində sındırıldı.**

Şuşa şəhərinin hay quldurlarından azad edilməsi Hayıstan üzərində tam və qəti qələbə demək idi.

**2020-ci il NOYABR AYININ 10-da AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, SİLAHLI QÜVVƏLƏRİMİZİN ALİ BAŞ KOMANDANI CƏNAB İLHAM ƏLİYEV,** Rusiya Federasiyasının Prezidenti V.V.Putin və Hayıstanın baş naziri arasında imzalanan Bəyanata görə hərbi əməliyyatlar dayandırıldı və düşmən kapitulyasiya aktını imzaladı. Düşmən artıq dərk etdi ki, müqavimət göstərməyin heç bir xeyri yoxdur. Şuşa qələbəsi Hayıstanın və onun quldur silahlı qüvvələri üzərində tam qələbə demək idi. Bu qələbədən sonra düşmən **Ağdam, Kəlbəcər və Laçın** rayonlarından bir güllə atılmadan silahlı quldurlarını çıxartdı. Bundan əlavə düşmən **ZƏNGƏZURDAN NAXÇIVANA** dəhliz açacağını öz öhdəsinə götürdü.

Azərbaycan Ordusu hay ordusunu döyüş meydanlarında tamamilə məhv etdi. **44 günlük zəfər müharibəsində düşmənin 7 minə qədər** əsgər və zabiti öldürüldü. **11 minə qədər hay silahlı ünsürləri müxtəlif dərəcələrdə yaralandı və 10 mindən çox əsgəri** fərarəlik etdi. Döyüşün ilk günlərindən düşmən mənəvi cəhətdən iflasa uğradı. Şanlı ordumuzun zərbələrinə tab gətirə bilmədi. İndi fəxrlə deyə bilərik ki, Hayıstan ordusu yoxdur. **44 günlük ZƏFƏR müharibəsinin gedişində düşmən 1 milyard ABŞ dolları həcmində** müxtəlif növ hərbi texnika itirdi. Düşməni tam məhv etməkdən yenə Rusiya xilas etdi. Münaqişə sahəsinə Rusiyanın sülhməramlıları yerləşdirildi. Bu müvvəqqətidir.

Şuşa əməliyyatı fövqəladə xarakter daşıyır. Müasir hərbi texnikanın ən yeni silahları ilə silahlanan hay ordusunu, qəhrəman əsgərlərimiz **Dəmir yumruqla məhv etdilər.** Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı, **Cənab İLHAM ƏLİYEV demişdir:**

**ŞUŞANIN işğaldan aad edilməsi bizim gücümüzü göstərdi. Ordumuzun peşəkarlığını, hərbiçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaqdır. Çünki bu əməliyyatı yalnız yüngül silahlarla silahlanmış bizim qəhrəman hərbiçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək icra ediblər.**

**ŞUŞANIN işğaldan azad edilməsi bizim ŞANLI QƏLƏBƏMİZDİR.**

**Müzəffər Ali Baş Komandan daha sonra deyir:**

**«Bu gün bir çox ölkələrdə, inkişaf etmiş ölkələrdə bizim təcrübəmiz öyrənilir. Bu gün bu məsələ ilə məşğul olan bir çox mütəxəssislər qeyd edirlər ki, Azərbaycan XXI əsrin müharibəsini aparıb.**

**XXI əsrdə ilk dəfə olaraq, bu miqyasda və bu səmərə ilə qısa müddət ərzində tarixi nailiyyətlər əldə edilib».**

Peşəkarlıq, qəhrəmanlıq, planlaşdırma, güclü iradə, milli ruh, texniki təchizat – bütün amillər birlikdə və xalq – iqtidar birliyi bizim **QƏLƏBİMİZİ ŞƏRTLƏNDİRDİ.**

Təəssüflə deməliyik ki, müharibə qansız-qadasız olmur. **44 günlük Vətən** müharibəsi günlərində **Azərbaycan Ordusu 2980 nəfər itgi verdi, 5 nəfər isə itgin düşdü.**

Yuxarıda qeyd etdiyimiz kimi düşmənin itgiləri o qədər çox olmuşdur ki, müharibənin son günlərində o ordusuz qalmışdır. Hayların «alınmaz» hesab etdikləri müdafiə xətləri bir-birinin ardınca ələ keçirildi. Kiçik qruplarla düşmən içərisinə girən qəhrəman əsgərlərimiz, sayca üstün olan düşmən qüvvələrini məhv edərək, bu ünsürləri torpaqlarımızdan qovub çıxartdı.

**44 günlük ZƏFƏR** müharibəsində dilindən, dinindən asılı olmayaraq bütün Azərbaycan vətəndaşları yağı düşmənə qarşı bir yumruq kimi birləşdi. Döyüşlərin ilk günlərindən Azərbvaycanda yaşayan bütün xalqların nümayəndələri doğma vətənlərinin müdafiəsinə qalxdılar. Bu birlik qələbəmizin əsas mənbələrindən biri idi. Döyüş meydanlarında əsgərlərimiz misli-bərabəri olmayan qəhrəmanlıq göstərdilər.

**İkinci Qarabağ müharibəsi iqtidar-xalq və ordu birliyini bütün dünyaya nümayiş etdirdi. QARABAĞ**

**AZƏRBAYCANDIR VƏ NİDA İŞARƏSİ!**

**44 GÜNLÜK ZƏFƏR müharibəsində əldə etdiyimiz hərbi qələbələrlə yanaşı Şuşa şəhərinin də yağı düşməndən azad edilməsinin böyük əhəmiyyəti var.** Şuşa şəhəri Qarabağımızın dünyada əvəzolunmaz incisidir. Bu barədə yuxarıda daha ətraflı söhbət açmışıq.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı **Cənab İLHAM ƏLİYEV 2021-ci il may ayının 7-də verdiyi sərəncamla ŞUŞA ŞƏHƏRİ Azərbaycanın Mədəniyyət Mərkəzi elan edilmişdir.**

Bu tarixi sərəncamla **VAQİF POEZİYA GÜNLƏRİ** və **XARIBÜLBÜL** beynəlxalq festivalı günləri də bərpa olunmuşdur.

**27 sentyabr ANIM GÜNÜ, 8 noyabr isə ZƏFƏR GÜNÜ kimi hər il ölkəmizdə qeyd ediləcəkdir.**

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı **Cənab İlham Əliyev 2020-ci il noyabr ayının 8-də Şuşa şəhərinin düşməndən azad edilməsi münasibətilə Azərbaycan xalqına etdiyi müraciətində demişdir:**

**«28 İL 6 AY İŞĞAL ALTINDA OLAN ŞUŞA AZAD EDİLDİ! ŞUŞA İNDİ AZADDIR! BİZ ŞUŞAYA QAYITMIŞIQ! BİZ BU TARİXİ QƏLƏBƏNİ DÖYÜŞ MEYDANINDA QAZANDIQ! 2020-Cİ İL NOYABR AYININ 8-İ AZƏRBAYCAN RESPUBLİKASININ TARİXİNDƏ ƏBƏDİ QALACAQDIR. ŞANLI QƏLƏBƏMİZİN. ZƏFƏRİMİZİN GÜNÜDÜR!»**

# XXVI FƏSİL
# AZƏRBAYCANLILARIN SOYQIRIMI

XIX əsrin əvvəllərində hayların Cənubi Zaqafqaziya gətirilib yerləşdirən Rusiya İmperiyası bildiyimiz kimi onlardan öz çirkin məqsədləri üçün istifadə etməyi nəzərdə tuturdu. Vətəni, torpağı, tarixi şəxsiyyəti, mərkəzi şəhəri olmayan hayların məskunlaşdırılmalarında Şimali Azərbaycan ərazisinə xüsusi yer verilirdi. Qacarlarla Rusiya və Rusiya ilə Osmanlılar arasında gedən məlum müharibələrdə Rusiya qalib gəldikdən sonra, Qacarlar məmləkətindən 40 min Osmanlı imperiyasından isə 200 mindən çox hay Cənubi Qafqaza gətirilib yerləşdirildilər.

Hay ünsürləri əsasən Qarabağ xanlığı, İrəvan xanlığında və Naxçıvan xanlığının dağlıq ərazilərində məskunlşdırıldılar. Guya onlar Rusiya imperiyasının təbəələri idilər. Məqsəd isə siyasi məna daşıyırdı. Rusiya gətirdiyi haylardan ibarət **forpost** - siyasi dayaq yaratmaq istəyirdi. Sonrakı və hazırkı şərait dediklərimizi sübut edir.

Birinci Dünya müharibəsinin sonlarında Azərbaycan ərazisində məskunlaşdırılan haylar, öz məkirli niyyətlərini həyata keçirmək üçün 1918-ci ilin yanvar ayından başlayaraq Bakıda və Cənubi Zaqafqaziyanın ayrı-ayrı ərazilərində yaşayan müsəlman əhalisinə qarşı soyqırımı həyata keçirmək məqsədilə müxtəlif bəhanələrdən istifadə edirdilər.

Onlar azərbaycanlı əhalisini qırmaq, torpaqlarımızı ələ keçirmək, var-yoxlarını talan etmək, ata-baba yurdlarından didərgin salmaq üçün bütün düşmən qüvvələrlə birləşirdilər. Azərbaycanın qabaqcıl ziyalıları yaxınlaşmaqda olan qanlı

milli qırğın faciəsini qabaqcadan görürdülər.

Mart qırğınları ərəfəsində **Rus Milli Şurasının Cənubi Zaqafqaziya (QAFQAZ)** xristian əhalisinə müraciətlə çıxış etdi. Müraciətdə mart ayının **11**-dən başlayaraq **19** marta kimi **19-25** yaşına çatmış bütün rus gənclərinin hərbir səfərbərliyə alınması elan edilirdi.

Qafqaz cəbhəsinin ləğv olunması ilə əlaqədar olaraq vətənlərinə qayıdan rus əsgərləri öz silah və sursatlarını dəyər-dəyməzinə haylara satırdılar. Bakıda və Azərbacanın başqa şəhərlərində fəaliyyət göstərən müsəlman (Azərbaycan) cəmiyyətləri Daşnaksütyün partiyasının azğınlığının qarşısını almaq məqsədilə özünümüdafiə dəstələri yaradırdılar. **BAKIDA, GƏNCƏDƏ, LƏNKƏRANDA** azərbaycanlılardan ibarət özünümüdafiə hissələri yaradılır və Bakı şəhərində **kadet məktəblərində** Azərbaycan gənclərindən zabit hazırlanmasına başlanıldı. **KADET məktəbləri 1917-ci ilə** kimi orta təhsil verən hərbi qapalı təlısil müəssisələri idi.

Azərbaycanda milli-azadlıq hərəkatının genişlənməsi, bu hərəkatın önündə gedən **MÜSAVAT** partyiasının nüfuzunun artması, tarixdə heç vaxt mövcud olmayan «Böyük Hayıstan» arzusu ilə yaşayan daşnakları narahat edirdi. Daşnaklar mart soyqırımı törətməklə Müsavat patiyasının sosial bazasını, Bakının Azərbaycan əhalisini kütləvi surətdə qırmağı planlaşdırmışdılar. Həmin soyqırımını həyata keçirmək üçün Birinci Dünya müharibəsinin müxtəlif döyüş cəbhələrində vuruşan hay quldurlarını Bakı şəhərinə gətirilmişlər. Bu quldurlar **«Qırmızı qvardiya»** adı ilə yaradılan **10-12** minlik ordunun da **70 faizi** haylardan ibarət idi. Bakı şəhərinə gətirilən cəbhəçilərin sayı 5 mindən **çox idi.** Tərkibi əsasən ruslardan ibarət

olan Xəzər dənizinin donanması içərisində Azərbaycan əhalisinin əleyhinə təbliğat aparılırdı. Bu sahədə haylar xüsusi fəallıq göstərirdilər.

Hay «bolşeviki» N.Əsriyans öz gündəliklərində yazmışdır:

**«1918-ci ilin fevral ayında T.Əmirov bizi yığıb bildirdi ki, S.Şaumyan və A.Caparidzenin tapşırıqlarını yerinə yetirməliyik. S.Şaumyan əvvəlcədən bizə xəbər vermişdi ki, gecə saat 1-də xüsusi siqnal olacaq, bu xəbərdarlıq siqnalından sonra biz hücum edib MÜSAVAT partiyasının qərargahını tutmalı idik və belə də oldu».**

Göründüyü kimi Azərbaycan xalqına qarşı soyqırımının rəhbəri və təşkilatçısı xalqımızın qəddar düşməni S.Şaumyan idi.

Bakıda və Azərbaycan Respublikasının digər şəhər və yaşayış məntəqələrində xalqımıza qarşı soyqırımı üçün bəhanə tapıldı. Münaqişəyə səbəb **«EVELİNA»** gəmisi ətrafında baş verən hadisə oldu. Xeyriyyəçi, Azərbaycan milli burjuaziyasının lideri **ZEYNALABDİN TAĞIYEVİN LƏNKƏRAN şəhərində hərbi xidmətdə olan oğlu MƏHƏMMƏD TAĞIYEV** öz əlindəki silahın açılması ilə həlak olmuşdur. Azərbaycan (müsəlman) alayının zabitləri onun dəfnində iştirak etmək üçün Bakı şəhərinə gəlmişdilər. Dəfn mərasimindən sonra hərbi heyət həmin gəmi ilə yenidən Lənkərana qayıtmalı idilər.

Əlverişli şəraitin yetişdiyini görən haylar Rus Milli Şurası, Xəzər Hərbi Donanması əsgərləri (matrosların) eser və menşevik partiyaları arasında belə bir şaiyə yaydılar ki, guya «Evelina» gəmisində gedən hərbiçilərə göstəriş verilmişdir ki,

Lənkəranda və Muğanda olan rus hərbiçilərini, yerli azərbaycanlıların köməyi ilə **qırsınlar.** Vəziyyəti daha da gərginləşdirmək üçün həmin ərazilərdə yaşayan rusların da məhv edilməsi irəli sürülürdü. Bu təxribata inanan, Bakı şəhərində yerləşən bütün qeyri-azərbaycanlı siyasi və hərbi qüvvələr «Evelina» hərbi gəmisində olan hərbiçilərin tərk-silah edilməsinə tərəfdar çıxdılar. Fürsəti əldən verməyən düşmən qüvvələr vaxt itirmədən **1918-Cİ İL MART AYININ 3-DA BAKI ŞƏHƏRİ MƏDƏN ZAVOD RAYONLARININ İNQİLABİ MÜDAFİƏ KOMİTƏSİNİ** yaratdılar. Bu Komitəyə daşnak S.Şaumyan başçılıq edirdi.

İnqilabi Müdafiə Komitəsinin göstərişi ilə «Evelina» hərbi gəmisi Lənkərana gedərkən yolda saxlanıldı və tərk-silah olundu. Bu hadisədən xəbər tutan azərbaycanlı əhali məsçidlərə yığışaraq müsadirə edilən bütün hərbi sürsatların geri qaytarılmasını qətiyyətlə tələb etdilər. Bakıda siyasi vəziyyət durmadan gərgin xarakter aldığını nəzərə alan Azərbaycan milli təşkilatlarınm nümayəndələri İnqilabi Müdafiə Komitəsinə gələrək, alınmış silahları **«HÜMMƏT»** müsəlman bolşevik komitəsinin iştirakı ilə geri qaytarılmasına cəhd göstərdilər.

**1918-ci il mart ayının 30-da N.Nərimanovun, M.Ə.Rəsulzadənin və S.Şaumyanın** görüşü keçirildi. Görüşdə əsas məsələ barədə müəyyən razılıq əldə edilsə də «Hümmət» təşkilatı etibar etmədiyi bolşevik-daşnak birliyinin sözünə əməl etmədi. «Hümmət»in başqa narazılıqları da var idi...

Beləliklə də qabaqcadan əldə olunmuş razılığa əsasən bolşevik-daşnak birliyi daşnak S.Şaumyanın dediyi kimi: **- «həl-**

**ledici döyüşlərə bütün hazırlıq görülmüşdü və dərhal bütün cəbhə boyu hücum başlandı». 1918-ci il mart ayının 30-da axşam saat beşdə BAKIDA ilk soyqırımı atəşləri açıldı. Tarixə azərbaycanlıların qanlı soyqırımı kimi daxil olan mart qırğınları üç gün fasilə vermədən davam etdi...**

Mart soyqırımı günlərində **Bakı menşevikləri, eserlər və hətta bolşeviklərə** dərin nifrət bəsləyən kadetlər də bolşevikləri müdafiə edəcəklərini bəyan etdilər. Bir- birinə dərin nifrət bəsləyən bu qüvvələri birləşdirən siyasi və sosial səbəblər milli və dini zəmində baş verən oyanışlar idi. Hay Milli Şurası və Daşnaklar silahlı qüvvələrinə döyüşlərə başlamaq əmri verilmişdir. Onların döyüş əməliyyatlarına Bakı şəhərində yerləşən **«KAZİNO»** mehmanxanasında yerləşən təcili açılmış təlim qərargahına rəhbərlik N.Anançekoya və A.Mikoyana həvalə olunmuşdur. İlk günlər Xəzər donanmasının matrosları bolşevik-daşnak ünsürlərinin yalanlarına inanaraq onları müdafiə edirdilər. Lakin Azərbaycan nümayəndələri donanmaya gedərək bu işi qaydasına qoya bildilər. Bakıda rus əhalisinə qarşı zorakılıq edilmədiyini öyrənən matroslar Bakıya açılan atəşi dayandırdılar. **1918-ci il mart ayının 31-də şəhərə yaxın bütün** hayların silahlı qüvvələrinin başçıları və silahlanmış hay ziyalıları İnqilabi Müdafiə Komitəsinin hərbi qərargahı məntəqəsinə toplaşdılar. Bu quldurlar rəhbərlərindən hərtərəfli göstərişlər aldıqdan sonra Azərbaycan əhalisinin yaşadıqları məhəllələrə göndərildilər. Qatillər evlərə soxulur sakinləri öldürür, kişiləri, qadınları, ahılları, uşaqları, qılıncla doğrayır və tüfənglərin süngürləri ilə vəhşicəsinə həyatdan məhrum edirdilər.

**Arxiv materiallarında göstərilir ki, «Bakının bir yerində qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış 50 nəfər müsəlman qadınının meyidi tapılmışdı. Çoxlu gənc qadını diri-diri divarlara mıxlamışdılar. Qaçıb canını qurtarmağa çalışan əhalini gülləbaran etmək üçün Bakı şəhərinin müxtəlif yerlərində əvvəlcədən pulemyotlar yerləşdirilmişdir».** Belə qeyri-insani əməllərin törədilməsində hay kilsə xadimlərinin də iştirakı kifayət qədər olmuşdur...

Daşnakların xalqımıza qarşı törətdikləri soyqırım Bakı şəhəri ilə məhdudlaşmadı. Bu alçaqlar **Şamaxıda, Qubada, Xaçmazda** da soyqırımı törətdilər. Azərbaycan qəzalarına göndərilən və sovet qoşunları adlandırılan hay quldur dəstələrinə T.Əmiryan və H.Amazasp rəhbərlik edirdilər.

Şamaxı qəzasında baş verən soyqırım hadisələri qanlı mart günlərinin ən faciəli səhifələrini təşkil edir. 1918-ci ilin yazında Azərbaycan qəzalarında hakimiyyət müsavatçıların başçılıq etdikləri yerli milli şuralarının əlində idi. Bunu özləri üçün təhlükə mənbəyi hesab edən Bakıdakı bolşevik-daşnak soveti Şamaxı şəhərini ələ keçirmək üçün bütün çirkin əməllərə əl atırdı.

**1918-ci il mart ayının 13-də** Şamaxı şəhərinə məlumat gəldi ki, Bakı şəhərindən Şamaxıya toplar, pulemyotlar, saysız-hesabsız hərbi sursatla iki mindən çox hay qoşun dəstələri gəlir. Bu quldur dəstəyə S.Şaumyanın sağ əli olan daşnak S.Lalayan başçılıq edirdi. Onlar qarşılarına çıxan yaşayış məntəqələrini dağıdır, əhalini qırır və əmlaklarını qarət edirdilər. **Mart ayının 15-də** səhər tezdən S.Lalayanın dəstəsi hücum edərək şəhərin azərbaycanlılar yaşayan ərazisini güclü top atəşinə tutdular. Düşmən qüvvələr Şamaxını mühasirəyə

alıb, axşam onun ən varlı hissəsi olan **PİRAN-ŞİRVANA** soxuldular. Quldurlar evlərə soxularaq sakinləri qırır və talanlar törədirdilər.

Nəticədə Şamaxı şəhəri və qəzasının 72 kəndi Bakı Sovetinin bolşevik-daşnak qoşunları tərəfindən dağıdıldı. Şamaxı qırğınları zamanı **8 mindən** çox azərbaycanlı öldürüldü. Əhaliyə o dövrün pulu ilə **1 milyarddan** artıq ziyan dəydi. **Şamaxıda 15000 min əhalidən, 1921-ci ildə 1700 nəfər yaşayırdı.**

QUBA qəzasında həyata keçirilən soyqırıma H.Amazasp başçılıq edirdi. 1918-ci ilin aprel ayında qəzanın **162 müsəlman** kəndi dağıdılmış, **16 mindən çox müsəlmanı və 3 mindən çox dağ yəhudisini öldürmüşlər.**

Tayqulaq Andronikin, Dronun, Laylayanın və başqa daşnak ünsürlərinin quldur hay dəstələri **Qarabağda, İrəvanda, Kürdəmirdə, Xaçmazda, Zəngəzurda və başqa ərazilərdə də qanlı soyqırımları həyata keçirmişlər.**

Daşnaklar **ŞUŞA** ilə **AĞDAMIN əlaqəsini kəsmək üçün ƏSGƏRAN qalasını ələ keçirmişdilər.** Eyni zamanda hay ünsürləri bütün yolları, dağ cığırlarını dağıtmışlar. Şuşada ərzaq qıtlığı yaranmışdı. **Laçının Zabux** kəndindən Şuşa qalasına hücuma keçən daşnak quldur dəstələri müsəlmanlar tərəfindən məhv edildi. Elə bu vaxt, **1919-cu il yanvar ayının 15-də Xosrov bəy Sultanov Qarabağa general-qubernator təyin edildi. Bu təyinat daşnaklar üçün gözlənilməz oldu. Onların əl-qolu bağlandı.**

**Dərələyəz mahalında** daşnak Dronun silahlı quldur dəstəsinə qarşı mübarizədə **ABBASQULU AĞA ŞADLİNSKİNİN** rəhbərlik etdiyi qüvvələr olduqca mühüm rol oynamışdır. Dronun quldur dəstələri burada 50 azərbaycanlı kəndini dağıt-

mış, kəndlərin əhalisini qırmış və onların əmlaklarını qarət etmişdilər. A.Şadlinski daşnaklara qarşı mübarizəni Azərbaycanda Sovet rejimi qurulduqdan sonra da davam etdirmişdir.

Hay daşnak quldurları **ZƏNGƏZURDA** da azərbaycanlılara qarşı soyğırımı törətmişdilər. Burada qanlı soyqırımı **1920-ci ilə** kimi davam etmişdir. Daşnaklar Zəngəzurda **48** azərbaycan kəndini dağıtmış və əhalini qırmışdılar.

**Azərbaycan Xalq CÜMHURİYYƏTİ Parlamentinin üzvü Qara bəy Əliverdiyev Şuşadan Bakıya AXC-i hökumətinə 1919-cu il dekabr ayının 19-da göndərdiyi məlumatda hayların quldur dəstələri tərəfindən ZƏNGƏZURDA, ŞUŞADA, CƏBRAYILDA, TƏRTƏRDƏ, AĞDAMDA törətdikləri qanlı soyqırımlar haqqında ətraflı məlumatlar vermişdir.**

**1918-ci il dekabr** ayının 20-də Azərbaycan parlamenti bu cinayətləri hərtərəfli müzakirə etmiş və yuxarıda göstərilən qəzalarda yüzlərlə azərbaycan kəndlərinin yandırılmasını, minlərlə soydaşlarımızın vəhşicəsinə öldürülməsini aşkara çıxarmışdır.

Daşnak haylar **200** ildən artıqdır Azərbaycan türklərinə qarşı soyqırım əməlləri törədirlər. Bu qanlı cinayətin arxasında torpaqlarımızı ələ keçirmək və xalqımızı kütləvi surətdə qırmaq siyasəti durur. Rusiya imperiyasının forpostu kimi torpaqlarımızda yaranan Hayıstan bu günə kimi «böyük qardaşının» köməyi ilə Azərbaycan xalqına qarşı saysız-hesabsız cinayət əməlləri törətmişlər. **1948-1953-cü** illərdə Hayıstan deyilən terrorçu dövlətdən **200** minə qədər azərbaycanlının öz tarixi etnik torpaqlarından deportasiya edilməsi Sovet hakimiyyətinin antiazərbaycan siyasətinin təzahürü idi...

Azərbaycan xalqına qarşı hay cinayətkarlığı indi də davam edir. 1992-ci fevral ayının 25-dən 26-a keçən gecə hay hərbi birləşmələri müasir silahlardan istifadə edərək, Rusiya Federasiyasının **XANKƏNDİNDƏ** yerləşən 366-cı hərbi alayının fəal iştirakı ilə Azərbaycan Respublikasının **XOCALI** şəhərinə hücum edib azərbaycanlıları kütləvi surətdə qırdılar. Bu soyqırım **XX əsrin** sonunda törədilən ən qanlı soyqırım idi. Soyuq qış axşamında qadınlar, uşaqlar, qocalar, xəstələr vəhşicəsinə məhv edildi. Qatillər həmin müdhiş gecədə 613 **(1000 nəfərdən çox) nəfər dinc Xocalı sakinini qətlə yetirdilər, 487 nəfər yaralandı, 1275 nəfər əsir götürüldü, 150 nəfər itkin düşdü. Soyqırımı zamanı 106 nəfər qadın, 63 nəfər uşaq, 70 nəfər ahıl öldürüldü. 76 nəfər həddi-buluğa çatmamış oğlan və qız əlil oldu. 8 nəfər ailə məhv edildi. 25 nəfər uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirdi. 56 nəfər şəhid oldu.**

Ulu Öndər Heydər Əliyev Xocalı soyqırımından danışarkən demişdir:

**«Bu qəddar və amansız soyqırım aktı insanlıq tarixinə ən dəhşətli kütləvi terror aktlarından biri kimi daxil olmuşdur».**

Ulu Öndər Heydər Əliyev **«Azərbaycanlıların soyqırımı haqqında» 1998-ci il mart ayının 26-da** fərman vermişdir. Prezident həmin fərmanda haylarin xalqımıza qarşı törətdikləri bütün soyqırım faciələrini parlaq surətdə göstərmişdir.

Hər il **«30 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI» GÜNÜ** kimi ölkəmizdə qeyd olunur. Həlak olanların əziz xatirələri yad edilir.

# XXVII FƏSİL
# QARABAĞ QƏDİM AZƏRBAYCAN ƏRAZİSİDİR

**QARABAĞ! Bu möhtəşəm ərazi Kiçik Qafqaz dağlarından başlayaraq Kür-Araz çayları arasında yerləşən zəngin təbii ərazini əhatə edir.**

Məlum olduğu kimi Azərbaycan subtropik iqlim qurşağında yerləşir. Bununla yanaşı ərazimizin mürəkkəb relyef **quruluşu şərqdən – Xəzər dənizi, şimaldan uca sıra dağlarla əhatə olunması nəticəsində ərazidə müxtəlif iqlim növlərinin yaranmasına böyük təsir göstərmişdir.** Beləliklə də dünyada mövcud olan **on bir təbii iqlim növündən doqquzu AZƏRBYCANDA, altısı isə onun qədim və əbədi ərazisi olan QARABAĞDA mövcuddur.**

Qarabağ mülayim iqlimə, zəngin flora və faunaya, bol və təmiz su mənbələrinə malik olan ərazidir. Bütün bunlara görədir ki, Qarabağda **Paleolit (Qədim daş)** dövründən başlamış həyat fasiləsiz olaraq inkişaf etmişdir. Nəticədə Qarabağda biososial və sosial varlıq kimi insan təşəkkül tapmış və formalaşmışdır. Azıx mağarasında arxeoloji qazıntılar zamanı aşkara çıxarılan maddi və mədəni materiallar deyilənləri sübut edir. Əlbəttə, Azıx mağarası ətrafında çox danışmaq olar. Mağaranın sirləri artıq bütün dünya elminə məlumdur...

Qarabağ tarixən müxtəlif Azərbaycan dövlətlərinin tərkibində olmuşdur. İlk olaraq Qarabat tarixi etnoqrafik ərazi olaraq qədim Alban-Azərbaycan dövlətinin tərkibində olmuş, onun siyasi, iqtisadi, mədəni və sosial həyatında mühüm yer tutmuşdur. Hazırda Qarabağda mövcud olan **dini**

**və mədəni abidələr** dediklərimizi sübut edir.

Kəlbəcər rayonundakı **XOTAVƏNG məbədini, TƏRTƏR rayonundakı Gəncəsar məbədini, Zəngilan rayonundakı kümbəzi, Cəbrayıl rayonundakı kilsəni, Qubadlı rayonundakı Gicimli kümbəzini, Ağdam rayonundakı Şahbulaq kəndindəki Alban məbədini, Xocavənd rayonu ərazisində olan Bağırxan, Gavahın Alban məbədlərini, Kəlbəcər rayonu ərazisində – Yayıcı Alban məbədlərini və başqalarını misal göstərə bilərik.** Bu məbəd və kilsələrin heç birinin torpağı, vətəni, mərkəzi şəhəri və xüsusilə də folkloru olmayan hay ünsürünə aidiyyatı yxdur. Əgər vaxtında biz həmin dini və tarixi abidələrə sahib çıxsaydıq hay ünsürü onları «özününkü» hesab etməzdi...

Ərəb işğalı dövründə Azərbaycanla birlikdə Qarabağ xilafətin tərkibinə daxil olmuş, **IX-XII əsrlərdə Şəddadilər, XII-XIII əsrlərdə Atabəy Eldənizlər, XIII əsrin ikinci yarısından XIV əsrə kimi Hülakülər (Elxanilər) övlətlərinin, XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibində olmuşdur.**

**Sonrakı illərdə Azərbaycanla birlikdə Qarabağ Azərbaycan SƏFƏVİLƏR dövlətinin tərkibində olmuşdur.** Qarabağı heç vaxt Azərbaycandan ayrı təsəvvür etmək olmaz. Ona görə ki, Qarabağ Azərbaycandır. Qarabağ ANKLAVDIR.

Qarabağ heç vaxt Azərbaycandan ayrı olmamışdır. Qarabağ tarixin sərt sınaqlarından həmişə şərəflə çıxmışdır. Fətəli xan Əfşar, Məhəmməd Həsən xan Qacar, Ağa Məhəmməd şah Qacar, Fətəli şah Qacar və onun oğlu Abbas

Mirzə Qacar və digər işğalçılar Qarabağ uğrunda apardıqları müharibələrdə on minlərlə döyüşçü itirərək məqsədlərinə nail ola bilməmiş və məğlub olaraq geri qayıtmışlar. Qarabağın tarixi salnaməsi ona qarşı iddia sürənlərə ibrət dərsi olmalıdır. İlk növbədə hay ünsünlərinə və onların arxasında duranlara da.

Hay ünsürləri **XIX əsrin əvvəllərinə** kimi Azərbaycan ərazisində mövcud olmamışlar. Tarixi araşdırmalar sübut edir ki, bu ünsür qədim dövrlərdə dağınıq halda Hindistan ərazisində yaşamışlar. Sonralar onlar Pamir dağlarının ətrafını tərk edərək Dəclə və Fərat çayları arasında yerləşən ərazinin kiçik bir hissəsində toplu halında yaşamağa başlamışlar. Hay ünsürlərinin tarixi əfsanələrlə bağlıdır.

Onlar özlərini hay adlandırırlar. Digər tərəfdən hay ünsürləri özlərini Nuhun gəmisindən çıxan Tiqranın və Haikin varisləri hesab edirlər. Bu əfsanədir. Traixlə heç bir əlaqəsi yoxdur. Bibliyada hayları **«TOQORMA»** adlandırırlar. Tarixdə «erməni» ünsürü hesab edilən tayfa olmamışdır.

Gəlin tarixə nəzər salaq. **Yüz ildən artıq** davam edən monqolların, teymurilərin işğalı altında olan tarixi Qarabağda hay ünsürü yaşamışdırmı? **1805-ci il KÜRƏKÇAY, 1813-cü il GÜLÜSTAN və 1828-ci il TÜRKMƏNÇAY** müqavilələrinə əsasən Rusiya imperiyasının tərkibinə güc vasitəsi ilə daxil edilən Qarabağ sonralar da siyasi, iqtisadi və sosial cəhətdən **YELİZAVETPOL** (Gəncə) quberniyasının mühüm tərkib hissəsi olmuşdur. **1918-ci il may ayının 28-də** elan olunan **AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ** dövründə də mərkəzi Şuşa şəhəri olan Qarabağ vilayətinin tərkib hissəsini özündə ehtiva edən **Zəngəzur**

**1921-ci il iyul ayının 20-də Azərbaycan torpaqlarında süni yolla yaradılan «Ermənistan dövlətinə»** verildi. Bir daha qeyd edirəm Zəngəzur Qarabağ torpağıdır... Hay Quldurları – Andronikin, Njdenin, Dronun quldur dəstələri **1918-ci ildə 115-dən çox** azərbaycanlıların kəndini dağıtmış, yandırmış, əhalinin var-dövlətini və çoxsaylı mal-qarasını qarət etmişlər. Bütün bunlarla yanaşı hay quldurları **Zəngəzurda 8538 nəfər azərbaycanlını, o cümlədən 3257 kişini, 2276 qadını, 2106 uşağı vəhşicəsinə öldürmüşdər. Qırğınlar nəticəsində 2339 nəfər soydaşımız yaralanmış və şikəst olmşudur.**

Zəngəzurda törədilmiş genosid nəticəsində **40 mindən artıq azərbaycanlı öz ata-baba torpaqlarından və evlərindən didərgin düşmüşlər. Nəticədə Zəngəzur ərazisinə 30 mindən çox hay ünsürü gətirilib yerləşdirilmişdir...**

Qarabağ tarixi-etnoqrafik bölgələrimiz içərisində mühüm yer tutur. Azərbaycan xalqının məişət və mədəniyyətinin inkişafında və formalaşmasında bölgə çox böyük yer tutur. Qarabağda əhalinin əsas əmək məşğuliyyəti maldarlıq, əkinçilik və sənətkarlıq olmuşdur. Keçmiş dövrlərdə burada yun, ipək pambıq parçalar istehsalı geniş yayılmışdır. Müxtəlif geyim növləri sahəsində Qarabağ həmişə fərqlənmişdir. Qarabağ xalçaları onun fəxridir. Qarabağda müxtəlif xalça növləri toxunardı. Xalçaçılığın mərkəzi Şuşa şəhəri idi.

Maldarlıqda əsas yeri iri və xırda buynuzlu heyvanlar və atçılıq tutur. Bölgədə xalq seçmə yolla (seleksiya) Qarabağ

atı və Qarabağ qoyunu yetişdirmişlər. Bu cinslər beynəlxalq aləmdə böyük şöhrət qazanmışdır.

Azərbaycan ədəbi dilinin formalaşmasında Qarabağ ləhcəsi əsas yer tutur.

Qarabağ əhalisinin maddi, təsərrüfat, mənəvi mədəniyyəti, inam və etiqadlarına aid zəngin etnoqrafik məlumatları təhlil edib, tarixi qaynaq və mənbələrə əsaslanan İ.P.Petruşevski yazırdı:

**«QARABAĞ HEÇ VAXT «ERMƏNİ» MƏDƏNİYYƏTİNİN MƏRKƏZİ OLMAMIŞDIR. QARABAĞ MƏDƏNİYYƏTİ VAHİD MƏDƏNİYYƏT OLUB, YALNIZ AZƏRBAYCAN XALQINA MƏXSUSDUR».**

Hay ünsürlərinin Qarabağ bölgəsinə gətirilmələri yuxarıda qeyd etdiyim "sülh" müqavilələri ilə bağlıdır. Bundan əlavə hay ünsürlərinin Qarabağla əlaqəsi və onların diyarda məskunlaşmağa can atmaları müxtəlif dövrlərdə Azərbaycanın işğalı zamanı onların yadellilərə göstərdikləri tarixi xəyanətkar xidmətləri və dini etiqatları ilə bağlı olmuşdur. Hazırkı dövrdə olduğu kimi...

Arsax-Xaçın (Qarabağ ərazisində) vaxtilə xristianlığın **Alban diofizit** və hay monofizit təriqətlərindən qısa olsa da danışmaq lazımdır. **Diofizitlər – bizanspərəst gürcü-pravoslav kilsəsinə, monofizitlər isə xristian məzhəbinin tərəfdarları olan hay Qriqoryan kilsəsinə yaxın olmuşlar.** Orta əsr qaynaq və mənbələri sübut edir ki, **XIII əsrdə alban xristian kilsəsi** özünün hüquqi vəziyyətini daha da möhkəmlətməyə çalışmışdı. Elə bu dövrdə alban xristian kilsəsinin yeni mərkəzi olan Xəzinədağ (Gəncəsar) monastırı **(1216-1238-ci illərdə)** tikilmişdir. Məlum olduğu kimi

hökmdar Həsən Cəlal buranı **«Albaniyanın baş monastırı»** adlandırmışdır. Onu da qeyd etmək istəyirəm ki, Qarabağda haylar yox, xristian albanlar yaşamışlar.

Sual oluna bilər ki, nə üçün Alban xristian kilsəsinin fəaliyyəti haqqında yazılı məlumatlar az olmuşdur? Ona görə ki, **1909-1910-cu illərdə** Rusiyanın ali din **SİNODU EÇMİƏDZİN** hay-qriqoryan dini sinoduna və erməni (hay) qriqoryan **konsistoriyasına (Konsistoriya – xristianlarda inzibati və məhkəmə hüququna malik olan ruhani idarəsidir)** öz tabeliyində olan yeparxiyaların **(Eparxiya – dini-inzibati vahid deməkdir)** köhnə arxiv materiallarını məhv etmək icazəsi verməsi olmuşdur. Bundan əlavə xarici basqınlar da Qarabağda siyasi sahədə olduğu kimi dini həyatına da mənfi təsir göstərmişdir.

Qarabağın siyasi, iqtisadi və sosial tarixini öyrənmək üçün yazılı mənbələr olan **«QARABAĞNAMƏLƏR» MÜHÜM YER TUTUR**. Həmin mənbələrdə hayların Qarabağda heç bir fəaliyyətindən söhbət açılmır. Ona görə ki, bu ünsürə xas olan heç bir tarixi məlumat yoxdur. **XIX əsrin əvvəllərinə qədər Albaniyanın (Azərbaycanın)** ərazisində hayların dövləti olmamışdır. Ymumiyyətlə, belə bir «dövlət» haqqında söhbət gedə bilməz. Qafqaz Albaniyasının tarixi-coğrafi xəritəsi sübut edir ki, qədim dövrdərdə regionda hay varlığı qeydə alınmamışdır. Qədim yunan tarixçisi **KLAVDİ PTOLEMEY yazırdı:**

**«QAFQAZ ALBANİYASININ SƏRHƏDLƏRİ ŞİMALDA SARMATİYA (QARA DƏNİZİN ŞİMAL SAHİLLƏRİ), QƏRBDƏ İBERİYA, CƏNUB-QƏRBDƏ ATROPATEN, ŞƏRQDƏ İSƏ XƏZƏR DƏNİZİ OLMUŞDUR».**

Ən qədim dövrlərdə Azərbaycan ərazisində bir çox türkdilli tayfalar məskunlaşmışdılar. **Onlar bulqarlar, hunlar, sabirlər, xəzərlər, oğuzlar, cinlilər, saklar, qarqarlar, qarabanlar, ağbanlar və başqaları idilər.**

Azərbaycan haqqında tarixi bilgilərə, o cümlədən Qarabağın təkrarolunmaz təbiəti və tarixi keçmişi haqqında **Qətran Təbrizi, Xəqani Şirvani, Nizami Gəncəvi, Mücərəddin Beyləqani və başqaları** öz əsərlərində dönə-dönə tariflər yazmışlar.

Qarabağın şanlı tarixində **QARABAĞ XANLIĞI şərəfli yer tutur. 1747-ci ildə Nadir** şahın qətlindən sonra Azərbaycan kiçik feodal dövlətlərə **bölündü.**

Qarabağ xanlığının yaradıcısı və qurucusu Azərbaycanın görkəmli dövlət xadimi və sərkərdəsi **PƏNAHƏLİ bəy CAVANŞİR idi. O, 1693-cü ildə Ağdamın SARICALI** oymağında anadan olmuşdur.

**MİRZƏ CAMAL bəy CAVANŞİR QARABAĞİ** özünün «**QARABAĞ TARİXİ**» əsərində yazırdı:

**«Nadir şah Qarabağ, Gəncə, Tiflis və Şirvan vilayətlərini aldıqdan sonra, ellər və kəndlər arasında görüb tanıdığı hər bir şücaətli və işgüzar adamı yanına çağırıb öz yaxın qulluqçuları sırasına alır və onu məvacib, ehtiram və mənsəb sahibi edərdi. O cümlədən ellər arasında PƏNAHƏLİ bəy SARICALI CAVANŞİR adı ilə şöhrət tapmış, hər işdə fərqlənmiş, ad çıxarmış, müharibə və davada tay-tuşuna üstün gələn və xüsusilə Nadir şahın... apardığı müharibədərdə şücaət göstərmiş Pənah xanı da öz yanına apardı... O, bütün tapşırıqları layiqincə yerinə yetirirdi».**

Pənahəli xan qısa müddət ərzində Nadir şahın böyük hörmətini qazanmışdı. Lakin şahın evində bir para qulluq adamları şər söyləməklə Pənahəli xanı şahın nəzərindən salmağa başladılar. Beləliklə də bədxah ünsürlərin böhtan və fitnəkar əməlləri ilə şahı Pənah xana düşmənə çevirə bildilər. Nadir şahın Pənahəli xana qarşı qisasçılıq meyillərini Pənahəli xan da hiss etməyə başlamışdı. Ona görə də Nadir şahın kinli qəzəbindən yaxa qurtarmaq üçün onun qanlı sarayını tərk etmək qərarına gəldi.

Pənahəli xan Nadir şahın Xorasanda olmasından istifadə edərək, onun sarayını tərk edib, doğma yurduna – **QARABAĞA** qayıtdı.

Nadir şah **1747-ci ildə** öz yaxın adamları tərəfindən **XORASAN** yaxınlığındakı **XANBUŞAN** yaylağında öldürüldükdən sonra Pənahəli xan heç bir kənar fərman olmadan Qarabağ xanlığının **Xanı elan olundu.**

Pənahəli xan mövcud beynəlxalq vəziyyəti nəzərə alaraq dövlət quruculuğu məsələləri ilə məşğul olmağa başladı. Əsas məsələlər **ordu yaratmaq, xanlığın sərhədlərini qorumaq, mərkəzi şəhər salmaq və beynəlxalq aləmdə xanlığı tanıtmaq idi.** Yeni yaranan xanlıqlar müəyyən şəhərlər əhatəsində yaranmışdır. Lakin Qarabağın elə bir şəhəri yox idi ki, o xanlığın mərkəzi məsuliyyətini öz üzərinə götürsün. **1748-ci ildə Kəbirli mahalı içərisində BAYAT və 1749-cu ildə ŞAHBULAĞI qalalarını inşa etdirdi.**

Qarabağ xanlığı siyasi, iqtisadi və sosial sahələrdə çox qısa zaman içərisində sürətlə inkişaf edir və möhkəmlənirdi. Bu isə daxili və xarici düşmənləri narahat edirdi. Yuxa-

rıda qeyd olunan qalalar Qarabağ xanlığının mərkəzi vəzifəsini yerinə yetirə bilmədilər. Xanlıq üzərinə edilən hücumlar da göstərdi ki, güclənməkdə olan Qarabağ xanlığı üçün elə bir mərkəzi şəhər inşa olunmalıdır ki, onu ən güclü düşmən qoşunu ala bilməsin.

Pənahəli xanın məsləhəti ilə yeni paytaxt inşa olunması ideyası gündəliyə gətirildi. Qarabağı yaxşı tanıyan bir neçə bələdçi heyəti yaradıldı. Gərgin axtarışlar öz nəticəsini sonda verdi. Axtarış bələdçilərindən bir qrup Pənahəli xana xəbər gətirdi ki, **üç tərəfi təbii istehkamlarla (hündür qayalarla)** əhatə olunan bir ərazi tapılmışdır. Həmin ərazi qayalar üzərində yerləşir, ağaclarla, kol-kosla örtülüdür. Müxtəlif heyvanların məskənidir. Lakin ərazidən çay axmır. Amma bir neçə təbii bulaq var...

Pənahəli xan öz yaxın siladaşlarını, Qarabağ ərazisini yaxınjan tanıyanları, sərkərdələri, din xadimlərini məsləhət məclisinə topladı. Onlara yeni mərkəz qalanın ərazisi və mövqeyi haqqında ətraflı məlumat verdi. Məclis iştirakçıları yeni qalanın inşa edilməsi haqqında xana xeyir-dua verdilər. Xan məclis iştirakçıları qarşısında çıxış edərək bildirdi ki, yeni qalanın ərazisi ilə şəxsən tanış olmuşdur və orada, dağlar qoynunda möhtəşəm qala salınacaqdır.

Tarixi mənbələrin hərtərəfli və dəqiq araşdırılması sübut edir ki, **QARABAĞ XANLIĞININ üçüncü – möhtəşəm QALA** mərkəzinin bünövrəsi **1750-ci ilin avqust ayının sonunda və ya da sentyabr ayının əvvəllərində (bəzi mülahizələrə görə iyun ayının 21-i də deyilir) qoyulmuşdur. Bu QALA PAYTAXT ŞƏHƏRİ PƏNAHABAD – ŞUŞA QALASIDIR.** Bu şəhər qədim türk torpağında,

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan **DOĞMA QARABAĞIMIZDA İNŞA olunmuşdur.** Qala Azərbaycan inşaatçıları və memarları tərəfindən **İSLAM** memarlığı ənənələri əsasında tikilmişdir. Şuşada olan dini memarlıq abidələri müqəddəs yerlər, saray, xan ailəsinə, bəylərə, ağalara, din xadimlərinə, tacirlərə və digər sosial təqəbələrə mənsub olan yaşayış binaları dediklərimizi özündə ehtiva edir. Şuşada bir nəfər də olsun «hay» evinin adını çəkmək mümkün deyil. Mənim yaxşı yadımdadır, **XX əsrin 80-ci illərinə kimi Şuşalılar hayları bulaq başına qoymazdılar.** Bunu hayların özləri də yaxşı bilirlər. Onlar mundar hesab edilirdi.

Mənşəcə albanların qalıqları olan məliklər Qarabağ xanlığı üçün müəyyən əngəllər törədirdilər. Beş məliklərdən yalnız **XAÇIN** məlikliyi yerli idi. Qalan **dörd məlikliklər** kənardan qaçıb Qarabağa gəlmədirlər, onların pozuculuq hərəkətlərinin qarşı alınmalı idi və qətiyyətlə də alındı. Daha doğrusu onlar Pənahəli xan tərəfindən zərərsizləşdirildilər. Məliklərin **SEPARATİZM** – yəni ayrılmağa, müstəqilliyə cəhdlərinin qarşısı alındı. **5-6 ailədən ibarət olan** məliklərin tamamilə susdurulması hərbi-siyasi cəhətdən də zəruri idi. Bu tarixi həqiqətlər mənbələrdə də göstərilmişdir. Ona görə ki, Qarabağ xanlığı inzibati-ərazi bütövlüyünü itirə bilərdi.

Yuxarıda göstərdiyim kimi **Qarabağ iki hissəyə bölünür – ARAN və DAĞLIQ ərazilərə.** Hamıya məlumdur ki, bütün ölkələrin aranı dağı da var. **XX əsrin 20-ci illərinə kimi Azərbaycanın QARABAĞININ DAĞLIQ** ərazisi deyilən sahəsi yox idi. Bu hay daşnaklarının uydurduğu

coğrafi məfhumdur. Qarabağ birdir, dağı da var, düzü də. Qarabağ Azərbaycandır! Azərbaycan Anadır, Qarabağ isə onun ürəyidir, **BAŞ TACI İSƏ ŞUŞADIR!**

Şuşa istər Pənahəli xanın və istərsə də İbrahimxəlil xanın dövründə dəfələrlə xarici işğalçılara qarşı qəhrəmanlıqla mübarizə aparmışdır. Bu Şuşanın şanlı siyasi tarixidir. Orta əsrlər Şuşa tarixinin bütün inkişaf mərhələləri Pənahəli xandan sonra İbrahimxəlil xanın hakimiyyəti **(1763-1806)** illərində siyasi, iqtisadi, mədəni, sosial və digər sahələrdə özünün ən yüksək inkişaf dövrünü keçirmişdir. Bu inkişafın qarşısını alan rus işğalı olmuşdur...

İbrahimxəlil xanın dövründə və **XIX əsrin sonlarına kimi** Şuşa şəhəri Yaxın və Orta Şərqdin ən mühüm şəhərlərindən biri idi. Qədim Azərbaycan torpaqları **Zəngəzur, Qanan və Mehri** əraziləri Qarabağ xanlığına məxsus idi.

Azərbaycan milli dövlətçiliyi tarixində Qarabağ xanlığı mühüm yer tutur.

Qarabağ xanlığında kənd təsərrüfatının demək olar ki, bütün sahələri inkişaf etmişdir. Xanlıqda çoxlu müxtəlif sənət növləri var idi. **XIX əsrin əvvəllərində ŞUŞADA 219 sənətkar var idi. Kustar sənaye** istehsalçıların tələbatını ödəyirdi. Tədricən kustar sənayesi əmtəə mərhələsinə daxil olurdu. Yəni ev istehsalı tədricən bazara çıxarılırdı.

Xanlıq dövründə kustar sənayesinin sənətkarlığın, ticarətin və mədəniyyətin mərkəzi Şuşa şəhəri idi. Ticarətdə yerli pul vahidləri ilə yanaşı **Türk, İran və rus pullarından da istifadə olunurdu.** Şuşanın xarici ölkələrlə iqtisadi

əlaqəsi rus işğalı nəticəsind sona yetdi. **Bu 1822-ci ilə qədər, yəni xanlığın ləğv edilib Rusiya imperiyasının əyalətinə çevrilməsinə kimi davam etmişdir.**

**XIX əsrdə ŞUŞA Cənubi Zaqafqaziyada elm, ədəbiyyat, incəsənət, mədəniyyət** mərkəzi kimi şöhrət qazanmışdır. Şuşada doğulan şairlər, yazıçılar, elm xadimləri, bəstəkarlar və başqaları mədəniyyət tariximizin parlaq səhifələridir.

**Şuşa Pənahəli xanın, İbrahimxəlil xanın, Q.Zakirin, M.M.Nəvvabın, C.Qaryağdı Oğlunun, N.Vəzirovun, Ə.Ağayevin, Y.Hacıbəyovun, Ə.Haqverdiyevin, S.Şuşinskinin, X.Şuşinskinin, S.Ələsgərovun, Ə.Abbasovun və yüzlərlə başqa yaradıcı dühaların VƏTƏNİDİR.**

**ŞUŞA** – bakirə qaladır. Onun torpağı Azərbaycan xalqı üçün **Müqəddəs KƏRBALA** torpağıdır. **28 il 6 ay faşist erməni ünsürlərinin** işğalı altında qalmasına baxmayaraq Şuşa öz şöhrətini itirmədi. Bilirdi ki, onun əbədi sakinləri gələcəklər, hay faşistləri yalnız şəhərin tarixi və xalqımıza məxus olan dini mədəni abidələrini dağıda bilmişdilər. Yaramaz, cani, qorxaq, əxlaqsız hay ünsürləri Şuşada dağıdıcılıq işləri aparmaqla bir daha sübut etdilər ki, **ŞUŞA** onlara yad, **azərbaycanlılara isə doğmadı.**

**Bunu Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər və digər yaşayış yerlərinin timsalında da görürük.**

Amansız, qəddar hay ünsürləri bilirdilər ki, müvəqqəti olaraq işğal altında olan ərazilərin sahibləri gələcəklər. Gəldilər də. Düşməndən istənilən səviyyədə qisas da alındı.

Erməni quldurları **30 ilə yaxın bir müddətdə ATƏT-in**

**Minsk qrupunun riyakar siyasəti nəticəsində** və havadarlarının olduqca fəal köməyi ilə dövlətimizə və xalqımıza **1 trilyondan çox maddi ziyan vurmuşlar.** Onların hay faşistləri ilə əlbir olmaları hazırda beynəlxalq aləmə məlumdur.

Azərbaycan BMT Təhlükəsizlik şurasının və digər beynəlxalq təşkilatların Qarabağ haqqında olan qərarlarını **44 günlük VƏTƏN müharibəsinin gedişində həll etdi.**

**Cənab Prezident, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Şanlı Ordumuz müharibələr tarixində misilsiz qələbələr qazandı. 44 gün ərzində müvəqqəti olaraq işğal altında olan torpaqlarımız ardıcıl olaraq faşist hay ünsürlərindən azad edildi.**

Hay faşistləri çox yaxşı bilirlər ki, **QARABAĞ ZƏNGƏZUR və İRƏVAN** heç vaxt onlara mənsub olmamışdır. Hazırda bu ünsürlərin sığındığı torpaqlarla birlikdə göstərilən ərazilər və İrəvan şəhəri də tarixən Azərbaycanın tərkib hissəsi olmuşdur. Dəfələrlə deyildiyi kimi hay ünsürləri kənardan gətirilib ərazilərimizdə, o cümlədən də Cənubi Zaqafqaziyada yerləşdirilmişlər.

**1918-ci may ayının 29-da xarici dövlətlərin güclü təzyiqi altında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti İRƏVAN şəhərini** hay daşnaklarına mərkəzi şəhər kimi verməyə məcbur olmuşdur. Lakin AXC-i hökuməti İrəvan xanlığının mərkəzi şəhərini daşnaklara mərkəzi şəhər kimi verməsi üçün müəyyən şərtlər irəli sürmüş və hay daşnakları da həmin şərtləri danışıqsız qəbul etmişlər.

Həmin şərtlərdə göstərilmişdir ki, **İrəvan şəhəri hay**

daşnaklarına bir şərtlə güzəştə gedilir ki, **onlar heç vaxt Azərbaycanın qədimdən ayrılmaz tərkib hissələri olan QARABAĞ və ZƏNGƏZUR** ərazilərinə bir daha iddia irəli sürməyəcəklər. Bu barədə qəbul edilən qərar da deyilənlər özünün əksini tapmışdır. Lakin hay daşnak ünsürləri öz üzərlərinə götürdükləri beynəlxalq hüquq normalarını pozaraq Azərbaycana qarşı **XX əsrin 20-ci illərindən yenidən torpaq iddiaları irəli sürməyə başladılar...**

Yuxarıda şeyd etdiyim kimi **1921-ci ildə Zəngəzur** Sovet rejiminin kobud zorakılığı nəticəsində haylara güzəşt edildi. **1923-cü il iyul ayının 7-də** heç bir əsas olmadan, Qarabağın yuxarı ərazisində yaşayan bir ovuc haylara (nəzərə alaq ki, onlar mənşəcə xristian albanlardır) özünü idarə hüququ pərdəsi altında muxtariyyət verildi. Bununla da sovet rejimi Azərbaycanın ərazisində Dağlıq Qarabağ Muxtar Vilayəti deyilən daşnak yuvası yaratdı. Həmin qurum Azərbaycan xalqının rəyi nəzərə alınmadan yuxarıdan verilən, heç bir siyasi və hüququ əsası olmayan qərar idi.

**68 il 4 ay 14 gündən sonra** DQMV-i (**1991-ci il noyabr ayının 21-də ləğv edilmişdir**) ləğv edildi. **44 günlük** müharibədən sonra həmin qondarma qurum barədə söhbət gedə bilməz. Qarabağ birdir. Düzü də var, dağı da var. DQ məfhumu da ləğv olunmuşdur.

Artıq düşmən Qarabağda əsaslı surətdə zərərsizləşdirilib. Siyasi, iqtisadi cəhətdən tamamilə məhv edilib. Şəhərlərimiz, qəsəbələrimiz, kəndlərimiz, yollarımız və digər sahələr yenidən sürətlə bərpa olunur. **ŞUŞADA** da bu işlər böyük uğurla aparılır. Azərbaycanın mədəniyyət mərkəzi elan edilən **ŞUŞA** gözəlləşir.

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı, Cənab İLHAM ƏLİYEV deyir:**

**«Mən ŞUŞA şəhərini Azərbaycanın mədəniyyət paytaxtı elan edirəm. ŞUŞA şəhəri buna layiqdir. Hesab edirəm ki, nəinki Azərbaycanın, bölgənin mədəni paytaxtı sayıla bilər. Şuşanın mədəni həyatı zəngin olmalıdır. Şuşanın bərpası ilə əlaqədar işlərə artıq başlanmışdır. Mənim göstərişimlə böyük heyət oraya ezam edilib. Deməli, yaşayış fondunun, tarixi abidələrin siyahısı aparılmalı, vurulmuş ziyan dəqiq hesablanmalıdır və biz ŞUŞA şəhərinin bərpasına başlamalıyıq.**

**Ancaq yenə də vaxt itirmədən, eyni zamanda, tələsmədən ŞUŞANIN yeni görünüşü, traixi görünüşü bərpa edilməlidir».**

**2021-ci il may ayının 30-da Azərbaycan Respublikasının Milli Məclisi ŞUŞANIN Mədəniyyət Mərkəzi elan edilməsi haqqında 14 maddədən ibarət qərar qəbul etmişdir.**

ŞUŞA Azərbaycan xalqının mənəvi ruhunun, qəlbinin mərkəzidir. Uzun fasilədən sonra **ŞUŞADA XARIBÜLBÜL musiqi festivalı keçirildi.** Həmin festival şənlikləri zamanı mərasim iştirakçılarının başı üzərində bir dağ **QARTALI** uçurdu. Sanki o da şənlik iştirakçılarını təbrik edirdi...

Elə həmin anlarda mənim tarixi bir gün – **1992-ci il may ayının 8-i yadıma düşdü.** Təxminən axşam saat **7 olardı. Ailə üzvlərimlə birlikdə ŞUŞANI tərk edirdik.** Şəhər fa-

şist hay silahlı qüvvələri tərəfindən ara vermədən **raketlərdən, tanklardan, toplardan və digər silahlardan atəşə tutulmuşdur. Evlər yanırdı.** Biz şəhərin yuxarı hissəsindən **Zarıslı kəndi istiqamətində hərəkət edərkən başımızın üzərində səmada bir dağ QARTALI da uçurdu. Sanki o bizi qoruyurdu. Mən festival şənliklərində CIDIR DÜZÜNDƏ şənlik iştirakçılarının səma üzərində qanad çalıb uçan həmin QARTALI görən də sanki bir möcüzə ilə qarşılaşdım. Dərin xəyala daldım, görən bu qartal bizi yola salan qartal idi, yoxsa onun ŞUŞA dağlarına bəxş etdiyi cavan qartal idi...**

Bu mənim xəyal dünyamda əbədi olaraq möcüzə kimi qalacaqdır!

Mən yazımı yenə də **CƏNAB PREZİDENTİMİZ, AZƏRBAYCAN RESPUBLİKASININ ALİ BAŞ KOMANDANI İLHAM ƏLİYEİN UNUDULMAZ VƏ QALİBİYYƏTLİ SÖZLƏRİ İLƏ SONA YETİRMƏK İSTƏYİRƏM:**

**ƏZİZ ŞUŞA, SƏN AZADSAN!**
**ƏZİZ ŞUŞA, BİZ QAYITMIŞIQ!**
**ƏZİZ ŞUŞA, BİZ SƏNİ DİRÇƏLDƏCƏYİK!**
**ŞUŞA BİZİMDİR! QARABAĞ BİZİMDİR!**
**QARABAĞ AZƏRBAYCANDIR!**

# XXVIII FƏSİL
# ŞUŞA ŞƏHƏRİNİN DAXİLİ ƏRAZİSİNDƏ VƏ ONUN ƏTRAFINDA OLAN YER ADLARI

## ŞUŞA ŞƏHƏRİNİN DAXİLİNDƏ OLAN YER ADLARI:

Əvvəlcədən qeyd edim ki, bu sahədə mənə kömək edən **Firudin və İlham Əşrəfov qardaşlarına, Vasif Quliyevə, Süleyman Məmmədova Ələmşah Hüseynova, Akif Məhərrəmova və Vaqif Qasımova öz** minnətdarlığımı bildirirəm.

**1. CIDIR DÜZÜ.** Bu ərazidə at yarışları, milli bayramlar, müxtəlif idman yarışları keçirilirdi.

**2. AĞZI YASTI KAHA.** Kahanın girəcəyi yarımdairə formasında idi. Qabağa doğru maili idi. Şairlər, yazıçılar, ziyalılar öz istirahətlərini, həmin kahada keçirərdilər. Onlar bədii yaradıcılıqları haqqında bir-birinə məlumat verərdilər.

**3. ÜÇ MIX DAĞI.** Bu dağ Ağzı Yastı kahanın yuxarı ərazisindən başlayaraq İsa bulağına gelən yol ayrıcına kimi uzanırı. Dağın ərazisi **«XARIBÜLBÜL»** gülünün məskəni idi. **Yaz və yay** fəsillərində **ÜÇ MIX** dağı daha əzəmətli görünürdü. Bu zaman dağ müxtəlif naxışlarla və gül-çiçəklə bəzənmiş **xalçaya bənzəyirdi.**

**Bülbüllərin, qaratoyuq və turac** quşlarının cəh-cəhləri ətrafa xüsusi əhval-ruhiyyə bəxş edirdi. Sanki təbiət insanla danışırdı.

Dağın zirvəsində bir-birindən **3-4 metr aralı mıxa bənzər üç təpə var. Ona görə də dağ ÜÇ MIX DAĞI** adlanır.

**4. XAN QIZI XURŞUDBANU NATƏVANIN BUZXANASI.** Buzxana xan qızının imarətinin alt hissəsində, **4,5 və 5 metr dərinlikdə yerləşirdi.** Sovet hakimiyyəti illərində X.B.Natəvanın mülkü uşaqlar üçün təşkil edilən istirahət məkanı idi. Respublikamızın müxtəlif guşələrindən uşaqlar bütün fəsillərdə bura istirahətə gələrdilər. Onların arasında yeprli uşaqlar da var idi. Buzxanada istiyə davam gətirməyən ərzaq məhsulları – **ət, yağ, pendir, şor, qatıq, tərəvəz** və başqa qida məhsulları saxlanılırdı.

Buzxana yerli sakinlərin və Şuşaya gələn qonaqların üzünə bağlı idi...

**5. ŞOR BULAQ.** Bulaq X.B.Natəvanın binasının aşağı ərazisində, **GƏNCƏ QAPISININ** yaxınlığında, X.B.Natəvanın əri **SEYİD HÜSEYN tərəfindən** inşa olunmuşdur. Bulağın suyu şor olduğu üçün **ŞOR BULAQ** adlanırdı. Bulağın suyundan məişətdə təmizlik işlərində istifadə olunurdu.

**6. LEYLİ QAYASI.** Qaya Qarabağ xanı İbrahimxəlil xanın oğlu **MƏHƏMMƏDHƏSƏN ağanın** imarətinin aşağı ərazisində, xanlıq dövründə **«MAMAÇA»** ləqəbi ilə məşhur olan **LEYLİ** xanımın həyəti ilə sərhəd idi. Qayanın hündürlüyü **100-120 metrə qədər idi.** Onun yuxarı hissəsi insanların əyləşməsi üçün olduqca əlverişli idi. Şuşanın yaşlı adamları deyirdilər ki, **ÜZEYİR HACIBƏYOV** anadan olanda, qohumları xüsusi faytonla gəlib onu mamaça kimi uşağı ana bətnindən azad etməyə aparmışlar.

Qaya Leyli xanımın şərəfinə Leyli Qayası kimi Şuşa qalasının tarixinə həkk olunmuşdur. Qaya olduqca mənzərəli və əzəmətli idi.

**7. ÇANAQQALA.** Ərazi yarımçanaq formasında olduğu üçün belə adlanır. Mənzərəli məkandır. **YAY** fəslində Şuşaya istirahətə gələn ailələr istirahət günləri ərəfəsində Çanaqqalaya toplaşıb yaxın adamlarını gözləyirdilər. Eyni zamanda Çanaqqalaya **«ƏRİMGƏLDİ»də deyirlər.** Ərazi Bəhmən Mirzənin həyəti ilə bitişik idi. Çanaqqala eyni zamanda da şuşalıların da əyləncə yeri idi.

**8. XARIBÜLBÜL TALASI.** Tala Çanaqqalanın şərq ərazisində yerləşirdi. Xarıbülbül gülü (çiçəyi) ərazidə bol idi. İnsanlar gülü tapdalamamaq üçün talaya çox zaman girmirdilər... Xarıbülbül gülü ilə yanaşı talada bənövşə, novruz gülü, nərgiz güdü və çoxlu çiçəklər də bitirdi.

Tala şuşalılar tərəfindən **XARIBÜLBÜL TALASI** adlandırılır.

**9. GƏNCƏ QAPISI.** Şuşa qalasının əsas giriş qapısıdır. Gəncə qapısından başlanan yol **Gəncə şəhərinə gedirdi.** Ona görə də qapı **GƏNCƏ QAPISI ADLANDIRILIR.**

Gəncə qapısının açarları hazırda Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində Ermitaj muzeyində saxlanılır... **NƏ ÜÇÜN?..**

**10. İRƏVAN QAPISI.** Şuşa şəhərindən İrəvan xanlığına, Qərbi Azərbaycana gedən yol buradan başlanırdı. Yol **Qarabağ xanlığı ilə İrəvan xanlığı** arasında iqtisdai, siyasi və sosial münasibətlər saxlamaqda mühüm yer tuturdu.

**11. KƏHRAT YOLU.** Bu yolu şuşalılar **KƏHƏR AT** kimi də adlandırırdılar. Gəncə qapısından **QACARLAR MƏMLƏKƏTİNƏ yol da** buradan başlayırdı. İnsanlar bu yoldan uzun müddət istifadə etmişdilər.

**12. TORPAQ MEYDAN.** Meydan Çuxur məhəllədə yerləşir. **Ərazi torpaqdan ibarət** olduğuna görə belə adlanır.

**13. XANLIQ ARA YOLU.** Bu yol Seyidli məhəlləsindən başlayaraq, Böyük Qurdlar məhəlləsindən keçib **Hacı Yusifli** küçəsinin yuxarı ərazisindən Çöl Qala məhəlləsi ərazisinə qədər uzun yolu əhatə edir. Yol Şuşa qalasını iki hissəyə bölür**.** Yolun **ÇÖL QALA** məhəlləsinə çatan ərazisinin **SAĞ TƏRƏFİNDƏ** Qarabağ xanlarının **SARAYI YERLƏŞİR.**

Mən sarayı Şuşa polis şöbəsinin əməkdaşına göstərmişəm.

**14. DİVANXANA.** Bura Qarabağ xanlığının həbsxanası idi. Ən ağır cinayətkarlar burada mühakimə olunur və saxlanılırdılar. **Divanxana Cıdır Düzünü Kiçik Qurdlar məhəlləsini** bir-birindən ayıran dərin dərənin daş qayasının üstündə inşa edilmişdir.

Divanxana **XX əsrin 80-ci illərinin əvvəllərinə qədər dururdu...!**

**15. QAYABAŞI ƏRAZİSİ**. Ərazi çox da hündür olmayan daş qaya üzərində yerləşir. Çuxur məhəlləyə aid idi. Ərazidə çoxlu evlər inşa edilmişdir. Ərazidə dərin dərə var. Dərənin üzərindən keçib getmək üçün tağbənd körpülər inşa olunmuşdur. Bu körpülər insanlara və ev sahiblərinin mal-aqarasına xidmət edirdi. Həmin körpülər **1992-ci iln may ayının 8-ə kimi dururdu.**

**16. DƏRƏQIRAĞI**. Dərə Hamam Qabağı məhəlləsinin yuxarı ərazisindən Çuxur məhəllənin qurtaracağına kimi uzanırdı. Şuşa qalasının ərazisindən keçən ən uzun dərə idi.

Dərəqırağının **SOL və SAĞ** sahillərində çoxlu yaşayış binaları və sosial müəssisələr yerləşirdi. Dərədən axan məişət, yağış və qar suları **Daşaltı** çayına tökülürdü. **Buna Şuşa şəlaləsi də deyilirdi.**

**17. XAN QIZI NATƏVANIN BAĞI.** Bağ geniş ərazini əhatə edir. Müxtəlif meyvə, tut, palıd, qayın, göçə ağacları və gül kolları bağa xüsusi gözəllik bəxş edirdilər. Xurşudbanu Natəvanın təşkil etdiyi məclislər çox zaman bu cənnətməkan bağda keçirilirdi.

Bağ Xurşudbanu Natəvanın xüsusi mülkü olduğuna görə **XAN QIZI NATƏVANIN BAĞI adlandırılır.**

**18. BAZARBAŞI, ŞEYTAN BAZARLAR, QAPAN DİBİ VƏ MEYDAN ərazilәri də Şuşa şəhərinin daxilində yerləşir.**

## ŞUŞA QALASININ ƏTRAF ƏRAZİLƏRİNDƏ YERLƏŞƏN YER ADLARI

**19. TOPXANA. 1797-ci ilin iyun ayında Qacar məmləkətinin şahı Ağa Məhəmməd şah Qacar ikinci dəfə Qarabağ xanlığına – ŞUŞA qalasına hücum edərkən, Qızıl qaya ilə Çaxmaq meşəsinin arasında yerləşən ərazidə ordugah yaratmışdır.** Qacar şahın qoşununun mahir topçuları oradan qalanın aşağı ərazisində yerləşən qala divarlarını və bir sıra yaşayış mənzillərini top atəşinə tutdurmuşdur.

Topçulara **Həmid Ulteyin** adlı hərbiçi başçılıq edirdi. Onun ixtiyarında **4 top var idi.** Topçular yerləşdikləri əra-

zidən, **200-250 metrlik məsafədən şəhəri ton atəşinə tutur, yaxınlıqda yerləşən qala divarlarını dağıdırdılar.** Lakin şuşalılar axşamlar dağıdılan divarları yenidən bərpa edirdilər. İbrahimxəlil xan topçuları və topları məhv etmək üçün bir neçə nəfərdən ibarət olan silahlı döyüşçü ilə birlikdə **KİRS DAĞININ ÇAXMAQ MEŞƏSİ arasında yerləşən dağ yolu ilə döyüş meydanına hücum edib, topçuları, topları məhv etmişdilər.** Bunlardan başqa xeyli qızılbaş döyüşçülərini də sıradan çıxarmışdılar.

Bu qələbədən sonra ərazi şuşalılar tərəfindən **TOPXANA** adlandırılmışdır. **TOPXANA** Qarabağın – Şuşanın tarixinə əbədi həkk olunmuşdur.

**20. QOTUR BULAQ.** Bulaq adından göründüyü kimi müalicəvi və şəfaverici əhəmiyyət kəsb edir. Dəri xəstəlikləri üçün daha münasib idi. Qızıl qayanın alt qatlarından başlayaraq Daşaltı çayına tökülür. Yaz və yay aylarında saysız-hesabsız adamlar. Qotur bulaqdan istifadə edər və öz sağlamlıqlarını bərpasına nail olardılar.

**Bulaq qış və payız fəsillərində axarını dayandırırdı.** Bu isə təbiətin sirri idi. Bulağın ərazisi yaz və yay aylarında istirahət məkanına çevrilirdi.

**21. QIRX PİLLƏKƏN.** Təbii daşlardan ibarət olan, **2 qaya arasında yerləşir.** Uzunluğu **50-55 metrə bərabər idi.** Qırx pilləkəndən kütləvi surətdə istifadə olunurdu.

**40 PİLLƏKƏNİ OLDUĞU ÜÇÜN 40 PİLLƏKƏN ADLANDIRILIR.**

**22. POTU-POTİ.** Mənası yuxarıdan aşağıya uzanan mayili ərazi deməkdir. Qırx pilləkən keçidi ilə **QAYA BAŞI** ərazisində yerləşir. Təbii-coğrafi mövqeyi adamı heyrətə salır.

Sağ tərəfində yerləşən dərə onu Cıdır Düzündən ayırır.

**23. CAVANŞİR KAHASI.** Kaha Mehralı bəyin oğlu **Məhəmməd bəy Cavanşirin adı ilə bağlıdır.** Üst hissəsi, sol və sağ tərəfləri qayalarla əhatə olunmuşdu. Girəcəyin **5-6 metr, daxili 7-8 metr uzunluğunda və eni isə 5-6 metrə qədərdi.**

Məhəmməd bəy Cavanşir – **BATMANQILINC** istirahət günlərini gözəl mənzərəsi olan bu kahada keçirərdi. Kaha **40 pilləkənin** girəcəyindəki təpənin sol ərazisində yerləşir.

**24. KƏRİM YATAĞI. KƏRİM** Şuşa qalasında səxavətli və varlı adamlardan biri idi. Onun xırda buynuzlu heyvanları yaz və yay aylarında geniş sahəsi olan bu yataqda saxlanılırdı. Ərazinin yuxarı hissəsini əhatə edən qayanın altında uzunluğu **100 metrdən artıq olan kaha yerləşirdi.** Kahadan ağıl və tövlə kimi istifadə olunurdu.

Yataqdan şuşalılar da **XX əsrin 50-60-cı illərində istifadə edirdilər.** Quzular üçün kahada xüsusi yerlər var idi.

**25. İBARHİMXƏLİL XANIN KƏMƏND İSTİRAHƏT MƏKANI. MƏKAN QIZIL** qayanın aşağı hissəsindən başlayaraq **ÇAXMAQ MEŞƏSİNİN** ərazisinə kimi uzanan dağ yamacında yerləşirdi.

Yamacın eni **8-10 metr, uzunluğu isə 2-3 km olar.** İstirahət məkanında **3 otaq, 1 tövlə və 2 təbii su mənbəyi var. Otaqlar – istirahət, mətbəx, hamam və at tövləsindən ibarət idi.**

**Qarabağ xanı İbrahimxəlil xan Daşaltı, Kirs və Çaxmaq meşəsi** ətraflarına gəzməyə və heyvan və quş ovuna çıxarkən kəmənd məkana gələr və ətrafındakı adamlarla

orada istirahət edərdi. Bundan başqa xan tez-tez ailə üzvləri ilə birlikdə kəmənd istirahət məkanında istirahət edərdi.

Hay quldurları baxımsızlıqdan istifadə edərək istirahət məkanını dağıtmışlar. Bu quldurlar binaları söküb qızıl axtarırdılar...

İstirahət məkanının xarabalıqlarının qalıqları hazırda durur.

**26. ŞUŞA KAHASI.** Kaha Üç mıx dağının aşağı hissəsində, Daşaltı çayının sol sahilində, Dəlik daş ərazisində yerləşir. Kahaya mağara da deyilir. Kaha – mağara **dəniz səviyyəsindən 1400 metr yüksəklikdə yerləşir.** Uzunluğu **120 metr, eni isə 20 metrə qədərdir.**

Kaha – mağara **Daş dövrünə aid müxtəlif əmək alətləri ilə elmə məlumdur.** Arxeoloji qazıntılar zamanı **PALEOLİT – QƏDİM DAŞ dövrünə aid iki kobud daş çapacaq, MEZOLİT – Paleolitdən – NEZOLİTƏ keçid dövrünə aid kiçik bıçaqlar aşkar edilmişdir.**

Kahada **e.ə. 5-4-cü minilliklərə aid ENOLİT – MİS - DAŞ dövrü, NEOLİTDƏN YENİ DAŞ DÖVRÜNƏ KEÇİDƏ aid gil qablar, TUNC, DƏMİR dövrlərinə və orta əsrlərə aid saxsı məmulat qalıqları aşkar edilmişdir.**

Kaha – mağarada tapılan maddi-mənəvi əşyalar sübut edir ki, **KAHA-MAĞARA** qədim əcdadlarımızın yaşayış məskəni olmuşdur.

**27. DAMCILI BULAQ.** Şuşa şəhərinin yaxınlığında yerləşirdi. Damcı-damcı axtığına görə belə adlanır. Yaşıllıqlar içərisində yerləşdiyi üçün insanların xoşladığı istirahət yeri idi.

**28. XƏZİNƏ QAYASI.** Qaya Cıdır düzündən Daşaltı

çayını sol sahilində yerləşir. Qaya bir neçə yamaca bölünür. Yamaclar müxtəlif bitkilərlə, Xarıbülbül və bənövşə gülləri ilə zəngindir. Quşlar qayanın kiçik kaha və oyuqlarında yuva quraraq nəsillərini artırırdılar. Xəzinə qayasında qaranquşlar daha çox məskunlaşırdılar.

Yumurtadan çıxan quş balalarından bəziləri yuvadan çıxaraq Dəlik Daş cığırına düşürək məhv olurdular. Ona görə ki, onlar uçuşa hazır olmadan yuvadan çıxırdılar.

Zəngin təbiətinə görə qayaya **Xəzinə qayası deyilir.**

**29. QARA KAHA.** Kaha Dəlik daş deyilən ərazidə yerləşir. Uzunluğu **8-9 metr, hündürlüyü 5-6 metrə qədərdir. Onun** ətraf əraziləri mal-qara üçün zəngin təbii otlaqdır. Bu otlaqlar Şuşa kahasına qədər uzanır. Oradan isə Çaxmaq meşəsinin ətraf ərazisi ilə tamamlanırdı. Qara kahada mal-qara otaranlar istirahət edər, yemək hazırlayır və çay dəmləyərdilər. Ocağın tüstüsü kahanın daxilini qaraltmışdı. Ona görə də Qara Kaha deyilirdi.

Qara Kaha yaz və yay alarında çobanların yaylağı olardı.

**30. ƏMCİK KAHA. Qara Kahanı Əmcik Kahasından** geniş dərə ayırır. Şuşa şəlaləsi həmin dərə vasitəsi ilə axıb Daşaltı çayına tökülürdü. Kaha geniş və əzəmətli idi.

Çobanlar günorta vaxtı quzuları analarının yanına buraxıb əmizdirirdilər. **Kahanın Əmcik** adı buradan götürülürmüşdür.

Əmcik Kahasının başqa bir sirri var idi. Kahanın yuxarı hissəsində yerləşən oyuqlarda **göyərçinlər, qaranquşlar, sərçələr yuva qurub nəsil artırardılar.**

**Arılar beçə verən zaman** arı sahibi vaxtında yeni arı ailəsini arı yeşiyinə yığa bilmirdisə o zaman beçə dəstəsi

başqa yerə uçub özlərinə çığınacaq tapardılar.

Əmcik Kahasının yuxarı hissəsində arı ailəsi özünə çığınacaq salmışdı. Yay fəslinin sonu və payız fəslinin əvvəllərində həmin oyuqdan bal axıb kahanın aşağısında olan sal daşların üzərinə tökülürdü.

Arı saxlayanlar dəfələrlə həmin arı ailəsini tutmağa cəhd etsələr də bu mümkün olmamışdı. Ona görə ki, arı ailəsi **60-70 metr** hündürlükdə məskən salmışdılar.

31. **DAŞ XIRMAN. Xırman geniş dairəvi daşdan ibarət idi. Arpa, buğda, çəltik və darı əkənlər, xırmana yaxın olan kolxozların taxılçıları dərzlərini həmin xırmanda döyürdülər.**

Xırman qaya üzərində yerləşdiyi üçün döyülən taxılın küləşdən (samandan) ayrılmasına əlverişldi şərait yaradırdı. Xırman daima küləkli olardı. Bu sətirlərin müəllifi öz həmyaşıdları ilə **Daş Xırmanda vəl sürmüşdü.**

Tamamilə daşdan ibarət olduğu üçün **xırmana DAŞ XIRMAN DEYİLİR.**

**32. DOVŞANLI MEŞƏ.** Daş zırmanın sol sahilində geniş kolluqdan ibarətdir. Dovşanlar məskəni sayılırdı. Çoxlu dovşan yaşadığı üçün talaya **DOVŞANLI MEŞƏ deyilir.**

**33. İKİ GÖZLÜ KAHA.** Kaha **iki** qoşa gözdən ibarət olduğuna görə belə adlanır. İstirahət üçün yararlı deyildi.

**34. ŞİŞ QAYA.** Təxminən **10-12 metr hündürlükdə olardı.** Qayanın başına çıxmaq üçün əlverişli şərait var idi. Qayanın baş hissəsi **yarım metrə qədər şiş idi.** Həmin yerə çıxanda **Topxana, Çaxmaq meşəsi, Qızıl qaya, Qotur bulaq, Bağrıqan dağı və otlaqlar aydın görünürdü.**

Qayanın zirvəsi **ŞİŞ olduğu üçün ŞİŞ QAYA deyilir.**

Deyilənə görə hay faşistləri qayanın bünövrəsini qazarkən qaya aşıb yolu tutmuşdu.

**35. QIZIL QAYA.** Qayanın baxarı qırmızı mərmər daş olduğu üçün Günəş ətrafa nur saçanda qaya qızılı rəngə bürünürdü. Ətrafa yaraşıq verirdi. Qotur bulağın üst ərazisində **40-50 metr hündürlükdə, Topxananın sağ sahilində yerləşir.**

**Günəş çıxarkən** qızılı rəngə çaldığı üçün ona **QIZIL QAYA DEYİLİR.**

**36. AĞABƏYİM ağanın KÖRPÜSÜ.** Körpü Qarabağ xanlığının xanı İbrahimxəlil xanın qızı **AĞABƏYİM ağa** tərəfindən Daşaltı çayı üzərində tikildiyinə görə, onun adı ilə adlanır.

**37. AĞABƏYİM ağanın İSTİRAHƏT EVİ.** Ağabəyim ağanın tikdirdiyi körpünün **sağ tərəfində,** Daşaltı çayının sahilində yaraşıqlı ərazidə, **iki mərtəbəli, dörd otaqdan ibarət olan istirahət məkanı idi.** Evin həyətində bir neçə tut və meyvə ağacları var idi.

Ağabəyim ağa öz rəfiqələri və xidmətçiləri ilə yaz və yay aylarında burada istirahət edərdi. El arasında bu istirahət məkanı **AĞABƏYİM ağanın İSTİRAHƏT EVİ adlanır.**

**38. ÇAXMAQ MEŞƏSİ.** Yuxarıda bu barədə müəyyən məlumat verilmişdir. Qayanın daşları qığılcım saçdığı üçün meşə **ÇAXMAQ MEŞƏSİ adlanır.**

Meşənin zəngin **FLORA və FAUNASI var.**

**39. BAĞRIQAN DAĞI.** Hay ünsürləri dağın ətəyində **Sıznaq** adlı kənddə yuva salıb orada yaşayırdılar.

**1905-1906-cı illərdə** hay ünsürləri azərbaycanlılara qarşı qanlı cinayətlər törətmişdilər. **M.M.NƏVVAB** yazırdı

ki, hayların dağda törətdikləri cinayət əməllərini eşidəndə adamın bağrı qan olurdu.

**Ona görə də dığa BAĞRIQAN DAĞI deyilir**.

**40. ŞOR BULAQ.** Yuxarıda dediyim kimi şor bulağın biri Şuşanın daxilində, o birisi isə İsa bulağına gedən yolun sol sahilində yerləşirdi. Bulaq Şuşa varlılarından biri tərəfindən inşa edilmişdir. Onun suyundan məişətdə təmizlik üçün istifadə olunurdu…

**41. AĞA KÖRPÜSÜ.** Körpü **AĞABƏYİM ağa** tərəfindən inşa edilmişdir. Körpü **XƏLİFƏLİ** çayının **DAŞALTI** çayının birləşdiyi ərazidə tikilmişdir.

Körpü karvanlar, ticarət arabaları və piyadalar üçün inşa olunmuşdur. Körpüdən istifadə edənlərdən heç bir kömrük haqqı alınmırdı.

**42. İSA BULAĞI.** Meşənin yamancından axan saf sulu su mənbəyini bulaq formasına salan Şuşa sakini **İSA** adlı ovçu olmuşdur. Uzun müddət bulaqdan ovçular, maldarlar istifadə etmişlər.

Vaxt keçdikcə bulağın şöhrəti ətrafa yayılır, insanların istirahət məkanına çevrilirdi. İsa bulağın yenidən qurulmasını təmin edir. Beləliklə də İsa bulağı bütün Azərbaycanda insanların diqqətini özünə cəlb edir.

Yay aylarında Şuşaya istirahətə gələnlər İsa bulağının suyundan içmədən geri qayıtmazdılar. Hətta bulağın suyundan qohum və tanışlarına da aparırdılar.

**Bulaq indi də – İSA BULAĞI adlanır.**

**43. QAYA BULAQ.** Bulaq **uç axarlı idi.** Ortadan axan bulaq **sol və sağ tərəflərdən axan bulaqlardan daha gur**

**idi.** Bulağın yerləşdiyi qaya geniş ərazini əhatə edir. Çobanlar mal-qaralarını günorta vaxtı burada suvarırdılar.

Bulaq nəhəng qayanın aşağı hissəsindən təbii yolla axırdı. Ona görə də bulaq **«QAYA BULAQ» adlanır.** Yol ayrıcında yerləşirdi.

**44. QARA QAYA VƏ YA XAN ÖLƏN SƏNGƏR. Qaraqaya** dağ daşlarından ibarətdir. Onun uzunluğu **12-14 metr, hündürlüyü isə 6-8 metr** olardı. Qayanın qarşısında yaşayış sahəsi var. Qarabağ xanının xanı İbrahimxəlil xan ailə üzvləri və yaxın adamları ilə qeyd olunan yaşayış sahəsində yerləşmişdi. Təxminən onların sayı **35 nəfər idi.**

**Şuşa qalasının** komendantı, dəli mayor İ.Lisanoviç alçaqlıq edərək, **1806-cı il iyunun 2-də axşam bir dəstə silahlı quldurla** hücum edib İbrahimxəlil xanı və yuxarıda göstərilənlərin hamısını qətlə yetirdilər. Qara qayanın qarşısında yerləşən qətl yeri **XAN ÖLƏN SƏNGƏR** kimi tarixə həkk olunmuşdur.

**İbrahimxəlil xanın və yaxın adamlarının** günahsız qətlindən **112 il sonra Romanovlar sulaləsi və körpələri də güllələndilər... Günahsız qan yerdə qalmadı..**

**45. DƏVƏ BATIRAN GÖL.** Daşaltı çayının **2** qayası arasında yerləşirdi. Dərin və üzmək üçün yararı idi. Başqa göllərə nisbətən Daşaltı çayında ən dərin göldir.

**ONA GÖRƏ DƏ DƏVƏBATIRAN GÖL adlanır.**

**46. UZUN GÖL.** Daşaltı çayında yerləşir. Dərinliyi **1,5 metrə qədər idi.** Gənc oğlan uşaqlar üçün əlverişli idi. Onlar üzməyi bu göldə öyrənirdilər.

Gölün uzunluğu **6 metrə bərabər idi.** Ona görə də **UZUN GÖL adlanır.**

**47. LİLLİ GÖL.** Yağış yağanda və qar əriyəndə Daşaltı çayında suyun səviyyəsi artır və sürətlə axırdı. Bu zaman gölün daxilində su bulanırdı. Çayın axın sürəti sakitləqdikdən sonra, göl üzmək üçün əlverişli olurdu.

Əgər göldə üzənlər gölün dibinə toxunardısa, onun suyu ani olaraq lil rəngi alırdı.

**Ona görə də gölə LİLLİ GÖL deyir.**

**48. DABBAXANA KAHASI.** Kaha qırx pilləkənin aşağı ərazisində, geniş kahadan ibarətdir. Gur keşməsi var. Onun suyu çox da şor deyildi. Dabbaxlar kahadan gön aşılamaq üçün istifadə edirdilər.

**Ona görə də kaha DABBAXANA KAHASI adlanır.**

Kahanın qarşısında tut, alça, armud ağacları və istirahət sahəsi, taxıl üyütmək üçün dəyirman var.

**49. YARMA KEÇİDİ.** Keçid böyük torpaq təpənin **iki hissəyə** ayrılması nəticəsində yaranmışdır. Yarğandan keçən yol **İrəvan xanlığına** gedirdi. İqtisadi cəhətdən əlverişli idi.

**İki təpənin arasında olduğu üçün keçidə YARMA KEÇİDİ deyilir.**

**50. MİRZƏ HƏSƏN QƏBİRİSTANLIĞI.** Məzarxana Şuşa şəhərinin yaxınlığında yerləşir. Geniş ərazini əhatə edir.

**1840-cı ildə** qəbirstanlıqda şuşalı şair **MİRZƏ HƏSƏN MİRZƏ CƏFƏR** oğlu dəfn edilmişdir. Qəbiristan onun adı ilə **MİRZƏ HƏSƏN QƏBİRİSTANI adlanır.**

**51. TÜLKÜ DƏRƏSİ.** Qara qayanın qarşısında yerləşən, müxtəlif ağaclarla, kol-kosla örtülü olan dərin dərədir.

Tülkülərin çox yaşadıqları dərə **TÜLKÜ DƏRƏSİ adlanır.**

**52. BÖYÜK KİRS DAĞI.** Qarabağ dağ silsiləsində ən yüksək zirvələrdən biridir. Kirs dağı **ORTA YURANIN (KELT dilində YURA MEŞƏ deməkdir)** vulkanogen çökmə suxurlarından yaranmışdır. Hündürlüyü **2725 metrdir.**

**Böyük Kirs dağı təbiətin Azərbaycan xalqına bəxş etdiyi böyük nemətdir.**

**KİÇİK KİRS DAĞI** Böyük Kirs dağının qarşısında yerləşir. **Hündürlüyü 1346 metrdir.**

**Kiçik Kirsə BALA KİRS də deyilir.**

**Dağları bir-birindən ayırmaq üçün BÖYÜK və KİÇİK sözləri işlədilir.**

**52. ŞUŞANIN ƏTRAFINDA GƏNCƏ, İRƏVAN, XƏLİFƏLİ və MUXTAR kənd qapıları var.**

Bu qapıları təkrar qeyd edirəm ki, onların sırasına başqa qapı əlavə edilməsin...

**53. ŞUŞANIN SOL TƏRƏFİNDƏN XƏLİFƏLİ, SAĞ TƏRƏFİNDƏN İSƏ ALLI (DAŞALTI) çayı axır.**

**54. ŞAMİLİN BAĞI.** Bağ Çaxmaq meşəsinin aşağı qurtaracağında yerləşir.

Bağ onu Salanın adı ilə adlanır. Şamil Şuşa varlılarının nümayəndəsi kimi tanınır. O, seçilib-sayılan soydan idi. Bağda **ağ və qara tut, alma, armud, alça, gavalı və başqa ağaclar əkilmişdir.** Bağa girmək üçün çayın üzərindən Şamil ağac körpü saldırmışdır.

Bağda təbii bulaq-keşmə də var. Bura xüsusi istirahət məkanı idi. Xanlıq və sonrakı dövrlərdə bağ azərbaycanlıların istirahət yeri olmuşdur. Bulaq **Şamilin bulağı** adlandırılır.

**55. QARTALLI QAYA.** İbrahimxəlil xanın kəmənd istirahət məkanında, hündürlüyü **400-500 metr olan daş dağdır. Qartallar qayanın böyük oyuqlarında yuva qurub bala çıxarırdılar.**

**Qartallar məskəni olan qayaya QARTALLI QAYA deyilir.**

Qartallar yenicə qanad çalmağı başlayan balalarına təlim keçmələri də olduqca maraqlı idi. Bu mənzərəni biz **Leyli qayasında əyləşib seyr edərdik...**

**56. SARIBABA DAĞI.** Dağ Şuşa rayonu ilə Laçın rayonunun sərhədində yerləşir. Qarabağın dağ silsiləsinə aiddir.

**QARQAR və Xəlifəli çaylarının sol qolu, Bəzirgan – Həkəri çaylarının sol qolu öz mənbəyini Sarıbaba dağından götürürlər.**

**Dağın hündürlüyü 2205 metrdir.** Sarıbaba dağının yaylaq yerləri də var.

**57. ƏLİHÜSEYN BAĞI.** Bağ Şuşa rayonunun **Xəlifəli kəndi ərazisində yerləşir.** Xəlifəli çayı üzərində körpü salınmışdır.

Bağda çoxlu tut ağacları və başqa meyvə ağacları var idi.

**58. İMAM ƏLİ KAHASI.** Kaha Şuşa qalasından **MUXTAR KƏNDƏ** gedən yolun **sağ** sahilində, **Dovşanlı meşənin** aşağısında geniş daş kahadı. Kaha müqəddəs idi. İmam Əlinin atının arxa ayağının izi kahanın girəcəyindəki daşda əks olunmuşdupr. Eyni zamanda kahada İmam Əlinin tutacaq oyuğu da var idi. Ziyarətçilər həmin oyuğa nəzir qoyur və müxtəlif rəngli saplar və parça lentləri bağlayırdılar.

İstək və arzularına çatanlar bağladıqları sap və lentləri

oyuqdan açıb, götürür və yenidən ocağa nəzir verirdilər.

**Müqəddəs ocaq ƏLİ KAHASI kimi mənhur idi...**

**59. SULU KAHA.** Dəlik daş ərazisində, Şuşa mağara düşərgəsinin yaxınlığında yerləşir. Dağın kahasından su axırdı.

**Ona görə də SULU KAHA adlanır.**

**60. ŞUŞA RAYONUNUN MALIBƏYLİ KƏNDİ ƏRAZİSİNDƏ – ÇİNAR BULAQ, FINDIQLI MEŞƏ, AĞVAN TƏPƏSİ, AQVAN KURQANLARI, ÜÇ BULAQ VƏ AĞVAN düzü var.**

Mənaları aydındır. İzahata ehtiyac yoxdur...

**61. ŞUŞA RAYONUNUN ZARISLI KƏNDİ ƏRAZİSİNDƏ – QIZIL QAYA, BAHAR BƏND, XAN YALI, KARTOF ƏRAZİSİ, TOPGÖRMƏZ DƏRƏ, ƏSGƏR DƏRƏSİ, NƏBİLƏR, SƏBƏTKEŞMƏZ QAYA, ATLI KEÇİDİ, RUS ÖLƏN DƏRƏ, AT QORUĞU, KOR MÜRSƏLİN DƏYİRMANI VƏ KARVANSARASI, HUMAY QAYA, KƏBLƏ ABBAS BULAĞI, BUĞA QAYA, ONUN YAMANCINDA BİTƏN ƏLƏM AĞACI var.**

**62. ŞUŞA RAYONUNUN ŞIRLAN KƏNDİ ƏRAZİSİNDƏ – TURŞSU MİNERAL SU MƏNBƏYİ, LÜLƏ KAHA, QARA KAHA VƏ SARIBABA DAĞININ ƏTƏYİNDƏ YERLƏŞƏN YAYLAQ var.**

Dünyada elə bir şəhər tapmaq olmaz ki, onun ərazisi Şuşa qalasının ərazisi kimi maddi-mədəni cəhətdən zəngin olsun. Bu mənada **ŞUŞANIN hər qarış torpağı, daşı canlı tarixdir, təbii mənzərədir. Təməlinin qoyulduğu 272 olsa da min illərə bərabər inkişaf yolu keçmişdir.**

Budur Şuşa qalasının tarixdə tutduğu mövqe. Elm və mədəniyyətimizin, musiqimizin və incəsənətimizin mərkəzi kimi **CƏNUBİ QAFQAZDA ÖN MÖVQEDƏ dayanan ŞUŞA QALASI. Özünün məğrurluğunu həmişə saxlamış və indi də onu beynəlxalq aləmə nümayiş etdirir.**

Hazırladığımız bu materialda məqsəd ondan ibarətdir ki, Şuşa şəhərinin daxilində və onun ətrafında mövcud olan tarixi **yurd və yer adları yaddaşlarda qalsın...**

**ƏLBƏTTƏ BUNLAR HAMISI DEYİL...**

# XXIX FƏSİL
# AZƏRBAYCAN RESPUBLİKASI İLƏ TÜRKİYƏ RESPUBLİKASI ARASINDA ŞUŞA BƏYANNAMƏSİNİN İMZALANMASI

**2022-ci il iyun ayının 15-də Türkiyə Respublikasının Prezidenti Cənab RƏCƏB TAYYİB ƏRDOĞANIN** hay faşistlərinin işğalından azad edilən **Azərbaycan Respublikasının Mədəniyyət Mərkəzi və Musiqi Beşiyi, Qarabağımızın şöhrət tacı olan ŞUŞA şəhərinə səfər etməsi və iki dost, əbədi qardaş dövlət arasında müttəfiqlik haqqında ŞUŞA BƏYANNAMƏSİNİN imzalanması dövrümüzün ən mühüm tarixi hadisəsidir.**

Müttəfiqlik və strateji münasibətlər haqqında **BƏYANNAMƏNİN** girişində Azərbaycan və bütövlükdə Türk dünyasının qədim mədəniyyət beşiyi olanq Şuşa şəhərində **iki** qardaş dövlətin **prezidentlərinin** görüşünün mühüm əhəmiyyəti vurğulanır. **101 il** bundan əvvəl imzalanmış **QARS** müqaviləsinə isçtinad edilir. Eyni zamanda bu tarixi sənəddə **1994-cü il fevral ayının 9-da** imzalanmış **«AZƏRBAYCAN RESPUBLİKASI və TÜRKİYƏ RESPUBLİKASI ARASINDA DOSTLUQ VƏ ƏMƏKDAŞLIĞIN İNKİŞAFI HAQQINDA MÜQAVİLƏ»nin** və **«AZƏRBAYCAN RESPUBLİKASI VƏ TÜRKİYƏ RESPUBLİKASI ARASNIDA ƏMƏKDAŞLIQ VƏ QARŞILIQLI YARDIM HAQQINDA PROTOKOL»un** və eyni zamanda da **2010-cu il avqust ayının 16-da imzalanmış «AZƏRBAYCAN RESPUBLİKASI VƏ TÜRKİYƏ RESPUĞLİKASI ARASINDA STRATEJİ TƏRƏFDAŞLIQ VƏ QARŞILIQLI YARDIM HAQQINDA MÜQAVİLƏ»nin** rəhbər

tutulduğu bildirilir.

Bütün bunlarla yanaşı, faşist haylardan azad olunmuş Şuşa şəhərində **101 ildən** sonra imzalanan müttəfiqlik haqqında birgə **BƏYANNAMƏDƏ iki qardaş və dost dövlətin gələcək çoxşaxəli, birgə fəaliyyət istiqamətləri göstərilir.** Bu tarixi sənəddə dövrümüzün ən mühüm məsələləri, beynəlxalq müstəvidə birgə əməkdaşlıq, ilk növbədə müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri öz əksini tapmışdır. Hər iki tərəf xarici siyasət sahəsində əlaqələndirmənin və fasiləsiz ikitərəfli siyasi məsləhətləşmənin həyata keçirilməsinin vacibliyini qeyd edərək bu istiqamətə Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında **YÜKSƏK SƏVİYYƏLİ STRATEJİ ƏMƏKDAŞLIQ ŞURASI** çərçivəsində fəaliyyətlərin əhəmiyyətini göstərilir.

Eyni zamanda Şuşa Bəyannaməsində qeyd olunur ki, hər iki tərəf beynəlxalq hüququn bütün tələblərinə hörmətlə yanaşmağı xarici siyasətdə əsas tutacaqlarını bundan sonra da davam etdirəcəklər.

Şuşa Bəyannaməsində siyasi-iqtisadi, ticarət, mədəniyyət və sosial həyatın bütün sahələrini əhatə edən əməkdaşlığın əsasları öz əksini tapmışdır.

Şuşa Bəyannaməsində xüsusilə bildirilir ki, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası bundan sonra da beynəlxalq münasibətlərdə birlikdə fəaliyyət göstərəcəklər.

**44 günlük zəfər müharibəsindən sonra** beynəlxalq aləmə nümunə olan Azərbaycan Türkiyə birliyin həmrəyliyi və strateji əməkdaşlığı daha yüksəkliyə qalxdı. Xüsusilə bölgədə təhlükəsizlik baxımından müstəsna əhəmiyyət kəsb edən müttəfiqlik münasibətləri haqqında **ŞUŞA BƏYANNAMƏSİNİN** imzalanması tarixə qızıl hərflər kimi həkk olundu.

# XXX FƏSIL
# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, SİLAHLI QÜVVƏLƏRİMİZİN ALİ BAŞ KOMANDANI İLHAM ƏLİYEVİN ŞUŞA ŞƏHƏRİNƏ SƏFƏRİ

## ŞUŞA ŞƏHƏRİNƏ SƏFƏR
## 16 mart 2021-ci il

***Azərbaycarı Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva martin 16-da Şuşa şəhərinə gəlmişlər.***

**İlham Əliuev:** Dünən Azıxdan çıxdıq Şuşaya gəldik. Yollar hələ ki, çox bərbad vəziyyətdədir, çünki yol yoxdur, **«Zəfər yolu»** ilə gəlmişik. Hələlik ancaq torpaq yoldur, çünki havalar soyuq keçir, asfalt döşəmək mümkün deyil. Palçıq idi və güclü duman var idi. Ona görə Azıxdan Şuşaya 1 saat 45 dəqiqəyə gəldik. Gecə Şuşada qaldıq. Səhər saat 9-da çıxmışıq və gedirik, bir neçə tədbir vardır. Hava açıqdır, ancaq yenə də buludlar şəhərin üstündədir.

Keçən dəfə yanvar ayında gəlmişdik. Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün büstlərini Şuşaya qaytardıq. Bu gün bir daha Şuşaya gəlmək insana böyük zövq verir. Sol tərəfdə Şuşanm qarlı, dumanlı dağlarıdır.

Vaqifin məqbərəsində tezliklə bərpa işləri başlanacaq. Məqbərənin əvvəlki görkəmi bərpa ediləcək. Bu gün bərpa işlərinə start veriləcək.

Məscidlərin bərpası ilə bağlı artıq müvafiq göstərişlər verildi. İlkin araşdırmalara başlanıldı və yaxın gələcəkdə

layihə təqdim ediləcəkdir.

Şuşa bütün mövsümlərdə gözəldir. Bulaqları da bərpa edəcəyik. Otuz il ərzində ermənilər bütün bulaqlarımızı qurudublar. Görün şəhər nə gündədir, düşmən Şuşanı nə günə salıb.

Vaqifin məqbərəsinə yaxınlaşırıq. Artıq işlərə start verilib. Layihəyə baxmışam. Bax, burada fotoşəkillər də vardır. **Ulu Öndər Heydər Əliyev** burada olarkən həm açılışda, həm də Vaqif Poeziya Günündə iştirak edib. Tarixi bərpa edirik. Bu layihəni Heydər Əliyev Fondu öz vəsaiti hesabına icra edəcək, Heydər Əliyev Fonduna xas olan zövqlə, **Mehriban xanımın** rəhbərliyi ilə.

***Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Şuşada Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinə gəldilər.***

***Prezidentin köməkçisi Anar Ələkbərov dövlət başçısına və xanımına bu kompleksin bərpası layihəsi ilə bağlı məlumat verdi. Bu layihə Heydər Əliyev Fondu tərəfindən həyata keçiriləcək. Layihənin icrası zamanı məqbərənin əvvəlki vəziyyətinin bərpasına xüsusi diqqət yetiriləcək. 1992-ci ildə ermənilər Şuşanı işğal edərkən bu abidəni də vəhşicəsinə dağıdıblar.***

- Mən bu şəkilləri arxivdən tapmışam. Vaqif Poeziya Günləri keçirilirdi, 1982-ci ilin yay ayında. Məqbərənin önündə Ulu Öndər Heydər Əliyev. İnsanlar da, bax, burada, bu tədbirdə iştirak edirdilər. Keçən dəfə burada olarkən bu yerə fikir verdim və dedim ki, arxivdən şəkillər tapılsın, görək burada nə olub və bu şəkil tapıldı. Görürsünüz, Vaqifin təsviri, bax, bu divarda idi. Mənfur düşmən bunu da söküb, bu mərməri də söküb. Bu da qəbirin üstündə sinə daşı idi.

Vandal erməni bunu da söküb. Hamısını bərpa edəcəyik. Ulu Öndərin o vaxt Şuşaya səfəri ilə əlaqədar arxivdən daha bir neçə şəkil tapmışam, mən də buradayam. Bunda da Cıdır düzündəyik. Bunu bir dəfə göstərmişdim, Natəvan bulağının önündə. Bir şəkil də var, onu da göstərməliyəm. Burada Vaqifin büstü də var idi. Keçən dəfə Şuşada olarkən mən göstərdim ki, ermənilər büstü söküb dükan tikiblər. Bax, budur. Vaqifin büstü, Ulu Öndər də baxır. Bu büstü də bərpa edəcəyik.

***Sonra dövlət başçısı, xanımı və qızı xan sarayının qalıqlarına baxdılar. Bu tikili Şuşa şəhərinin tarixi mərkəzində yerləşir və Qarabağ xanlığının banisi Pənahəli xanın iqamətgahı olmuş tarixi saray idi. Erməni vandalları işğal zamanı bu tarixi binanı da dağıdıblar.***

- Bura Pənahəli xanın sarayı olub. Şuşanı quran, Şuşanı salan Pənahəli xan özü üçün burada saray tikdirib. İndi görün ermənilər nə günə salıblar bu sarayı. Tarixi abidə idi. Mənfur düşmən gəlib bizim torpağımızı zəbt edib, insanları qovub, tarixi abidələrimizi dağıdıb, söküb, vandallıq edib, barbarlıq edibdir.

Bütün beynəlxalq təşkilatlar gəlsinlər, görsünlər bunu. Erməniləri müdafiə edən, onları dəstəkləbyən, onlara həmişə arxa, dayaq olan dairələr gəlsinlər, görsünlər bu vəhşilər nə ediblər.

Azad edilmiş torpaqlar erməni vəhşiliyinin şahididir. Dünya tarixində buna oxşar vəhşilik bəlkə də olmamışdır. Gələsən, başqasının torpağında yaşayasan, sonra fürsətdən istifadə edib buradan yerli əhalini qovasan, öldürəsən, yandırasan, soyqırımı törədəsən. Sonra da o xalq ki, sənə qucaq

açıb, səni qəbul edib, sənə burada yaşamağa imkan verib, onun tarixi abidəsini, bax, bu günə qoyasan. Vəhşilik. Mən deyəndə ki, sanki vəhşi qəbilə keçib buradan, bax, bu mənzərəni nəzərdə tuturam.

***Sonra Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Molla Pənah Vaqifin büstünün qoyulacağı əraziyə gəldilər.***

***Qeyd olundu ki, Molla Pənah Vaqifin büstünün bərpası layihəsi də Heydər Əliyev Fondu tərəfindən icra olunacaq.***

- Bu, postamentin bünövrəsidir. Ermənilər dağıdıblar, biz bərpa edəcəyik. Erməni vandalları işğal zamanı Şuşa şəhərinin mərkəzi meydanında yerləşən, XIX əsrə aid Karvansara Tarix-Memarlıq Kompleksini də dağıdıblar.

***Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Karvansara Tarix-Memarlıq Kompleksinə baxdılar.***

***Dövlət başçısına burada görüləcək işlərlə bağlı məlumat verildi.***

***Şəhərdə erməni vəhşiliyi ilə üz-üzə qalan tikililərdən biri də Şuşa Dövlət Rəsm Qalereyasının binasıdır.***

***Qalereya 1982-ci ildə yaradılıb və işğal dövrünədək - 1992-ci ilədək fəaliyyət göstəribdir.***

- Bura Şuşa şəhərinin rəsm qalereyası olub. Azərbaycan hökuməti burada qalereya təşkil etmişdi. İşğal zamanı düşmənlər buradan öz məqsədləri üçün istifadə ediblər. İndi tamamilə yenidən bərpa ediləcək və yenə də rəsm qalereyası kimi fəaliyyət göstərəcəkdir.

***Sonra Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva «Qarabağ» mehmanxanasında***

***aparılacaq təmir-bərpa işləri ilə tanış oldular. Mehmanxana ötən əsrin 80-ci illərinin əvvəllərində inşa edilib. Bina baxımsızlıqdan tamamilə yararsız vəziyyətə düşüb. Burada görüləcək işlər nəticəsində mehmanxana müasir səviyyəyə çatdırılacaq və Şuşa şəhərinə səfər edəcək qonaqların rahatlığı üçün bütün şərait yaradılacaqdır.***

***Dövlət başçısına və xanımına Şuşa şəhərində tarixi və dini abidələrin bərpası ilə bağlı görülən işlər haqqında məlumat verildi.***

İşğal dövründə hoteli də dağıdıblar, burada cəmi bir mərtəbə işləyib. Pis vəziyyətdə idi, qisa müddət ərzində şourum kimi hazırlanıb. Hotelin bütün otaqları bu stildə olacaq.

«Qarabağ» hotelində gedən yenidən qurulma işləri ilə tanış olduq. İşğal dövrürıdə hotel faktiki olaraq, fəaliyyət göstərmirdi, cəmi bir, ya iki mərtəbə fəaliyyət göstərirdi. Bu hotel də sovet dövründə Azərbaycanın büdcəsi hesabına tikilmişdi və ona **«QARABAĞ»** adı verilmişdi. Sonra mənfur düşmən hotelin adını dəyişdirib «Şuşi palace» qoyub. «Şuşi» adlı bir şəhər yoxdur, olmayıb və heç vaxt da olmayacaq.

***Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Şuşa Xalça Muzeyində də oldular. Qarabağ xalçaçılıq sənətinin ənənələrinin öyrənilməsi, qorunması və yaşadılması məqsədilə yaradılmış bu muzey də işğal zamanı ciddi ziyan görübdür.***

***Dövlət başçısı, xanımı və qızı Şuşada «Park hotel»in yerləşəcəyi binaya da baxdılar. Yenidən qurulmadan sonra hotel qonaqlarını müasir səviyyədə qarşılaya biləcək.***

\- Burada keçmiş sanatori korpusu olub. İşğal dövründə buradan kiçik hotel kimi istifadə ediblər, amma çox primitiv qaydada. Çox biabırçı bir şərait var idi. İndi yenidən

bərpa edilir. Bu da şourumdur, hotelin otaqları, bax, belə olacaq və bu il hotel artıq istifadəyə veriləcəkdir.

***Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlət başçısına icra olunacaq layihələrlə bağlı məruzə etdi.***

***Prezident İlham Əliyev Şuşada görüləcək işlərlə əlaqədar tapşırıq və göstərişlərini verdi.***

- Şuşa sanatorisinə də baxış keçirdik. Orada da korpusların bir çoxu ermənilər tərəfindən dağıdılıb. Amma bəzi korpuslardan istifadə etmək mümkün olacaq. Burada da kiçik hotellərin yaradılması nəzərdə tutulur. Nəzərə almalıyıq ki, Şuşaya çox böyük turist axını olacaq, ona görə burada 5, 4 və 3 ulduzlu hotellər olmalıdır.

Buradan da şəhərə, şəhərin ətrafında yerləşən dağlara gözəl mənzərə açılır. Amma bir daha görürük, ermənilər burada, demək olar ki, bir dənə də bina tikməyiblər. Bəlkə bu binanı tikiblər, bu da eybəcər bir tikilidir. Ancaq sovet vaxtında Azərbaycan tərəfindən tikilmiş binalardan istifadə ediblər, azərbaycanlıların evlərində yerləşiblər. Bütün bu evlər sovet vaxtından qalan evlərdir, «xruşovka»lardır.

Bunlar da öz müddətini çoxdan bitiribdir. Bu binaların vəziyyətinə indi diqqət yetirilməlidir.

Şuşada işğal dövründə təxminən 2000 adam yaşayırdı, onların da böyük hissəsi hərbçilər və onların ailə üzvləri idi. Ona görə də bu binaların böyük hissəsi boş qalmışdı. Baxın, burada bir dənə normal vəziyyətdə bina var, yoxsa yox?

Ermənilər Şuşanı erməni şəhəri kimi qələmə vermək istəyirlər. Halbuki Şuşanın təməlini qoyan Pənahəli xan olub və həmişə burada azərbaycanlılar yaşayıblar. Yaxşı, erməni şəhəri idisə, niyə əl gəzdirməmisiniz? Şuşa kimi mənzərəsi,

təbiəti olan şəhəri belə günə salmaq vəhşilikdir. Azərbaycanlıların evlərini dağıdıblar və hesab edirdilər ki, bu işğal əbədi olacaq. Biz işğala son qoyduq.

Mən demişəm ki, Şuşa nəinki Azərbaycanın, hətta dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcəkdir və biz buna nail olacağıq, 100 faiz. Bu da Realnı məktəbinin dağılmış binasıdır, görün ermənilər bu binanı nə günə salıblar. Sol tərəfdə də mənə verilən məlumata görə, internat məktəbi olub. Bunu da dağıdıblar, ancaq fasad hissəsi qalıbdır.

Biz artıq Şuşadan ayrılırıq, ancaq yenə də ayrılmaq istəmirik. Şuşa insanı özünə o qədər cəlb edir ki, buraya gələnlər qayıtmaq, getmək istəmirlər. Ancaq indi biz Bakıya qayıtmalıyıq. Yolüstü Daşaltı kəndində dayanacağıq. O kəndə də baxacağıq. Ondan sonra istiqamət Bakı şəhəridir.

**Mehriban Əliueva:** Hava günəşli, açıq, mavi səma.

**İlham Əliyev:** Şuşaya «**HƏLƏLİK**» deyirik. Şuşanın girişində Azərbaycan bayrağı dalğalanır və bundan sonra əbədi dalğalanacaqdır. Aşağıda Laçın dəhlizidir. Hava da yenə bizimlə həmrəydir. Günəş yolumuzu işıqlandırır. Bura isə Şuşa yarımstansiyasının binasıdır. Bu bina qısamüddət ərzində inşa edildi və Şuşanı dayanıqlı enerji ilə təchiz edəcəkdir. Keçən dəfə də yanvar ayında Şuşaya gələndə, Şuşaya yaxınlaşanda hava açıldı, Günəş bizi salamladı.

Buradan Şuşanın qayaları gözəl görünür. Azərbaycanın təbiəti də bizi salamlayır, çünki biz haqq yolundayıq, işimiz də haqq işidir.

Bura isə Daşaltı kəndidir. Daşaltı kəndi ilə də tanış olacağıq.

***Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və***

***qızı Leyla Əliyeva Şuşa rayonunun Daşaltı kəndinə gəldilər.***

**Aydın Kərimov: O,** Böyük Kirs dağıdır. Şuşanın su mənbələrindən biri onun ətəyindən gəlir.

**Mehriban Əliyeva: Bu, yeni Daşaltı hesab olunur?**

**Aydın Kərimov: Bəli.**

**Mehriban Əliyeva**: O da köhnə Daşaltı.

**İlham Əliyev:** Bizim hərbçilər oradan gəliblər.

Həm sağ tərəfdə, həm də sol tərəfdə Daşaltı kəndinin gözəl mənzərəsidir. Daşaltı kəndi də işğalçılardan azad edilib. Bizim müzəffər ordumuz məhz Daşaltıdan qalxaraq, sıldırım qayaları qət edərək, Şuşaya daxil olub. İrəlidə də Böyük Kirs dağıdır. Azərbaycanın gözəl təbiəti gözümüzün önündədir. Hansı tərəfə baxsan gözəllik, yaşıllıq görürsən. Bura Azərbaycan torpağıdır, Qarabağ torpağıdır. Bundan sonra Azərbaycan xalqı burada əbədi yaşayacaqdır.

***Erməni qəsbkarları tərəfindən 1992-ci ildə işğal olunmuş Daşaltı kəndi də hərtərəfli terrora məruz qalmışdı.***

***Prezident İlham Əliyev kəndin bərpası ilə bağlı tapşırıqlarını verdi.***

**ƏZİZ ŞUŞA, SƏN AZADSAN!**
**ƏZİZ ŞUŞA, BİZ QAYITMIŞIQ!**
**ƏZİZ ŞUŞA, BİZ SƏNİ DİRÇƏLDƏCƏYİK!**
**ŞUŞA BİZİMDİR! QARABAĞ BİZİMDİR!**
**QARABAĞ AZƏRBAYCANDIR!**

# MÜNDƏRİCAT

ÖN SÖZ........................................................................9
I fəsil. Dağlar məskəni Şuşa.................................... 12
II fəsil. Şuşanın florası və faunası ............................ 14
III fəsil. Şuşa şəhərinin coğrafi mövqeyi. İlk insan məskəni............................................................... 17
IV fəsil. Müstəqil Qarabağ xanlığının yaranması .... 19
V fəsil. Molla Pənah Vaqif və Qarabağ xanlığı ....... 22
VI fəsil. Ağa Məhəmməd Şah Qacarın Qarabağ xanlığına hücumları. Şuşa qalasını mühasirəyə alması.................................................................... 25
VII fəsil. Kürəkçay müqaviləsi və onun siyasi mahiyyəti ............................................................ 27
VIII fəsil. Şuşa şəhərinin əhalisi və sosial tərkibi .... 29
IX fəsil. Qarabağ xanlığı İbrahim xandan sonrakı dövrdə .................................................................. 30
X fəsil. Şuşa şəhərinin gerbi.................................... 32
XI fəsil. Şuşa şəhərinin məhəllələri və meydanları.. 33
XII fəsil. Şuşada milli mərasimlər........................... 42
XIII fəsil. Şuşada zorxana ........................................ 46
XIV fəsil. Şuşa qadınlarının və kişilərinin geyimləri49
XV fəsil. Şuşada zərgərlik məmulatları .................. 52
XVI fəsil. Azərbaycanın Qarabağ xanlığı bölgəsinin kənd təsərrüfatı ........................................................ 54
XVII fəsil. Şuşa şəhərinin ticarət həyatı.................. 57

XVIII fəsil. Şuşalıların qida məhsulları .................. 59
XIX fəsil. Qarabağda və Şuşa şəhərində xalçaçılıq . 62
XX fəsil. Şuşanın tarixi şəxsiyyətləri ....................... 64
XXI fəsil. Şuşa Azərbaycanın mədəniyyət məkanıdır ............................................................ 81
XXII fəsil. Şuşada təhsil, məktəblər və mədrəsələr . 93
XXIII fəsil. Qarabağ xanlığının kitabxanası ............ 98
XXIV fəsil. Hay ünsürlərinin Qarabağa köçürülməsi ......................................................... 99
XXV fəsil. Hayların Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü və Şuşa şəhərinin işğal edilməsi. Bu işğalın son nəticələri ............................................... 105
XXVI fəsil. Azərbaycanlıların soyqırımı .............. 113
XXVII fəsil. Qarabağ qədim Azərbaycan ərazisidir ............................................................ 122
XXVIII fəsil. Şuşa şəhərinin daxili ərazisində və onun ətrafında olan yer adları......................................... 138
XXIX fəsil. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Şuşa Bəyannaməsinin imzalanması....................................................... 156
XXX fəsil. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin Şuşa şəhərinə səfəri ................................ 158

**YUNİS HÜSEYNOV,**
**TARİX ÜZRƏ FƏLSƏFƏ DOKTORU**
**«QARABAĞ – ŞUŞA»**


Naşir: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov
Dizayner: İradə Əhmədova

---

Yığılmağa verilib: 12.06.2022.
Çapa imzalanıb: 01.08.2022.
Şərti çap vərəqi: 10,5
Tiraj: 100
"Füyuzat" nəşriyyatında çap edilmişdir.
Ünvan: Bakı şəh., Z.Xəlilov küç., 26
Tel.: 055 850 98 69